# QURBAN BAYRAMINIZ MÜBARƏK!


RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 150 (8466) CÜMƏ, 31 iyul 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Sosial layihələrin icrası pandemiya dövründə də davam edir

## Prezidentin Balakən, Şəki və Qəbələ rayonlarına səfəri bunu bir daha təsdiqlədi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Balakən, Şəki və Qəbələ rayonlarında səfərdə olub.

Balakən rayonuna səfəri çərçivəsində Prezident İlham Əliyev şəhərin mərkəzində Ümummilli Lider Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkında Ulu Öndərin abidəsini ziyarət edib, Balakən Şəhər Uşaq İncəsənət Məktəbinin yeni binasının, eləcə də Balakən regional "ASAN xidmət" Mərkəzinin açılışında iştirak edib. Mərkəzlə tanışlıqdan sonra Prezident İlham Əliyev ASAN könüllüləri ilə görüşüb. Dövlət başçısı görüşdə çıxış edib. Səfər çərçivəsində "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) Balakən Avtomatik İdarəetmə və Nəzarət Mərkəzi istifadəyə verilib.

Dövlət başçısı yenidən qurulan Balakən-Qazbinə-İtitala avtomobil yolunun açılışında da iştirak edib. Həmin tədbir çərçivəsində Balakən-Hənifə-Gülüzanbinə avtomobil yolunun təqdimatı da olub. Həmin gün Prezident Balakən rayonunda "Bal meyvə" Bağçılıq Təsərrüfatı ilə tanış olub.

Şəkiyə səfəri çərçivəsində Prezident İlham Əliyev xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Şəki şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub, Şəki rayonunun Qoxmuq-Baltalı-Babaratma-Qaradağlı-Qudula-Daşüz avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib, eləcə də Şəkidə koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli xəstəxanada yaradılan şəraitlə tanış olub.

Daha sonra Qəbələ rayonuna səfər edən Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsini ziyarət edib, koronavirus pandemiyasının qarşısının alınması məqsədilə ölkəmizdə həyata keçirilən qabaqlayıcı tədbirlər çərçivəsində Qəbələdə inşa edilmiş modul tipli xəstəxana kompleksində yaradılan şəraitlə tanış olub və Qəbələ rayonunda Əmirvan-Vəndam avtomobil yolunu yenidənqurmadan sonra istifadəyə verib.

Bax: səh. 2

# Prezident İlham Əliyevin tapşırığı ilə ölkəmizə yeni təcili tibbi yardım avtomobilləri gətirilib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən ölkəmizə yeni təcili tibbi yardım avtomobilləri gətirilib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı iyulun 30-da yeni təcili tibbi yardım avtomobilləri ilə tanış olub.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən alınan bu təcili tibbi yardım avtomobilləri koronavirusla mübarizə çərçivəsində tibbi xidmətlərin keyfiyyətinin daha yüksək səviyyəyə çatdırılması, bu sahədə maddi-texniki bazanın möhkəmləndirilməsi, o cümlədən səhiyyə sisteminin bu cür ixtisaslaşdırılmış avtomobillərlə təminatının yüksəldilməsi istiqamətində atılan növbəti addımdır.

Dövlət başçısına məlumat verilib ki, "Mercedes Sprinter 416" markalı avtomobilin bazasında Türkiyədə yığılan 24 reanimobil, 42 sadə təcili tibbi yardım avtomobili və Türkiyə istehsalı olan "Ford Transit" markalı 10 sadə və 24 reanimobil "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi ilə imzalanmış müqavilə əsasında satın alınıb. Artıq ölkəmizə 38 təcili tibbi yardım avtomobili idxal olunub. Onlardan 10-u Bakıya gətirilib, 28 avtomobil sərhədi keçib və paytaxta gətirilməsi nəzərdə tutulur. Qalan 62 avtomobil isə avqust ayının sonuna qədər ölkəyə çatdırılacaq.

Agentlik 2020-ci ildə Türkiyədə istehsal olunan "Fiat Doblo Maxi XL" markalı 84 ədəd təcili tibbi yardım avtomobili alıb. Bu avtomobillərin hamısının rayonlara verilməsi nəzərdə tutulur. Onların 70-i sadə komplektasiyalı, 10-u xüsusi defibrilyatorla təchiz olunan, 4-ü isə Ambulans Perinatal təyinatlıdır. Ambulans Perinatal təyinatlı avtomobillərdə yenidoğulmuşlara ilkin, təcili və təxirəsalınmaz tibbi yardımın göstərilməsi üçün bütün lazımi tibbi avadanlıq, küvez aparatları quraşdırılıb. Bu cür maşınların gətirilməsi ölkə səhiyyəsində yenilikdir. Avtomobillər ölçü baxımından kiçik olmaları ilə də fərqlənir ki, bu da onlara tıxac və ya dar yerlərdə sərbəst manevr etməyə imkan verir. "Ford Transit" bazasında təcili tibbi yardım avtomobilləri də müasirliyi ilə seçilir.

Azərbaycanda COVID-19-la mübarizə sahəsində çox mühüm tədbirlər görülür. Prezident İlham Əliyevin şəxsi tapşırığı ilə qabaqcıl şirkətlərin istehsalı olan ən müasir tibb avadanlığı ilə təchiz edilən bu cür maşınların ölkəmizə gətirilməsi hazırkı dövrdə, pandemiya ilə mübarizə aparılan bir şəraitdə çox mühüm rol oynayır. Bu, Azərbaycan dövlətinin vətəndaşlarının sağlamlığına nə dərəcədə həssas yanaşdığının göstəricisidir.

Bu maşınların salonlarının təchizat səviyyəsi xəstələrə bütün lazımi ilkin, təcili və təxirəsalınmaz tibbi yardımın göstərilməsinə və reanimasiya tədbirlərinin icra olunmasına imkan verir. Avtomobillər bir sıra özünəməxsus xüsusiyyətlərə malikdir. Agentlik tərəfindən 24 ədəd "Ford Transit" reanimobili də sifariş olunub. Bu avtomobillər respublikanın rayonlarına paylanacaq.

# Şəki şəhərində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şəki şəhərində 960 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyul 2020-ci il*

# Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun Oğuz-Şəki hissəsinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun Oğuz-Şəki hissəsinin yenidən qurulması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 10,0 (on) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun yenidən qurulmasının başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyul 2020-ci il*

# Mərakeşin Kralı Əlahəzrət VI Məhəmmədə

Əlahəzrət!

Əziz qardaşım!

Ölkənizin milli bayramı münasibətilə Sizə və qardaş Mərakeş xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Azərbaycan və Mərakeş arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Əminəm ki, bu əlaqələr həm ikitərəfli əsasda, həm də beynəlxalq təsisatlar, xüsusən də İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində birgə səylərimizlə bundan sonra da müvəffəqiyyətlə davam edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyul 2020-ci il*

# Olimpiya hərəkatının lideri

## İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən 23 il keçir

Dünyanın ən mötəbər turnirlərində uğurla çıxış edən idmançılarımız ölkəmizin adını daim uca tuturlar. Atletlərimiz müxtəlif yarışlarda idmanın olimpiya və qeyri-olimpiya növləri üzrə ölkəmizi şərəflə təmsil edərək Azərbaycanın idman şöhrətini artırırlar.

Yüksək nailiyyətlər qazanılan yarışlar içərisində ən nüfuzlusu isə dünyanın məşhur və 4 ildən bir keçirilən kütləvi idman müsabiqəsi - Yay Olimpiya oyunlarıdır. Dünyada müxtəlif millətlərin nümayəndələrini bir araya toplayaraq onların ədalətli oyun prinsipləri əsasında idman mübarizəsinə qoşulmasını təmin etməsi ilə seçilən Olimpiya oyunları ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Azərbaycanda isə Olimpiya hərəkatının inkişafı birbaşa Prezident İlham Əliyevlə bağlıdır.

### İdmanda yüksəliş mərhələsi

Xatırladaq ki, sovet dövründə idmançılarımız yalnız SSRİ-nin adı və bayrağı altında beynəlxalq idman yarışlarına qatıla bilirdilər. Ölkəsinin bayrağını qaldırmaq, himnini səsləndirmək o dövrün qalib Azərbaycan idmançısına nəsib olmurdu. Müstəqillik dövründə isə vəziyyət başqadır.

Ardı 8-ci səh.

# Say 10-a çatdı

## Modul tipli xəstəxanaların istifadəyə verilməsi koronavirusla mübarizədə mühüm əhəmiyyət kəsb edir

Yeddi aydır Yer kürəsində tüğyan edən yeni tip koronavirusla dünyanın qlobal miqyasda mübarizəsi davam edir. Müxtəlif profilaktik, məhdudlaşdırıcı tədbirlərə baxmayaraq, COVID-19-a yoluxma hallarının sayı sürətlə çoxalmaqdadır. Təkcə son altı həftədə koronavirusa yoluxma hallarının sayı təqribən iki dəfə artıb.

Hazırda dünyanın ümumi koronavirus mənzərəsi mürəkkəbdir: bəzi yerlərdə virus çox aqressiv şəkildə yayılır, bəzi ölkələrdə yeni yoluxma hallarının sayı azdır, epidemiyaya qalib gəlməsi güman edilən bəzi ölkələrdə isə yeni yoluxma ocaqları yaranır. Zəruri nəzarət tədbirləri görülən yerlərdə virusa qalib gəlmək mümkün olub, amma belə tədbirləri ləğv edən ölkələrdə isə virus geri qayıdıb. Səbəb isə məlumdur - virus insanların çox toplaşdığı, fiziki məsafəyə riayət edilməyən, maska taxılmayan və məsafə saxlanılmayan yerlərdə yayılır. Koronavirusun yayda yox olacağı fikri də təsdiqini tapmadı. Yayın ikinci ayının da yüksək yoluxma tempi ilə bitdiyini nəzərə alsaq, deməli, COVID-19-un yayılması mövsümi xarakter daşımır və havanın dəyişməsi ilə bağlı deyil. Kütləvi vaksinasiya həyata keçirilənə qədər virusun yayılma sürətini azaltmağın bir effektli yolu qalır - o da karantin rejimi.

Ardı 9-cu səh.

# Sosial layihələrin icrası pandemiya dövründə də davam edir

## Balakəndə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Balakən rayonunda səfərdə olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Balakən şəhərinin mərkəzində Ümummilli Lider Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkında Ulu Öndərin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Ölkəmizin əsas turizm məkanlarından olan Balakən rayonunda 2003-cü ilə nisbətdə 2019-cu ildə məhsul buraxılışı 3,1 dəfə, sənaye 18 dəfə, kənd təsərrüfatı 1,7 dəfə, əsas kapitala yönəldilmiş vəsait 10 dəfə artıb. 2003-cü ildən bəri rayonda 20538 yeni iş yeri açılıb, cari ildə qeyri-məşğul əhali üçün ödənişli əsaslarla 350, pandemiya ilə əlaqədar əlavə 200 ictimai iş yeri yaradılıb.

## Uşaqlara qayğı diqqət mərkəzindədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Balakən Şəhər Uşaq İncəsənət Məktəbinin yeni binasının açılışında iştirak edib.



AZƏRTAC xəbər verir ki, dövlət başçısına binada yaradılan şərait barədə məlumat verildi.

Qeyd olundu ki, Azərbaycan Prezidentinin 2017-ci il 5 avqust tarixli Sərəncamına əsasən tikilən Balakən Uşaq İncəsənət Məktəbi üçmərtəbəli binadan ibarətdir və 320 şagird yerlikdir. Sahəsi 3232 kvadratmetr olan məktəbdə 45 sinif otağından əlavə, musiqi alətlərinin saxlanması və xoreoqrafiya zalı, heykəltəraşlıq və rəssamlıq emalatxanaları, səsyazma studiyası, kitabxana yaradılıb. Məktəbin 177 nəfərlik akt zalında tədbirlərin keçirilməsi üçün hər cür şərait var. Uşaq İncəsənət Məktəbində hazırda 288 şagird təhsil alır və 64 müəllim çalışır.

## Prezident İlham Əliyev Balakən regional "ASAN xidmət" mərkəzinin açılışında iştirak edib









Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Balakən regional "ASAN xidmət" Mərkəzinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev mərkəzdə yaradılan şəraitlə tanış oldu.

Prezidentin köməkçisi, Prezident Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev Prezident İlham Əliyevə məlumat verdilər ki, bir hektara yaxın ərazidə inşa olunan dördmərtəbəli bu Mərkəz Balakən, Zaqatala, Qax rayonlarında qeydiyyatda olan 284 minə yaxın vətəndaşla yanaşı, ölkə üzrə ərazi məhdudiyyəti olmadan bütün vətəndaşlara xidmət göstərəcək.

Dövlət başçısına dezinfeksiya tuneli barədə məlumat verildi.

Qeyd olundu ki, bu tunel istifadəçilərin şəxsi gigiyena qaydalarına riayət etmələri və steril şəkildə hər hansı məkana daxil olmalarını təmin edən qurğudur. Temperaturun məsafədən ölçülməsi və məlumatların yaddaşda saxlanılması xüsusiyyəti daşıyan tunelin içərisində dezinfeksiyaedici zona yerləşdirilib.

Prezident İlham Əliyev Balakən "ASAN xidmət" Mərkəzini işə saldı.

Qeyd edək ki, hazırda ölkədə 19 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i Bakı şəhərində, digərləri isə Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz və Ağcabədidədir. Balakəndə açılışı olan "ASAN xidmət" Mərkəzi sayca 20-cidir. Mərkəzdə 189 əməkdaş, 50 könüllü çalışacaq. Digər mərkəzlərdə olduğu kimi, burada da vətəndaşlara 12 dövlət orqanı, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 320-dən çox xidmət göstəriləcək.

Bu günədək "ASAN xidmət" mərkəzlərinə 7 milyon vətəndaşın 38,3 milyona yaxın müraciəti daxil olub. Keçirilən rəy sorğusuna əsasən vətəndaşların "ASAN xidmət"lərdən məmnunluq əmsalı 99,4 faiz təşkil edir.

Prezident İlham Əliyevə digər innovativ yeniliklər barədə də məlumat verildi. Bildirildi ki, ultrabənövşəyi hava təmizləyiciləri qapalı yerlərdə havanı ultrabənövşəyi şüalar vasitəsilə virus və bakteriyalardan təmizləmək üçün istifadə olunur. Qurğunun aşağı hissəsindən daxil olan hava mexaniki süzgəclərdən keçərək ultrabənövşəyi şüalar kamerasına daxil olur. Bu kamerada havada olan virus və bakteriyaların 99 faizi məhv edilir.

Dövlət başçısına ozon generatorları barədə də məlumat verildi. Qeyd edildi ki, bu qurğudan müxtəlif zərərli mikroorqanizmləri məhv etmək, havanı və suyu dezinfeksiya etmək üçün geniş istifadə olunur. Ənənəvi kimyəvi dezinfeksiyaedici vasitələrlə müqayisədə ozon daha təsirli və ekoloji cəhətdən təmiz alternativdir. Dezinfeksiya qapıları ultrabənövşəyi şüalar sayəsində içərisindən keçən hər kəsin üzərindəki virus və bakteriyaları məhv edir. Dezinfeksiya robotu isə qapalı məkanların qısa vaxtda dezinfeksiya edilərək müxtəlif növ virus və infeksiyaların yayılmasının qarşısını alan xüsusi təchizatdır. Ultrabənövşəyi hava və səth təmizləyiciləri, həmçinin ozon generatorları ictimai binalarda, əhalinin sıx toplaşdığı məkanlarda koronavirusla mübarizə məqsədilə havanın təmizlənməsi üçün səmərəli vasitələrdir.

Diqqətə çatdırıldı ki, "Elektron Hökumətin İnkişafı İndeksi" Birləşmiş Millətlər Təşkilatı tərəfindən iki ildən bir keçirilən sorğu üzrə formalaşan və ölkələrinin e-hökumət hazırlığı ilə bağlı hesabatdır. Azərbaycan reytinqdə 2018-ci ilə nisbətən öz indeksini 71 bala yüksəldərək dünya üzrə orta göstəricini 11 bal üstələyib.

Elektron hərrac sisteminin məqsədi isə hərraclarda iştirakın əlçatanlığının artırılması, hərracda iştirak prosesinin rahatlaşdırılması və vahid hesabatlılıq üçün şərait yaratmaqdır. Sistemdən istifadə proseslərin elektronlaşdırılması və resurslara qənaət imkanı, şəffaflığın təmin edilməsi, elektron ödəniş və SMS məlumatlandırma kimi üstünlükləri əlçatan edir.

Bildirildi ki, daha bir yeni layihə "Elektron Su Təsərrüfatı" informasiya sistemidir. Bu sistem ölkə ərazisində su ehtiyatlarından istifadənin səmərəliliyinin artırılması, bu sahədə uçotun və idarəetmənin təkmilləşdirilməsi məqsədilə hazırlanan DATA əsaslı informasiya sistemidir. Sistem su ehtiyatlarının qiymətləndirilməsi, inventarlaşdırılması, modelləşdirilməsi və su obyektləri ilə bağlı aktual məlumatların toplanması, həmçinin həmin məlumatların "Elektron hökumət" informasiya sistemi üzərindən aidiyyəti digər sistemlərlə inteqrasiyası məqsədilə hazırlanır.

Mərkəzlə tanışlıqdan sonra Prezident İlham Əliyev ASAN könüllüləri ilə görüşdü.

Dövlət başçısı görüşdə çıxış etdi.

Bax: səh. 3

## Şəki rayonunun Qaraməryəm-İsmayıllı-Şəki (134 km)-Şirinbulaq avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Üç min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Qaraməryəm-İsmayıllı-Şəki (134 km)-Şirinbulaq avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 12,0 (on iki) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyul 2020-ci il*

## Qobustan rayonunun Təklə Mirzəbaba kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qobustan rayonunun Təklə Mirzəbaba kəndində 132 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyul 2020-ci il*

## Qəbələ rayonunun Zarağan kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qəbələ rayonunun Zarağan kəndində 528 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyul 2020-ci il*

## Qəbələ rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qəbələ rayonunun əhalisi 14880 nəfər olan 10 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 10 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün göstərilmiş vəsaitin 700,0 (yeddi yüz) min manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyul 2020-ci il*

*Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli Sərəncamına*
***Əlavə***

### Qəbələ rayonunda qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Yaşayış məntəqələri | Quyuların sayı, ədəd | Əhalinin sayı, nəfər |
|---|---|---|---|
| 1. | Abrıx kəndi | 1 | 781 |
| 2. | Bayramkoxalı kəndi | 1 | 1310 |
| 3. | Daşca kəndi | 1 | 936 |
| 4. | Hacıalılı kəndi | 1 | 1678 |
| 5. | Mollaşıxalı kəndi | 1 | 374 |
| 6. | Siləyli kəndi | 1 | 335 |
| 7. | Sırt Yengicə kəndi | 1 | 449 |
| 8. | Soltannuxa kəndi | 1 | 4925 |
| 9. | Uludaş kəndi | 1 | 1867 |
| 10. | Yenikənd kəndi | 1 | 2225 |
| **Cəmi** | | **10** | **14 880** |

# Sosial layihələrin icrası pandemiya dövründə də davam edir

## Prezident İlham Əliyev Balakən regional "ASAN xidmət" Mərkəzinin açılışında iştirak edib

## Prezident İlham Əliyevin çıxışı






- Bu gün Balakən rayonunun həyatında çox əlamətdar bir gündür. Balakəndə "ASAN xidmət" Mərkəzi açılır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Çox gözəl mərkəzdir, həm xarici görünüşü gözəldir, təbii ki, daxili tərtibatı göz oxşayır. Üç il bundan əvvəl mən Balakəndə olanda "ABAD mərkəz"in açılışında iştirak etmişəm. İndi isə mənim göstərişimlə Balakəndə tikilən "ASAN xidmət" Mərkəzinin açılışını qeyd edirik. Bu, Balakənə göstərilən diqqətin növbəti əlamətidir.

Rayonun inkişafı daim diqqət mərkəzindədir. Mən müntəzəm olaraq Balakən rayonuna gəlirəm, vəziyyətlə tanış oluram, müvafiq göstərişlər verirəm ki, rayonda işlər sürətlə getsin. Son illərdə Balakən rayonunda sosial-iqtisadi sahədə yaxşı inkişaf var. Bir çox sosial obyektlər inşa edilib. Mən bütün əsas sosial obyektlərin açılışlarında şəxsən iştirak etmişəm. Mərkəzi rayon xəstəxanası, Olimpiya mərkəzi, Gənclər mərkəzi, Mədəniyyət mərkəzi, bir çox məktəblər tikilib və əsaslı şəkildə təmir edilib. Bu gün Uşaq İncəsənət Məktəbinin açılışını qeyd etdik. Yəni bütün bu obyektlərin tikintisi, əlbəttə ki, böyük vəsait tələb edir və biz bunu edirik.

Bu layihələr regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı xətti ilə icra olunur və hər il bu proqrama əlavələr edilir. Balakən "ASAN xidmət" Mərkəzi də məhz proqrama əlavə üzrə inşa edilibdir. Əvvəlki mərhələdə burada "ASAN xidmət" Mərkəzinin tikintisi nəzərdə tutulmurdu. Çünki şimal-qərb zonasında artıq bir neçə mərkəz var. Adətən, birinci mərhələdə hər bir mərkəz dörd, beş, altı rayonun əhalisini əhatə edir. Bu mərkəzdə isə cəmi üç rayon əhatə olunur - Balakən, Zaqatala və Qax. Bir daha demək istəyirəm ki, bu mərkəz mənim xüsusi tapşırığım əsasında inşa edilib. Artıq balakənlilərin sərəncamına gözəl bir mərkəz verilibdir.

Mən bu mərkəzlə tanış olarkən əlavə tapşırıqlar verdim. Hesab edirəm ki, bu ərazidə mərkəzin fəaliyyətinə uyğun əlavə sahələr yaradılmalıdır, ilk növbədə, kinoteatr. Mən maraqlandım, icra başçısı dedi ki, Balakəndə kinoteatr yoxdur. Ona görə burada mütləq kinoteatr olmalıdır. Gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün sahə, təlim mərkəzi olmalıdır. Mən indi tapşırıq verirəm ki, bu mərkəzin yanında yeni bir mərkəz yaradılsın, bütün lazımi sahələr burada öz həllini tapsın. O ki qaldı, burada göstərilən xidmətlərə, onların sayı 320-dir. Bu gün mənə verilən məlumata görə, "ASAN xidmət" mərkəzlərində yeni xidmətlərin mövcudluğu haqqında təkliflər irəli sürülüb və gələcəkdə bu da həll olunacaqdır.

Balakən rayonunda infrastruktur layihələri ilə bağlı olan digər önəmli məsələlər də həll edilir. Qazlaşdırma demək olar ki, 100 faizə yaxındır. Yol-nəqliyyat infrastrukturu yenilənir, həm kənd yolları, eyni zamanda Bakı-Balakən yolu faktiki olaraq yenidən qurulub. Mən bu gün Bakıdan avtomobillə gəlmişəm və yolboyu görülən işlər məni sevindirir. Bir neçə yol layihəsi qalıb ki, bizim ümumi inkişaf templərimizə uyğun gəlmir, ilk növbədə, İsmayıllı rayonu ərazisində. Orada yeni bir körpü tikiləcək və yol çəkiləcək, beləliklə, daha təhlükəsiz və rahat şərait yaradılacaq. Bu zonanın hələ icra edilməyən bir yol layihəsi qalıb. Düzdür, yol var, amma lazımi səviyyədə deyil. Bu da Şəki-Oğuz yoludur. Bu yolun yenidən qurulması ilə bağlı müvafiq göstərişlər veriləcək. Əvvəlki dövrlərdə verilmiş bütün tapşırıqlar yerinə yetirilib. Bakı, Şamaxı, Qəbələ, Şəki, Qax, Zaqatala, Balakən, ta Gürcüstan sərhədinə qədər yolun tikintisi təmin edilibdir.

Balakəndə mövcud problemlər arasında içməli su məsələsi çox ciddi problemdir. Bu məsələ ilə bağlı artıq təkliflər hazırlanıb, müvafiq göstərişlər verilib və biz tezliklə Balakən şəhərində içməli su-kanalizasiya layihəsinin icrasına başlamalıyıq. Bu günə qədər biz içməli su və suvarma problemlərinin həlli üçün daha çox artezian quyularından istifadə edirik. Balakən rayonunda 24 quyu qazılıb və 10 quyunun qazılması nəzərdə tutulur. Ancaq içməli su və kanalizasiya layihəsi mütləq icra edilməlidir və icra ediləcəkdir. Son vaxtlar elektrik enerjisinin təchizatı ilə bağlı önəmli addımlar atılıb. Bu gün "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin yeni mərkəzinin açılışı da nəzərdə tutulur. Vaxtilə Balakən rayonunda su elektrik stansiyaları tikilmişdir və elektriklə təchizat böyük dərəcədə yaxşılaşmışdır.

Bir sözlə, rayonun inkişafı üçün bütün lazımi tədbirlər görülür. Dövlət proqramları xətti ilə investisiyalar qoyulur, özəl sektor da bu işlərə fəal qoşulur. Kənd təsərrüfatı sahəsində yaxşı nəticələr var. Bildiyiniz kimi, şimal-qərb zonasında ənənəvi kənd təsərrüfatı sahəsi olan fındıqçılığın inkişafı ilə bağlı mənim təşəbbüsümlə konkret addımlar atılır. Mən fındıqçılıq üzrə xüsusi müşavirə keçirmişdim. Bir neçə il bundan əvvəl mövcud bağların sahəsi 32 min hektar idi. Biz bir neçə il ərzində bunu 80 min hektara çatdırmışıq. Balakən rayonunda 5 min hektarda fındıq bağları mövcud idi, indi onların sahəsi 10 min hektara çatıb. Siz yaxşı bilirsiniz ki, burada yaşayan bir çox insanlar üçün əsas qazanc mənbəyi fındıqçılıqdır. Biz bu bağları salmaqla, fermerlərə kömək göstərməklə Balakən və qonşu rayonların əhalisinin maddi rifahını təmin etmiş oluruq. Bu gün Azərbaycan dünyada fındıq ixrac edən ölkələr arasında üçüncü yerdədir. Bu, çox gəlirli, perspektivli bir sahədir. Bizim iqlimimiz buna uyğundur. İsmayıllı rayonundan ta Balakənə qədər, eyni zamanda cənub zonasında, həmçinin Xaçmazda, Qusarda fındıqçılığın çox böyük perspektivləri var. Hər bir rayonun öz ixtisaslaşması olmalıdır. Burada da ənənəvi olaraq fındıqçılıq, tütünçülük inkişaf edib. Bu gün də bu sahələrə böyük diqqət göstərilir. Əsas məsələ odur ki, insanlar daha da yaxşı yaşasınlar, öz maddi vəziyyətlərini yaxşılaşdırsınlar. O insanlar ki, hələ öz maddi vəziyyətlərini tam təmin edə bilmirlər, onların köməyinə dövlət gəlir. Bu gün Azərbaycanda 84 min ailə ünvanlı sosial yardım alır. Bu il 90 min insan üçün ictimai ödənişli iş yerləri açılır. ABAD mərkəzlərinin yaradılması, əslində, özünüməşğulluq proqramının tərkib hissəsidir. İlk ABAD-çılar məhz Balakən rayonunun sakinləridir. Onların istehsal etdikləri məhsullar indi ölkəmizin müxtəlif yerlərində satılır, ixrac edilir.

Məhz bu kompleks yanaşma imkan verir ki, ölkəmiz bu gün sürətlə inkişaf edir. İnkişafımız dayanıqlıdır və perspektivlərimiz də çox gözəldir. Çünki biz öz addımlarımızı plan üzrə və yerlərdən gələn təkliflər əsasında atırıq. Hazırda ən ciddi problem suvarma ilə bağlıdır. İki ildir ki, quraqlıq bizə çox böyük əziyyət verir. Mənim sədrliyimlə bu məsələ ilə bağlı xüsusi müşavirə keçirilib. Üç ay bundan əvvəl yaradılmış komissiya, o cümlədən su təsərrüfatının elektronlaşdırılması ilə məşğuldur və bu vacib sahəni "ASAN xidmət"ə həvalə ediblər. Bu gün təqdimat zamanı mənə məlumat verildi ki, artıq qısa müddət ərzində - komissiya aprelin 15-də yaradılmışdır - elektron su təsərrüfatı sistemi hazırdır. Biz buna nəyin hesabına nail olmuşuq? Məhz intellektual potensialın hesabına. "ASAN xidmət" mərkəzlərinin ən vacib amillərindən biri də innovasiyalar, intellektual məhsul, müasir təlim prosesi və gənclərin bu işlərə cəlb edilməsidir.

Təbii ki, biz "ASAN xidmət" konsepsiyasını işləyəndə, ilk növbədə, mənim əsas məqsədim o idi ki, ictimai xidmətlər sahəsində korrupsiyanı, rüşvətxorluğu, bürokratiyanı aradan qaldıraq. Yeni elə bir institusional intellektual məhsul yaradaq ki, xoşagəlməz işlərlə məşğul olmaq istəyənlərə imkan verilməsin. Artıq biz buna nail olmuşuq. Amma bununla paralel olaraq bu gün "ASAN xidmət" sistemi ölkəmizdə elektronlaşma, rəqəmsallaşma, intellektual məhsulların istehsalı sahəsində çox önəmli bir amildir. Təsadüfi deyil ki, bu gün bizim üçün ən vacib məsələlərdən biri olan içməli su və suvarma ilə bağlı problemlərin vacib hissəsi artıq "ASAN xidmət" tərəfindən tənzimlənir.

O ki qaldı, "ASAN xidmət" mərkəzlərinin coğrafiyasının genişlənməsinə, bu da planlı şəkildə həyata keçirilir. Bu mərkəz sayca 20-cidir. Hazırda yeddi mərkəzin tikintisi davam edir. Hesab edirəm ki, maksimum gələn ilin sonuna qədər Azərbaycanda 27 "ASAN xidmət" mərkəzi olacaqdır. Sirr deyil ki, bu, ictimai xidmətlər sahəsində bir inqilabi dəyişiklik idi. Eyni zamanda bu, yeni davranış qaydalarının tətbiq edilməsidir. Xidmət sektoru sovet vaxtında həmişə çox problemli sahə olubdur. Həm pozuntular olub, həm diqqətsizlik, vətəndaşlara bir çox hallarda hörmətsizlik edilirdi, laqeyd münasibət göstərilirdi. Vətəndaşlar onlara çatacaq sənədləri, arayışları günlərlə, həftələrlə ala bilmirdilər, yaxud da ki, onlardan nə isə tələb olunurdu, qanunsuz tələblər irəli sürülürdü. Ona görə ictimai xidmətlər sahəsində "ASAN xidmət"in xətti ilə aparılan islahatlar nəinki bu sahəni nümunəvi sahəyə çevirib, eyni zamanda cəmiyyətdəki münasibətlərə də çox müsbət təsir göstərdi.

Burada mən "ASAN xidmət" mərkəzlərinin işçilərini xüsusilə qeyd etmək istəyirəm. Onların hamısı gəncdir. Bu, Azərbaycan gəncliyinin simasıdır. Azərbaycan gəncləri məhz belə olmalıdır - bilikli, savadlı, mədəni, yaşlı nəslə həmişə hörmət göstərən, öz doğma torpağına bağlı olan insanlar olmalıdır. "ASAN xidmət"in ordusu artıq kifayət qədər böyükdür. Minlərlə gənc "ASAN xidmət"də çalışıb, təcrübə qazanıb. Bu gün onların nümayəndələri çox önəmli vəzifələrdə çalışırlar, o cümlədən könüllülər. Bizdə, əslində, könüllülər hərəkatı "ASAN xidmət" mərkəzlərində başlamışdır. O vaxta qədər könüllülər hərəkatı yox idi. İndi Azərbaycanda artıq minlərlə könüllü fəaliyyət göstərir. Ölkəmiz üçün vacib olan sahələrdə onlar mühüm rol oynayırlar. Böyük, mötəbər idman yarışlarında könüllülər fəal iştirak ediblər. Misal üçün, Şamaxı rayonunda baş verən zəlzələnin fəsadlarının aradan qaldırılmasında könüllülər fəal iştirak ediblər. Bir neçə il bundan əvvəl bu zonada - Balakən, Zaqatala, Qax rayonlarında da zəlzələ baş vermişdir. Onu da bildirməliyəm ki, dövlət xətti ilə minlərlə ev tikildi. Ancaq o vaxt bizdə könüllülər yox idi ki, vətəndaşlara xidmət göstərsinlər. Şamaxıda zəlzələ baş verən kimi, ilk növbədə, könüllülər oraya gəldilər, vətəndaşlara əl tutdular, əlbəttə ki, dövlət dəstəyi də göstərildi. Ona görə "ASAN xidmət"in bir çox müsbət əlamətləri var. Ölkəmizin imici üçün bu mərkəzlərin fəaliyyəti çox önəmlidir. "ASAN xidmət" beynəlxalq müstəviyə çıxıb, BMT tərəfindən mükafatla təltif edilib. Bir neçə ölkə bu təcrübəni bizdən öyrənib və artıq bəzi ölkələrdə "ASAN xidmət" adı altında oxşar xidmətlər göstərilir. Bu, bizim intellektual məhsulumuzdur, milli brendimizdir. Bu gün Azərbaycan o ölkələrdəndir ki, intellektual məhsul yaradır və ixrac edir. Bu gün 20 mərkəz demək olar ki, ölkəmizin bütün bölgələrini əhatə edir. Əgər avtobusları əlavə etsək, onda artıq hər bir yerdə "ASAN xidmət" var. Amma, əlbəttə ki, növbəti illərdə yeni mərkəzlərin yaradılması da nəzərdə tutulur.

"ASAN xidmət" artıq bir neçə ildir ki, fəaliyyət göstərir, ancaq göstərilən xidmətlərin səviyyəsi düşmür. Mən bunu nə üçün deyirəm? Çünki bəzən hansısa yeni müəssisə, yaxud da yeni xidmət sahəsi açılanda, əlbəttə ki, ilkin mərhələdə bütün məsələlər yüksək səviyyədə həll olunur. Amma sonra vaxt keçdikcə və əgər müştərilərin sayı kifayətdirsə, onda bəzi hallarda xidmətin keyfiyyəti aşağı düşür. "ASAN xidmət" isə yüksək səviyyəni saxlayır. Bu gün xidmətin əhali tərəfindən bəyənilmə əmsalı 99,4 faizdir. Mən bilmirəm 0,6 faiz kimlərdir? Kim "ASAN xidmət"i bəyənməyə bilər? Yəqin ki, elələri də var. Ancaq mən hesab edirəm ki, burada bütün ən mütərəqqi texnologiyalar, eyni zamanda insan kapitalına qoyulan investisiyalar özünü büruzə verir. Çünki bizim inkişafımızı, gücümüzü, ölkəmizin qüdrətini insan kapitalı müəyyənləşdirir. Təbii resurslar, sadəcə olaraq, bir vasitə kimi bizə kömək göstərir. Ancaq inkişaf etmiş hər bir ölkənin tarixinə baxsaq görərik ki, harada elmdə, təhsildə inkişaf var, o ölkələr problemləri uğurla həll edir.

Əlbəttə, bu gün mən çox sevinirəm ki, bizim gənclərimiz biliklidir, savadlıdır, vətənpərvərdir. Bu yaxınlarda Ermənistan-Azərbaycan sərhədində erməni silahlı təxribatının qarşısını alarkən Azərbaycan əsgərləri, zabitləri - onların mütləq əksəriyyəti gənclərdir - öz peşəkarlığını, cəsarətini göstərdilər, düşməni yerinə oturtdular. İmkan vermədilər ki, düşmən öz mövqelərini yaxşılaşdırsın. İmkan vermədilər ki, bizim torpaqlarımıza onların ayağı dəysin.

Bildiyiniz kimi, Azərbaycanın düşmənə layiqli cavab verməsi və beynəlxalq ekspertlərin ümumi rəyinə görə qələbənin qazanılması cəmiyyətdə ruh yüksəkliyini daha da artırdı. Yenə də ön sıralarda gənclər olub. Mən bu ayın ortasında Nazirlər Kabinetinin toplantısında bu məsələ ilə bağlı fikirlərimi deyəndən sonra bir həftə keçməmiş 50 mindən çox Azərbaycan gənci Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə üz tutdu və özlərini könüllü olaraq Vətəni qorumaq istəyən insanlar kimi orada qeydiyyata aldırdılar. Bir həftə ərzində 50 mindən çox insan.

Mən demişəm ki, Azərbaycan Ordusu tam komplektləşdirilib və bu gün əlavə canlı qüvvəyə ehtiyac yoxdur. Ancaq əgər ehtiyac olarsa, bir həftə ərzində qeydiyyata alınmış 50 mindən çox insan Vətən uğrunda, torpaq uğrunda vuruşmağa hazırdır.

Bilirsiniz, bu hadisələr Ermənistanın faşist mahiyyətini, onların qorxaq xislətini bir daha göstərdi. Çünki birinci dəfə deyil ki, təcavüzkar döyüş meydanında məğlubiyyətə uğrayandan sonra dinc əhaliyə qarşı hərəkətə keçir. Bizim kəndlərimiz atəşə tutulmuşdur. Namərdlərin bu atəşi nəticəsində 76 yaşlı ağsaqqal həlak olmuşdur. Bu, vəhşilikdir. Müharibəni ordular, əsgərlər, könüllülər aparır. Ancaq bizim mənfur qonşumuz müharibəni dinc əhaliyə qarşı aparır, necə ki, Xocalıda soyqırımı törətmişdir, günahsız insanları - uşaqları, qadınları qətlə yetirmişdir. Xocalıda 613 insan düşmən tərəfindən öldürülmüşdür, mindən çox insan itkin düşmüşdür. Bu insanların "günahı" o idi ki, onlar azərbaycanlı idi. Bu amil erməni millətçilərinə kifayətdir. Bu insanlar əliyalın mülki vətəndaşlar idi. Erməni quldur dəstələri bundan və o vaxt hakimiyyətin zəif olmasından istifadə edərək xalqımıza qarşı vəhşi cinayət, soyqırımı törətmişlər. Eyni addımları bu dəfə də atmaq istəyirdilər. Yoxsa dinc əhalini bombalamağın, artilleriya ilə, minomyotlarla atəşə tutmağın səbəbi nədir? Yenə də deyirəm, onlar döyüş meydanında acizliyini görərək ən çirkin əməllərə əl atırlar. 2016-cı ilin Aprel döyüşləri də məhz bu ssenari əsasında təşkil edilmişdir. O vaxt da Ermənistan tərəfindən zəbt edilmiş mövqelərdən kəndlərimiz müntəzəm olaraq atəşə tutulurdu. Azərbaycan Ordusu çox böyük peşəkarlıqla əks-hücum əməliyyatı keçirərək zəbt olunmuş strateji yüksəklikləri geri qaytardı və düşməni qaçmağa məcbur etdi. Tovuz rayonunda baş vermiş hadisələr də həmin ssenarinin təkrarıdır. Biz bunu bilməliyik. Bilməliyik ki, hansı xislətə malik olan qonşu ilə üz-üzəyik. Heç vaxt bunu yaddan çıxarmamalıyıq! Heç vaxt Xocalı soyqırımını yaddan çıxarmamalıyıq və çıxarmayacağıq! Biz düşmənə növbəti dəfə sarsıdıcı zərbə vurandan sonra yenə də gördük ki, onlar nə qədər acizdirlər və heç özləri-özlərinə hörmət etmirlər. Dərhal üzv olduqları Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına - KTMT-yə üz tutdular, onlardan yardım istədilər. Mən demişəm, bir daha demək istəyirəm ki, KTMT-nin bu işlərə heç bir aidiyyəti yoxdur, ola da bilməz. Çünki Ermənistan təcavüzkardır. Onların əsas məqsədi məhz bu idi - dövlət sərhədində münaqişə yaratmaq, sonra bu münaqişədə Azərbaycanı günahlandırmaq, daha sonra KTMT-yə müraciət edib hərbi yardım istəmək. Onların çirkin məqsədləri bundan ibarət idi və bu çirkin oyunlara KTMT-nin üzvlərini cəlb etmək istədilər, amma alınmadı. KTMT heç bir bəyanat vermədi, məsələ ilə bağlı ümumi sözlərdən ibarət şərh verdi. Ancaq baxın, Azərbaycanı neçə ölkə dəstəklədi. Birincisi, hər kəs yaxşı bilir və mütəxəssislər bilirlər ki, bu münaqişəni törədən Ermənistandır. Bir daha demək istəyirəm ki, bizim Ermənistan ərazisində hər hansı bir marağımız yoxdur. Orada bizim hərbi hədəflərimiz yoxdur və beynəlxalq ictimaiyyət də bunu çox yaxşı bilir. Məhz buna görə və təkcə buna görə yox, ümumiyyətlə, Azərbaycanın artan nüfuzuna görə bir neçə beynəlxalq təşkilat açıq şəkildə bizi dəstəklədi. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası beş ölkədən ibarətdir. İslam Əməkdaşlıq Təşkilatı 57 ölkədən ibarətdir. Qoşulmama Hərəkatı 120 ölkədən ibarətdir. Bir sıra ölkələr, ilk növbədə, qardaş Türkiyə Azərbaycana birmənalı dəstək verdi. Türkiyə Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan artıq bir neçə dəfə bu məsələ ilə bağlı çox açıq, kəskin və prinsipial mövqe nümayiş etdirdi. Bu, bir daha göstərir ki, Türkiyə və Azərbaycan hər zaman olduğu kimi, bir yerdədir, yaxşı günlərdə də, çətin günlərdə də. Biz bir-birimizə arxalana bilərik və bizim gücümüz birliyimizdədir. Bax bu beynəlxalq təşkilatlar və bir neçə ölkə, onların rəsmi şəxsləri bəyanatlar verərək Azərbaycana dəstək göstərdilər.

O ki qaldı, KTMT-yə onu da bildirməliyəm ki, bu təşkilatın altı üzvündən dördü beynəlxalq təşkilatlarda bu məsələ ilə bağlı qəbul edilmiş bəyanatlar vasitəsilə Azərbaycanı dəstəklədi. Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üzvüdür. Qazaxıstan və Qırğızıstan eyni zamanda KTMT-nin üzvüdür. Deməli, KTMT-nin iki üzvü Azərbaycanı bu təşkilat vasitəsilə dəstəkləyir. Belarus Qoşulmama Hərəkatının üzvüdür. Qoşulmama Hərəkatının bəyanatı, o cümlədən Belarusun mövqeyidir. Tacikistan İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. İslam Əməkdaşlıq Təşkilatı bu sərhəd münaqişəsi ilə bağlı açıq mövqe ortaya qoyub. Yəni dörd ölkə artıq Azərbaycanın yanındadır və Ermənistanı kim dəstəklədi? Mən görmədim, gözümə sataşmadı. Bir də ki KTMT-nin üzvləri Ermənistanın indiki rəhbərliyini necə dəstəkləyə bilər?

Heç kəs üçün sirr deyil ki, Ermənistanın bugünkü rəhbərliyi Soros fondunun təsiri altında olan adamlardan ibarətdir. Onların tərcümeyi-halına baxmaq kifayətdir. Bu gün Ermənistanda hökumətdə, parlamentdə, məhkəmə hakimiyyətində, digər önəmli vəzifələrdə çalışanların bir çoxu Soros fondunun və ona yaxın təşkilatların əməkdaşları olub.

Aydın məsələdir ki, Ermənistanda baş vermiş "inqilab" Sorosun və ona yaxın dairələrin növbəti təxribatı olub. Düzdür, erməni xalqı əvvəlki hakimiyyətə nifrət edirdi, bunu gizlətmirdi. Ermənistanın əvvəlki hakimiyyəti nifrətə layiqdir. Ancaq onun yerinə gələn qruplaşma əvvəlki hakimiyyətdən o qədər də fərqlənmir. Təsadüfi deyil ki, Soros fondu pandemiya ilə əlaqədar bu yaxınlarda Ermənistana 600 min dollar maliyyə yardımı göstərib. Başqa hansı ölkəyə göstərib? Postsovet məkanında heç bir ölkəyə göstərməyib. Azərbaycana göstərib? Yox. Azərbaycanda Soros fondunun izi-tozu da qalmayıb. Çünki onlar burada təxribatla məşğul idilər, gənclərin beyinlərini zəhərləyirdilər. Gəncləri öz dövlətinə qarşı qaldırmaq istəyirdilər. Ona görə onların ayağı kəsildi. Amma onlar Ermənistanda geniş qol-qanad açıblar və gizlətmirlər, bu, açıq bir ianədir. Biz bilirik ki, Ermənistanın indiki rəhbərliyi Soros fondundan altdan-altdan da pul alır, onların agentləridir, onların sifarişini icra edir. Ona görə bu gün Soros fondu açıq-aydın Ermənistan rəhbərliyinə 600 min dollar ianə verib. Bu, KTMT-yə üzv olan ölkələri düşündürməməlidir? Əlbəttə ki, düşündürməlidir. Bir də Ermənistan qorxa-qorxa gedib KTMT-nin ətəyindən yapışarkən yadına salsın ki, KTMT-ni necə diskreditasiya etmişdi, təşkilatın baş katibini həbs etmişdi. Sonra təzyiq nəticəsində onu buraxdı. Ancaq cinayət işi bağlanmadı. KTMT-yə bir il ərzində yeni baş katibin təyin olunmasına imkan vermirdi.

Bir də ki, Ermənistanın indiki baş nazirinin partiyasının adı nədir? Bunu KTMT-də yaxşı bilirlər. Onu əgər Azərbaycan dilinə tərcümə etsən, bunun adı "çıxış"dır. Çünki bu adamlar hakimiyyətə bu şüarla gəliblər. "Çıxış!", haradan çıxış? İki təşkilatdan - KTMT-dən və Avrasiya İqtisadi Birliyindən. Budur onların məramı, budur onların əsl sifəti!

Əlbəttə, indi müxtəlif riyakar addımlarla, bəyanatlarla sübut etməyə çalışırlar ki, onlar bu təşkilatlara sadiqdirlər. Amma bu, yalandır. Onların əsl niyyəti hər kəsə bəllidir. Sorosun tör-töküntüləri KTMT-nin müttəfiqləri ola bilməz. Bu, birmənalıdır. Ona görə indi Ermənistan elə vəziyyətdədir ki, özünü itirib, səhv addımlar atır. Sərhəddəki təxribat hesab edirəm ki, onlar tərəfindən bir sınama cəhdi idi ki, baxsınlar, görsünlər buna kim nə reaksiya verəcək. Gördülər ki, onların müttəfiq saydıqları bütün ölkələr ya bizi dəstəklədilər, ya da neytral qaldılar. Gördülər ki, Azərbaycanın beynəlxalq dəstəyi nə qədər güclüdür. Ona görə bu, onlar üçün dərs olmalıdır. Erməni xalqı, nəhayət, başa düşməlidir ki, əgər onlar normal ölkədə yaşamaq istəyirlərsə, erməni silahlı qüvvələri mütləq bizim torpaqlarımızdan çıxmalıdır. Bu, bizim tarixi, əzəli torpağımızdır. Biz heç vaxt işğalla barışmayacağıq. Ərazi bütövlüyümüzün bərpası bizim üçün birnömrəli məsələdir. Digər tərəfdən, Ermənistan bütün regional layihələrdən təcrid edilib. Biz onları təcrid etmişik. Bizim bölgəmizin yeni enerji, yeni nəqliyyat, yeni telekommunikasiya xəritəsinə baxın, orada Ermənistan yoxdur. Bütün bu xətlər, o cümlədən bizim təşəbbüsümüzlə reallaşdırılan layihələr Ermənistandan yan keçib. Artıq onlar regional əməkdaşlıqdan tamamilə kənardadırlar. Bunu biz etmişik və gizlətmirik. Bütün imkanlarımızı səfərbər edib bundan sonra da onları təcrid vəziyyətində saxlayacağıq. Onlar bu imkanlardan məhrum olunublar. Ancaq biz öz torpaqlarımıza qayıdacağıq, mütləq qayıdacağıq, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək.

*Ardı 4-cü səh.*

# Sosial layihələrin icrası pandemiya dövründə də davam edir

## Prezident İlham Əliyev Balakən regional "ASAN xidmət" Mərkəzinin açılışında iştirak edib

*Əvvəli 3-cü səh.*

Mənə bu yaxınlarda məlumat verildi ki, Ermənistanın baş naziri Azərbaycana yeddi şərt irəli sürüb. Hesab edirəm ağlı başında olan hər bir adam açıq-aydın görə bilər ki, bu şərtlərin heç biri qəbuledilən deyil. Bu şərtlərdən biri odur ki, Azərbaycan qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparsın. Bu, mümkün deyil. Biz bunu dəfələrlə bildirmişik. Çünki "Dağlıq Qarabağ respublikası" yoxdur. Belə bir "respublikanı" heç kim tanımır. Ermənistanın hünəri varsa, tanısın "Dağlıq Qarabağ respublikası"nı. Bax, mən deyirəm, Ermənistan hakimiyyəti, tanıyın onu. Bu gün tanıyın, tanımırsınızsa, deməli qorxursunuz. Gedin, ağlınızı başınıza yığın! Quldur, kriminal rejimlə heç bir danışıqlar aparılmayacaq. Ona görə bəri başdan onlar bilməlidirlər ki, bu, tamamilə qəbuledilməzdir. Digər şərtlər də buna bənzər şərtlərdir. Qəbuledilməz şərtlər irəli sürməklə Ermənistan faktiki olaraq danışıqlar prosesini məhv edir və danışıqlar formatını dəyişdirmək istəyir. Çünki danışıqlar Azərbaycanla Ermənistan arasında aparılır. Bu, Minsk qrupunun və onun həmsədrlərinin açıq mövqeyidir. Dəfələrlə bu mövqe onlara çatdırılıb, həm rəsmi qaydada, həm də bağlı qapılar arxasında. Amma bunların hikkəsinə baxın, yenə də bu şərti irəli sürürlər ki, Azərbaycan dırnaqarası "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. "Dağlıq Qarabağ respublikası" yoxdur. Qoy, erməni xalqı özünü aldatmasın. Biz bütün qalan şərtləri də rədd edirik, o kağızı da zibil vedrəsinə atırıq. Ancaq erməni xalqı yaxşı düşünsün, yaxşı fikirləşsin. Əgər onlar bundan sonra da cinayətkarların girovu kimi yaşamaq istəyirlərsə, onda indiki hakimiyyətin ağılsız və təhlükəli addımlarına göz yumsunlar. Erməni xalqı 1998-2018-ci illərdə Ermənistanda cinayətkar, kriminal rejimin girovu idi. İndi isə Soros rejiminin girovudur.

Onlar başa düşməlidirlər ki, erməni silahlı qüvvələri bizim torpaqlarımızdan çıxmasa, sülh olmayacaq və onlar özləri peşman olacaqlar. Nə qədər ki, gec deyil, erməni silahlı qüvvələri bizim torpaqlarımızdan çıxmalıdır. Bunu beynəlxalq hüquq, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi tələb edir. Erməni silahlı qüvvələri Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bunu tarixi həqiqət tələb edir. Çünki Dağlıq Qarabağ bizim tarixi torpağımızdır. Ermənistanın baş naziri deyir ki, "Dağlıq Qarabağ Ermənistandır" və ondan sonra hansı danışıqlardan söhbət gedə bilər. Çünki danışıqların əsas mahiyyəti ondan ibarətdir ki, işğal edilmiş torpaqlar azad olunsun. Biz bunun ətrafında danışıqlar aparmalıyıq. Yoxsa nəyin ətrafında? Biz dırnaqarası "Dağlıq Qarabağ respublikası"na müstəqilliyin verilməsi haqqında heç vaxt danışıqlar aparmamışıq, heç vaxt! Bu, heç vaxt danışıqlar predmeti olmayıb. Mən bu haqda, ümumiyyətlə, heç vaxt danışmamışam və danışmaq fikrim də yoxdur. Biz onun ətrafında danışıqlar aparırıq ki, işğal edilmiş torpaqlar nə vaxt, hansı ardıcıllıqla azad edilsin. Əgər Ermənistanın baş naziri deyirsə ki, "Dağlıq Qarabağ Ermənistandır", əgər deyirsə ki, "biz qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmaq istəyirik", deməli o, danışıqları məhv edir. Mən 7 şərtin qarşısına bir şərt qoyuram, bir şərt - erməni silahlı qüvvələri işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, Azərbaycan vətəndaşları öz doğma dədə-baba torpaqlarına qayıtmalıdırlar! Budur mənim şərtim və məsləhət görürəm ki, onlar bu şərti qəbul etsinlər.

Biz öz doğma torpaqlarımıza qayıdacağıq və bu gün işğal altında olan şəhərlərimizdə "ASAN xidmət" mərkəzləri yaradacağıq. Bu mərkəzlərdə bizim gənclərimiz çalışacaqlar. Erməni vandalları tərəfindən dağıdılmış şəhərlərimizi, tarixi, dini abidələrimizi bərpa edəcəyik və öz torpağımızda yaşayacağıq. Başqa ölkələrin torpağında bizim gözümüz yoxdur, öz torpağımızı da heç kimə verən deyilik.

Biz Qurban bayramı ərəfəsindəyik. Mən Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik etdim, bir daha təbrik etmək istəyirəm. Sizi, Balakən rayonunun bütün sakinlərini, bütün Azərbaycan xalqını gözəl bayram münasibətilə təbrik edirəm. Sizə, bütün Azərbaycan xalqına yeni uğurlar, xoşbəxtlik arzulayıram. Sağ olun.

* * *

Balakən "ASAN xidmət" Mərkəzinin əməkdaşı **Aytac BALAGÖZOVA** dedi:

- Möhtərəm cənab Prezident, mən də Sizi salamlayıram. Sizi doğma Balakənimizdə görməyimizə çox şad olduq. Təhsil aldığım dövrdə ASAN könüllüsü olmuşam və hazırda Sizin sərəncamınızla açılmış Balakən "ASAN xidmət" Mərkəzinin əməkdaşı kimi qarşınızda çıxış etmək mənim üçün qürurverici bir hissdir.

Möhtərəm Prezident, çox təəssüf ki, bir müddətdir dünyanın hər yerində olduğu kimi, ölkəmizdə də insanlar koronavirusla mübarizə şəraitindədirlər. Hətta ən inkişaf etmiş ölkələrdə belə kütləvi insan ölümləri və yoluxmalar baş verdi. Təəssüflər olsun ki, hazırda da bu virus dünyada davam edir. Sizin rəhbərliyinizlə dövlətimiz qlobal səviyyədə çox fəal və təşəbbüskar rol oynayır. Dəfələrlə Sizin təşəbbüsünüzlə həm xarici dövlət və hökumət başçılarının, həm də transmilli şirkətlərin rəhbərlərinin iştirakı ilə pandemiya ilə mübarizəyə həsr olunan onlayn zirvə görüşləri və konfranslar təşkil edilmiş, həmçinin Ümumdünya Səhiyyə Təşkilatına pandemiya ilə mübarizə üçün müəyyən maddi yardımlar göstərilmişdir.

Cənab Prezident, Sizin Qoşulmama Hərəkatının sədri statusu ilə BMT-nin Baş Assambleyasının koronavirusla mübarizəyə həsr olunan xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünüzü xüsusilə vurğulamaq istəyirəm. Sizin bu təşəbbüsünüzü BMT-yə üzv olan 130-dək ölkə təsdiqlədi, yalnız mənfur qonşumuz Ermənistan belə bir humanist addımın əleyhinə çıxdı. Bu, bir daha beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan etimadın növbəti göstəricisidir və bizi çox qürurlandırır.

Onu da qeyd etmək istərdim ki, bir müddət əvvəl çoxsaylı digər vətəndaşlarımız kimi, mən də Sizə bütün dünyanı aciz vəziyyətdə qoyan koronavirusla mübarizədə böyük əzmlə çalışmağınızla bağlı təşəkkür məktubu ünvanlamışdım. Düzünü desəm, Sizə minnətdarlığımı ünvanlayarkən bunları nə vaxtsa, canlı şəkildə deyəcəyimi heç düşünməmişdim. Bu gün mənim Prezidentim heç bir təhlükəyə baxmayaraq bizimlədir və yenə də bizi düşünür.

Cənab Prezident, biz dövlətimizin və xalqımızın güc birliyi sayəsində bu bəlanı da minimum itki ilə dəf edəcəyimizə inanırıq. Bu gün Balakən "ASAN xidmət" Mərkəzinin açılmasına sakinlərimiz çox sevinirlər. Artıq onlar yeni mərkəzimizdə şəffaf və operativ şəkildə xidmət ala biləcəklər.

Cənab Prezident, biz növbəti "ASAN xidmət" mərkəzinin Qarabağımızda, düşmən tapdağı altında olan rayonlarımızda açılmasını böyük səbirsizliklə gözləyirik. Bu gün həm ASAN könüllüsü, həm də "ASAN xidmət" Mərkəzinin əməkdaşı kimi Sizə söz verirəm ki, dövlətimizin inkişafı naminə qazandığımız təcrübədən yararlanaraq əlimizdən gələnin ən yaxşısını etməyə çalışacağıq və vətəndaşlarımıza layiqincə xidmət göstərəcəyik. Bir daha bizə yaratdığınız bütün şərait üçün Sizə dərin minnətdarlığımızı bildiririk, cənab Prezident. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Çox sağ ol. Təşəkkür edirəm.

ASAN könüllüsü **Şölə TANRIVERDİYEVA** dedi:

- Möhtərəm cənab Prezident, Sizi region gəncləri adından salamlayıram. Çox sevincliyəm ki, bu gün Balakən "ASAN xidmət" Mərkəzinin ilk könüllülərindənəm.

Cənab Prezident, ilk könüllülük fəaliyyətimi "ASAN xidmət"dən başlamaq istəyim heç də təsadüfi deyil. Çünki bilirəm ki, həm vətənpərvər bir gənc, həm də məsuliyyətini dərk edən vətəndaş olaraq ölkəmə öz dəstəyimi verə bilərəm. Çünki burada vahid bir ideologiya var. Yaşından və vəzifəsindən asılı olmayaraq hər kəs dövlət üçün, ümumi rifah üçün çalışır.

Cənab Prezident, yaşım az olsa da, dərk edirəm ki, bu Vətənin övladlarıyıqsa, son nəfəsimizədək dövlətimizin və xalqımızın mənafeyi üçün çalışmalıyıq. Elə bu günlərdə cəbhə xəttində ermənilərin növbəti təxribatı zamanı əsgərlərimiz öz canları bahasına mübarizə apararaq mövqelərimizi qorudular. Düşmən isə çoxlu itki verərək geri çəkilməyə məcbur oldu. Cəmiyyətimizin də bu məsələyə münasibəti birmənalıdır. Biz bunu ASAN könüllülərinin "Əsgərə məktub" layihəsində də gördük. Xalqımız öz ordusuna güvənir, hər zaman öz ordusunun yanındadır və Sizin rəhbərliyinizlə də ordumuzun qələbə çalacağına əmindir. Biz gənclər könüllü olaraq cəbhəyə də yollanmağa hazırıq.

Cənab Prezident, Siz hər zaman öz çıxışlarınızda bizə olan etimadınızı və güvəninizi dilə gətirirsiniz. Bu isə bizi gələcəkdə öz məqsədlərimizə doğru daha qətiyyətli addımlar atmağa ruhlandırır. Belə bir deyim var: "Yolu ağıl seçir, iradə hərəkətə gətirir, inam isə yola işıq saçır". Öz ağlımız və sərbəst iradəmizlə seçdiyimiz bu yolda bizə olan inamınız üçün təşəkkürlər. Çox sağ olun, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Çox sağ ol, təşəkkür edirəm. Sağ olun uşaqlar, bir daha sizi təbrik edirəm, uğurlar arzulayıram.

* * *

Sonra Prezident İlham Əliyev "ASAN xidmət" Mərkəzi üçün alınan və Gəncə Avtomobil Zavodunun istehsalı olan "MAZ" markalı avtobuslara baxdı. Qeyd olundu ki, bu avtobuslarla sərnişindaşıma həyata keçiriləcək.





## Balakən rayonunun elektrik təchizatı yaxşılaşdırılır









İyulun 29-da "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) Balakən Avtomatik İdarəetmə və Nəzarət Mərkəzi istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlət başçısına məlumat verdi ki, bu şəbəkə tərəfindən 21353 əhali, 1806 qeyri-əhali abonenti olmaqla, ümumilikdə, 23159 abonentə xidmət göstərilir. Rayonun elektrik təchizatının yaxşılaşdırılması, abonentlərin dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təchiz olunması məqsədilə Katex kəndindəki 110/6 kV-luq "Qafqaz" yarımstansiyasında əsaslı yenidənqurma işləri aparılıb, 35/6 kV-luq "Kortala" yarımstansiyası tikilib, 35 kV-luq "Kortala" hava xətti çəkilib. Rayon ərazisində köhnə tipli 36 komplekt transformator məntəqələri müasirləri ilə əvəz olunub, yeni hava və kabel xətləri çəkilib və 1872 müxtəlif gərginlikli dayaq quraşdırılıb. 6 kəndin açıq naqillərdən ibarət olan 0,4 kV-luq şəbəkələrində yenidənqurma işləri aparılıb.

Bildirildi ki, Ağıllı Şəbəkələr konsepsiyasına uyğun olaraq Avtomatik İdarəetmə və Nəzarət Mərkəzi yaradılıb və xüsusi proqram təminatı vasitəsilə elektrik enerjisinin alış nöqtəsindən istehlak nöqtəsinə qədər bütün mərhələlərdə şəbəkənin idarə olunması, balansın real-vaxt rejimində və texnoloji itkilər müəyyənləşdirilərək təhlil edilməsi, qabaqlayıcı tədbirlərin görülməsi, xətlər üzrə yük parametrlərinin virtual arxivləşdirilməsi, elektron xəritə vasitəsilə abonentlərin müraciətlərinə əsasən texniki şərtlərin verilməsi, istehlakçıların elektrik şəbəkəsinə qoşulması barədə sənədlərin hazırlanması işləri həyata keçiriləcək. Mərkəz həmçinin yüksək və aşağı gərginlikli şəbəkələrdə fasiləsiz və keyfiyyətli elektrik enerjisinə nəzarətin təmin edilməsində, sərfiyyat göstəricilərinin monitorinqinin aparılmasında, elektrik şəbəkələrində açılma və qoşulmaların real-vaxt rejimində qeydiyyatında xüsusi rol oynayacaq.

Qeyd edildi ki, görülmüş tədbirlər və qoyulmuş investisiyalar nəticəsində Balakən elektrik şəbəkəsində itkilər 5,2 faiz azalıb, 10,0 milyon kilovat-saat elektrik enerjisinə qənaət olunub. Faydalı elektrik enerjisinə görə yığım göstəriciləri 87 faizə çatdırılıb.

Sonra Prezident İlham Əliyev şəhərin kommunal təsərrüfatı üçün alınan texnikaya baxdı.

Bildirildi ki, bu məqsədlə Gəncə Avtomobil Zavodunun istehsalı olan iki traktor, bir traktor qoşqusu və küçə süpürən texnika Balakənə gətirilib.

# Sosial layihələrin icrası pandemiya dövründə də davam edir

## Yerli yolların yenidən qurulması əhalinin rahatlığına xidmət edir



İyulun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən qurulan Balakən-Qazbinə-İtitala avtomobil yolunun açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, tədbir çərçivəsində Balakən-Hənifə-Gülüzanbinə avtomobil yolunun da təqdimatı olub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Prezident İlham Əliyevə məlumat verdi ki, uzunluğu 29 kilometr olan üçüncü və dördüncü texniki dərəcəli yol iki hərəkət zolaqlıdır.



Dövlət başçısının müvafiq sərəncamları ilə tikilən Balakən-Qazbinə-İtitala avtomobil yolu 18 min nəfər əhalinin yaşadığı 10 yaşayış məntəqəsini birləşdirir. Yol üzərində 123 yol nişanı və göstərici lövhələr quraşdırılıb. 8,7 min kvadratmetr yol cizgi xətləri çəkilib və suvarma kanalı üzərindəki körpü əsaslı təmir olunub.

Prezident İlham Əliyev Balakən rayonunun Balakən-Hənifə-Gülüzanbinə avtomobil yolunun yenidən qurulması layihəsi barədə görülən işlərlə də tanış oldu.

Diqqətə çatdırıldı ki, 9 min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən bu yolun uzunluğu 25 kilometrdir. Dördüncü texniki dərəcəli yolda 2 hərəkət zolağı var.

Dövlət başçısına Qullar-Tülü-Talalar-Şərif-Acılıqbinə-Qaysa avtomobil yolunun layihəsi çərçivəsində görülən işlər barədə də məlumat verildi.

## Balakəndə bağçılıq təsərrüfatı genişləndirilir





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Balakən rayonunda "Bal meyvə" Bağçılıq Təsərrüfatı ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısına təsərrüfat barədə məlumat verildi.

Bildirildi ki, 2012-ci ildə Katex və Beretbinə kəndlərində yaradılan "Bal meyvə" Bağçılıq Təsərrüfatında 9 növ olmaqla 95 min alma və 4 növdə 3 min armud tingləri əkilib. Bundan əlavə, Beretbinə kəndində 15 hektar ərazidə 5 növdə 6500 gavalı və 2 növdə 2 min nektarin tinglərinin əkildiyi bağlara aqrotexniki, aqrokimyəvi xidmətlər göstərilir və bu bağlarda müasir "damcı" suvarma sistemi qurulub.

Məlumat verildi ki, 2020-ci ilin əvvəlində meyvələrin xüsusi şəraitdə saxlanılması üçün tutumu 1300 ton olan soyuducu anbarın tikintisinə başlanıb və sentyabrda onun istifadəyə verilməsi nəzərdə tutulub. Bağın 6 hektar ərazisində balıqçılıq təsərrüfatı üçün göl yaradılıb və burada 3 növ balıq bəslənilir.

Diqqətə çatdırıldı ki, təsərrüfatda daimi olaraq 80 nəfər işçi çalışır, yığım vaxtı isə 200-dən çox rayon sakini mövsümi işlərə cəlb olunur.

Qeyd edək ki, ötən il təsərrüfatda 1200 ton meyvə istehsal edilib, bu il 1400 ton, 2023-2024-cü illərdə isə 2000 tondan çox meyvə istehsalı nəzərdə tutulub.

## Prezident İlham Əliyev Şəkidə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Şəkidə səfərdə olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Şəki şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Qeyd edək ki, Prezident İlham Əliyevin Şəkiyə çoxsaylı səfərləri rayonun inkişafında əsaslı rol oynayıb. Nəticədə 2003-cü ilə nisbətdə 2019-cu ildə məhsul buraxılışı 4,8 dəfə, sənaye 9,1 dəfə, kənd təsərrüfatı 2,3 dəfə, əsas kapitala yönəldilmiş vəsait 74,7 dəfə artıb. 2003-cü ildən indiyədək rayonda 24 758 yeni iş yeri açılıb, cari ildə qeyri-məşğul əhali üçün ödənişli əsaslarla 640, pandemiya ilə əlaqədar əlavə 477 ictimai iş yeri yaradılıb.

## Şəkidə Qoxmuq-Baltalı-Babaratma-Qaradağlı-Qudula-Daşüz avtomobil yolunun yenidənqurmadan sonra açılışı olub





İyulun 29-da Şəki rayonunun Qoxmuq-Baltalı-Babaratma-Qaradağlı-Qudula-Daşüz avtomobil yolunun yenidənqurmadan sonra açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yolun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına məlumat verdi ki, uzunluğu 33 kilometr olan dördüncü texniki dərəcəli bu yol 2 hərəkət zolaqlıdır. Azərbaycan Prezidentinin ötən il imzaladığı müvafiq sərəncamla yenidən qurulan Qoxmuq-Baltalı-Babaratma-Qaradağlı-Qudula-Daşüz avtomobil yolu 11 min əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirir. Avtomobil yolunun 17-ci kilometrliyində Əyriçay çayı üzərində uzunluğu 59 metr, qabariti 7,4 metr olan dəmir-beton körpü təmir edilib.

Prezident İlham Əliyevə Şəki rayonunun ərazisində yerləşən Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun 134 kilometrliyindən ayrılan Şirinbulaq avtomobil yolunun tikinti layihəsi barədə də məlumat verildi. Qeyd olundu ki, 4 min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən bu yolun uzunluğu 28,1 kilometrdir.

## Bir gündə ölkəmizin dörd şəhərində modul tipli xəstəxanalar açılıb

İyulun 29-da Şəkidə koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli xəstəxana istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xəstəxanada yaradılan şəraitlə də tanış oldu.

Dövlət başçısına məlumat verildi ki, digər modul tipli infeksion xəstəliklər korpuslarında olduğu kimi, burada da orta ağırlıqlı simptomları olan infeksion koronavirus xəstələrinin qəbulu və müalicəsi üçün lazımi şərait yaradılıb. Bu komplekslərin rayon mərkəzi xəstəxanalarının yaxınlığında quraşdırılması vahid idarəetməni və tibbi əlaqələndirməni təmin etməyə imkan verir. Digər tərəfdən, koronavirus xəstələrinin lazımi tibbi xidmətlərlə əhatə olunmasına geniş imkanlar açır.

Bildirildi ki, sahəsi 3 min kvadratmetr olan üç korpuslu bu xəstəxana 100 palata və 200 çarpayı yerindən ibarətdir. Xəstəxana mərkəzləşdirilmiş Oksigen Generator Sistemi ilə təchiz olunub. Burada quraşdırılan xüsusi havalandırma sistemi havanı ventilyasiya qurğusu ilə təmizlədikdən sonra palatalara ötürür.




Bir daha xatırladaq ki, modul tipli yardımçı xəstəxana korpusları qısa müddət ərzində sadə beton bünövrə üzərində quraşdırılıb və zərurət olmadıqda onların digər sahələrə köçürülməsi və başqa məqsədlər üçün istifadə edilməsi mümkündür.

Xəstəxana ilə tanışlıqdan sonra Prezident İlham Əliyev həkimlərlə görüşdü.

Dövlət başçısı görüşdə çıxış etdi.

*Ardı 6-cı səh.*

# Sosial layihələrin icrası pandemiya dövründə də davam edir

## Bir gündə ölkəmizin dörd şəhərində modul tipli xəstəxanalar açıldı

### Prezident İlham Əliyevin çıxışı

*Əvvəli 5-ci səh.*

- Bu gün ölkəmizin dörd şəhərində modul tipli xəstəxanalar açılır. Bu, çox əlamətdar hadisədir. Onlardan biri Şəki şəhərində, digərləri Qobustan, İsmayıllı, Qəbələ şəhərlərində. Beləliklə, bir gündə biz əlavə 800 çarpayı əldə edirik, koronavirusla bağlı mübarizədə əlavə imkanlar yaradılır.

Mən təqribən üç ay bundan əvvəl modul tipli xəstəxanaların alınması ilə bağlı göstəriş vermişdim. Bildirmişdim ki, qısa müddət ərzində 10 xəstəxana ölkəmizə gətirilməlidir. Artıq 9-u hazır vəziyyətdədir. Onuncu xəstəxana isə yəqin ki, avqust ayında istifadəyə veriləcək. Beləliklə, bu proqram tam icra edilir. Bu günə qədər beş xəstəxana açılıb və 10 xəstəxananın fəaliyyəti nəticəsində bizim əlavə 2 min çarpayılıq xəstəxanalarımız olacaq.

Bunun xüsusi əhəmiyyəti var. Çünki hazırda koronavirus xəstəliyi Azərbaycanda və bütün dünyada daha geniş vüsət alır. Hər gün Azərbaycanda yüzlərlə insan xəstələnir. Belə olan halda çarpayıların çatışmazlığı çox böyük problem yarada bilərdi. Necə ki, inkişaf etmiş bəzi ölkələrdə biz bu problemləri görürük. Bu ölkələrdə, hətta inkişaf etmiş ölkələrin səhiyyə sistemi buna davam gətirə bilmir. Bunu nəzərə alaraq biz operativ qaydada bu məsələləri həll etməyə çalışırıq və buna nail oluruq. Onu da bildirməliyəm ki, hər biri 200 çarpayılıq modul tipli əlavə 6 xəstəxananın ölkəmizə gətirilməsi məsələsi həll olunur. Yaxın gələcəkdə onlar da gətiriləcək.

Bununla paralel olaraq artıq Fövqəladə Hallar Nazirliyinin 800 çarpayılıq xəstəxanası açılıb. Həmçinin 1300 çarpayılıq ikinci xəstəxana da açılacaq. Beləliklə, orada 2100 çarpayı olacaq. Artıq iki min çarpayı fondu vardır. Bu, 4100 çarpayı edir. Altı əlavə modul tipli xəstəxananın fəaliyyəti nəticəsində bizdə təqribən 6 minə yaxın çarpayı fondu yaranır. Əlbəttə ki, əgər bu məsələlər öz həllini tapmasaydı, biz bu gün koronavirusla bağlı çox böyük problemlərlə üzləşə bilərdik.

Bildirməliyəm ki, hazırda ölkəmizin 46 xəstəxanasında koronavirus xəstələri müalicə alır. Bu xəstəxanaların 41-i son 16 il ərzində tikilib və ya əsaslı şəkildə təmir edilib, müasir avadanlıqlarla təchiz olunub. İndi təsəvvür edin, əgər biz vaxtilə bu işlərlə məşğul olmasaydıq, bu gün bizim imkanlarımız çox məhdud ola bilərdi. Bir neçə il bundan əvvəl Şəki şəhərində, bax bu modul tipli xəstəxananın qarşısında təqribən 200 çarpayılıq böyük xəstəxana açılmışdır. Bu gün bizim bütün şəhərlərimizdə müasir xəstəxanalar fəaliyyət göstərir, yaxud da ki, yaxın bir il ərzində fəaliyyət göstərəcək. Biz səhiyyə sistemimizin infrastruktur bazasını yaratmışıq. Bu xəstəxanada reanimasiya şöbəsi də var, süni tənəffüs cihazları gətirilib. Bildiyiniz kimi, koronavirusla bağlı mübarizəni səmərəli aparmaq üçün çox böyük vəsait ayrılıb. Bu vəsait tibbi avadanlığın, dərmanların alınmasına, digər məsələlərə istiqamətləndirilir. Mən demişəm ki, nə qədər lazımdırsa, o qədər də vəsait ayrılacaq. Təki insanlar tezliklə sağalsınlar və biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək.



Pandemiyaya qədər ölkə ərazisində bizim cəmi altı laboratoriyamız var idi. Ola bilər ki, adi rejim üçün bu, kifayət idi. Ancaq indiyədək Azərbaycanda 700 min test keçirilib. Adambaşına keçirilmiş testlərin sayına görə biz dünyada qabaqcıl yerlərdəyik. Məhz bu testlərin kütləvi şəkildə keçirilməsi nəticəsində biz xəstələri aşkar edirik və onları müalicəyə cəlb edirik. Operativ tədbirlər nəticəsində bu gün laboratoriyaların sayı 31-ə çatıb. Bizim planımız bu laboratoriyaların sayını 45-ə çatdırmaqdır. Bu məsələ də öz həllini tapır. Çarpayı fondu artır, koronavirus xəstələri ən müasir xəstəxanalarda müalicə alır, o cümlədən bizim ən gözəl xəstəxanamız "Yeni klinika"da. Orada hazırda 360 xəstə yerləşib. Bildiyiniz kimi, bu klinikanın fəaliyyəti mərhələli şəkildə təşkil edilir.

İndi baxın, əgər bu klinika yaradılmasaydı, əgər bundan başqa 41 xəstəxana, - hansı ki, indi koronavirus xəstələrinə xidmət göstərir, - tikilməsəydi, bu gün biz çox ağır bir vəziyyətlə üz-üzə qalardıq. Bu, bir daha onu göstərir ki, biz gərək hər şeyi vaxtında edək. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının tərkib hissəsi olan yeni xəstəxanaların tikintisi və köhnə xəstəxanaların əsaslı təmiri proqramı demək olar ki, tam təmin edilib. Hətta pandemiyaya qədər bunun böyük faydası haqqında insanlar da artıq öz fikirlərini bildirirdilər. Çünki biz pandemiyaya qədər hər il kütləvi surətdə müayinədənkeçmə proqramı icra edirdik. Bu proqram 5 milyon insanı əhatə edir. Beş milyon insan dövlət tərəfindən yaradılmış imkanlar hesabına öz sağlamlığını müəyyən edir və xəstəliklər üzə çıxdıqda dərhal müalicə alır. Məhz bunun nəticəsində bizdə insanların ömrünün uzunluğu artır. Bu gün Azərbaycanda ən mürəkkəb əməliyyatlar da keçirilir.



Bir sözlə, biz qısa müddət ərzində bütün imkanlarımızı səfərbər edib COVID-19-la mübarizə sahəsində daha hazırlıqlı olduğumuzu nümayiş etdiririk. Heç bir ölkə buna hazır deyil, heç bir ölkə. Xüsusilə pandemiyanın ilk günlərində inkişaf etmiş ölkələrdəki vəziyyət bizim və dünyanın gözü qarşısında cərəyan edirdi. Ən inkişaf etmiş ölkələr bu xəstəliklə bağlı lazımi tibbi xidməti göstərə bilmirdilər. Bu da yəqin ki, təbiidir. Çünki heç kim buna hazır deyildi.

Ona görə bizim əsas vəzifəmiz qısa müddət ərzində bütün səfərbərlik işlərini düzgün təşkil edərək, pandemiyadan minimum itkilərlə çıxmaq üçün infrastruktur və maddi-texniki bazanın yaradılmasından ibarət idi. Laboratoriyalar, xəstəxanalar, çox böyük təşkilati məsələlər öz həllini tapdı. Logistik məsələlər də həmçinin. Eyni zamanda həkimlərin maddi vəziyyətinin yaxşılaşdırılması üçün əməli addımlar atıldı. COVID-19 xəstələrinə xidmət göstərən həkimlərin maaşları 3-5 dəfə artırılıb. Ən vacib və ciddi problemlərdən biri də həkimlərin çatışmazlığıdır. Çünki bizim həkimlərimizin sayı adi rejimə hesablanıb. Ona görə xəstələrin kəskin artması, əlbəttə ki, bu problemi də üzə çıxarıb. Bundan çıxış yolunu biz xaricdən həkimləri Azərbaycana dəvət etməkdə gördük.

Əlbəttə ki, bütün bu məsələləri həm təşkil etmək, həm də maliyyələşdirmək üçün gərək ölkədə imkanlar olsun. Ona görə hazırda bir neçə xarici ölkədən həkimlər Azərbaycandadırlar. Onlar xəstələrə xidmət göstərirlər. Hesab edirəm ki, əgər ehtiyac yaranarsa, biz gələcəkdə də bu praktikanı tətbiq edəcəyik.

Pandemiya ilə mübarizə sahəsində bütün lazımi addımlar atılır. Hətta qısa müddət ərzində ölkəmizdə tibbi maskaların, dezinfeksiya vasitələrinin, həkimlər üçün kombinezonların istehsalına başlanmışdır. Bütün bunların istehsalı bizdə yox idi, heç lazım da deyildi. Təbii ki, hər bir ölkə istehlak etdiyi bütün malları istehsal etməməlidir. Ancaq biz gördük ki, xaricdən bəzi avadanlıqları, ləvazimatları gətirmək çətindir. Bəzən imzalanmış kontraktlar icra edilmirdi, vəsait də ödənilmişdi, yenə də biz lazımi avadanlığı gətirə bilmirdik. Xüsusilə pandemiyanın ilk mərhələsində ki, dünyada çox böyük ajiotaj var idi.

Bütün bu işlərin nəticəsində biz ilk günlərdən xəstəliyi nəzarət altında saxlayırıq. İlk günlərdən həm Azərbaycan vətəndaşları, həm də Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən bizim işlərimizə çox yüksək qiymət verildi. Mən bu günə qədər yerlərdən təşəkkür məktubları alıram ki, Azərbaycan dövləti bütün bu işləri operativ qaydada təşkil edib və insanların sağlamlığını təmin edib. Beynəlxalq təşkilatların mövqeyi də müsbətdir. Ümumdünya Səhiyyə Təşkilatı bizim fəaliyyətimizi nümunəvi fəaliyyət kimi dəyərləndirmişdir. Hesab edirəm ki, may ayının əvvəlində bizim yumşalma siyasətimiz düzgün addım idi. Çünki o vaxt xəstəliklə bağlı dinamika müsbət idi. Sağalanlar yoluxanlardan çox idi. Ona görə biz yumşalmaya getdik. Çünki bilirik ki, bu, insanları narahat edir, incidir. İnsanlar öz adi həyat tərzindən məhrum ediliblər. Ona görə yumşalmaya getdik. Amma nə gördük?! Gördük ki, xəstələrin sayı dərhal artmağa başladı, müsbət dinamika pozuldu və biz mənfi dinamika fazasına daxil olduq. Yenə sərtləşdirmə qaçılmaz oldu. Yenə sərt məhdudlaşdırıcı tədbirlər görülməyə başlandı. Bu tədbirlər görülməyə başlayandan təqribən bir ay sonra biz yenə də müsbət dinamikanı görürük. Artıq iki həftədir ki, ölkəmizdə sağalanların sayı yoluxanların sayından çoxdur. Müsbət dinamika budur. Biz hamımız çox istəyirik ki, bu karantin rejimi tezliklə başa çatsın, tezliklə öyrəşdiyimiz həyat tərzinə qayıdaq. Ancaq biz görürük ki, bir balaca yumşalma olan kimi, xəstəliyin vüsəti dərhal genişlənir, yayılması sürətlə gedir və insanların həyatı təhlükə altına düşür.

Bu, elə xəstəlikdir ki, heç yaş da tanımır. Hər kəs - yaşlı, orta yaşlı, cavan insanlar təhlükə altındadır. Birinci mərhələdə hesab olunurdu ki, bu, yaşlı insanlar üçün daha təhlükəlidir, gənclər bundan o qədər də əziyyət çəkmirlər. Amma baxın indi gənc insanlar da, orta yaşlı insanlar da, sağlam insanlar da vəfat edir. Hesab edilirdi ki, xroniki xəstəlikləri olan insanlar risk zonasındadır. Bu, belədir. Amma tam sağlam insanlar, idmançılar xəstələnir və ağır xəstələnir. Ona görə bu xəstəliyin tədqiqatı hələ gələcəyin işidir. Mən hesab edirəm ki, hələ alimlər dəqiq bilmirlər bu xəstəliyin mənşəyi nədir. Müxtəlif fərziyyələr irəli sürülür. Mən bu haqda danışmaq istəməzdim, bu işin mütəxəssisi deyiləm. Amma fakt odur ki, xəstəliyin mənşəyi və səbəbi tam aşkar ediləndən sonra yəqin ki, onun müalicəsi də daha asan olacaqdır.

Əlbəttə, bilməliyik ki, peyvənd tapılana qədər biz bu vəziyyətlə barışmalı olacağıq. Onu da bilməliyik ki, baxmayaraq, vəziyyət nəzarət altındadır, - həkimlər bunu yaxşı bilirlər, - ancaq koronavirus yoxa çıxmayıb və yoxa çıxmayacaq. Biz bu virusla yaşamalı olacağıq. Ona görə bizim ənənəvi həyat tərzimizə əlavə olunan məqamlar gərək müəyyən müddət qüvvədə olsun: məsafə saxlamaq, şəxsi gigiyena məsələləri və əlbəttə ki, məsuliyyət. Hesab edirəm ki, biz birgə səylərlə bu vəziyyətdən az itkilərlə çıxacağıq. Yenə də deyirəm, bu günə qədər gördüyümüz işlər nəticəsində vəziyyət tam nəzarət altındadır. Biz bundan sonra da xəstəliklə mübarizə aparmaq üçün nə lazımdırsa, onu da edəcəyik. Biz istənilən iqtisadi məhrumiyyətlərə dözərək əsas məsələni həll edəcəyik.

Bu gün bizim altıaylıq yekunlarımız bütün başqa ölkələr kimi, o qədər də müsbət deyil. İqtisadiyyat tənəzzülə uğrayıb. Düzdür, tənəzzül o qədər də böyük deyil - 2,7 faizdir. Amma bu il üçün bizim planlarımız çox böyük idi. Buna baxmayaraq, heç bir sosial layihə ixtisar edilmir və edilməyəcək. Əksinə, həm xəstəliklə mübarizəyə, eyni zamanda xəstəlikdən əziyyət çəkən insanların maddi vəziyyətinin yaxşılaşmasına bu qədər vəsait xərclənib və xərclənəcək. Yüz minlərlə insan dövlət tərəfindən maddi dəstəklə əhatə olunub. Biz xərclərimizi artırmalı oluruq və büdcə xərclərimizə yenidən baxmalıyıq. Çünki bu məqsədlər üçün əlavə vəsaitin cəlb edilməsi qaçılmaz olacaq. Bu vəsait, əlbəttə, büdcədə nəzərdə tutulmamışdır. Ona görə yəqin ki, büdcəyə dəyişiklik ediləcək və hesab edirəm, bu, düzgün addımdır. Çünki hazırda bizim üçün birinci dərəcəli məsələ insanların sağlamlığı, onların həyatıdır.

Əlbəttə ki, dövlətin səyləri ilə bərabər, həkimlərin fəaliyyətindən çox şey asılıdır, onların rolu həlledicidir. Siz daim xəstələrlə təmasdasınız, öz sağlamlığınızı, həyatınızı risk altına qoyursunuz. Əfsuslar olsun ki, həkimlər arasında ölənlərin sayı artır. Biz bu vəziyyətdən ancaq birgə səylərlə çıxa bilərik - dövlət orqanlarının məsuliyyəti, həkimlərin peşəkarlığı, onların öz andına sadiqliyi və vətəndaşların məsuliyyəti. Biz bu vəziyyətdən birgə səylərlə çıxmalıyıq. Əminəm ki, belə də olacaq. Sizə uğurlar arzulayıram. Xəstələrə yaxşı baxın. Özünüzü, yaxınlarınızı yaxşı qoruyun. Çalışın xəstələnməyin. Sizə cansağlığı, uğurlar arzulayıram. Sizi bir daha təbrik edirəm.

Həkim **Nəzakət KƏRİMOVA** dedi:

- Möhtərəm cənab Prezident, Sizi bütün şəkililər və xüsusən də Şəki Mərkəzi Rayon Xəstəxanasının kollektivi adından salamlayırıq. Bildiyimiz kimi, bu gün bütün dünyada yeni növ koronavirus infeksiyası böyük pandemiya olaraq yayılmış və bütün dünya səhiyyəsi, eləcə də dünya iqtisadiyyatı üçün böyük bir problemə çevrilmişdir. Əfsuslar olsun ki, bu pandemiya bizim ölkəmizdən də yan keçmədi. Ona görə də mövcud pandemiya vəziyyətində əhaliyə yüksək tibbi xidmət göstərəcək və hər cür lazımi avadanlıqla təchiz olunmuş müasir modul tipli xəstəxanaların yaradılması günümüzün vacib və zəruri şərtlərindən biri idi. Sizin dəstəyiniz və təşəbbüsünüzlə bu gün Azərbaycanın bir çox bölgələrində, o cümlədən artıq Şəkidə belə bir xəstəxana inşa edildi və əhalinin istifadəsinə verildi. Biz də tibb işçiləri olaraq Sizi əmin edirik ki, bütün bilik və bacarığımızı ortaya qoyacaq və xalqımıza yüksək səviyyədə tibbi xidmət göstərəcəyik, bizə olan etimadınızı doğruldacağıq.

Son olaraq dəyərli vaxtınızı çox almadan, Sizə bütün şəkililər adından xüsusi minnətdarlığımızı bildirmək istəyirik. Bilirik ki, bizim şəhərimiz həm Sizin, həm də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti dəyərli Mehriban xanım Əliyevanın daim xüsusi diqqət mərkəzindədir.

*Ardı 7-ci səh.*

# Sosial layihələrin icrası pandemiya dövründə də davam edir

## Bir gündə ölkəmizin dörd şəhərində modul tipli xəstəxanalar açılıb

*Əvvəli 6-cı səh.*

Biz hər zaman bu xüsusi diqqət və qayğını görürük və hiss edirik. Məhz Mehriban xanım Əliyevanın təşəbbüsü və səyləri sayəsində Şəki Xan Sarayı ilə Şəkinin tarixi mərkəzi UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir. Şəki şəhəri həm də UNESCO-nun yaradıcı şəhərlər şəbəkəsinin bir üzvüdür. Buna görə həm Sizə, həm də dəyərli Mehriban xanıma bir daha təşəkkürümüzü bildiririk. Xahiş edirik ki, bizim salamlarımızı Mehriban xanıma çatdırasınız. Fürsətdən istifadə edib Sizi qarşıdan gələn müqəddəs Qurban bayramı münasibətilə təbrik edir, Sizə möhkəm cansağlığı və işlərinizdə yeni uğurlar arzu edirik.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Mən də sizi müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edirəm. Demək istəyirəm ki, siz tamamilə haqlısınız. Şəki şəhərinə mənim diqqətim həmişə olub. Bu səfər mənim Şəkiyə onuncu səfərimdir və bu, özlüyündə bir göstəricidir.

Son illər ərzində Şəki şəhərinin həm infrastruktur layihələrinin icrası, eyni zamanda tarixi abidələrinin bərpası istiqamətində çox böyük işlər görülüb. Mən buraya gələrkən görülmüş işlərə bir daha nəzər saldım. Gördüm ki, burada infrastruktur layihələrinin bir çoxu reallaşıb, qazlaşdırmanın səviyyəsi təqribən 85 faizə çatıb, elektrik enerjisi ilə təchizat normaldır. Biz vaxtilə Şəkidə modul tipli elektrik stansiyası qurduq. Yol təsərrüfatı yenilənir. Həm kənd yolları, həm Şəki-Qax-Balakən yolu indi ən yüksək standartlara cavab verir. Mən göstəriş verəcəyəm ki, Şəki-Oğuz yolunun yenidən qurulması da dövlət proqramında nəzərə alınsın və bu iş də tezliklə icra edilsin.



Turizm layihələri icra edilir. Bir çox hotellər tikilib və əlbəttə ki, infrastruktur olmadan turizm inkişaf edə bilməz. Bu modul tipli xəstəxananın qarşısında gözəl Mərkəzi şəhər xəstəxanası, Olimpiya Mərkəzi, “ASAN xidmət” Mərkəzi və digər obyektlər tikilib. Əlbəttə ki, keçən il Şəki Xan Sarayı ilə birgə şəhərin mərkəzinin UNESCO-nun Ümumdünya İrs Siyahısına salınması tarixi hadisədir. Bu, Azərbaycanın növbəti böyük zəfəridir. Qız qalası, İçərişəhər, Qobustan və Şəki - bu, təsadüfi deyil. Əlbəttə ki, dediyiniz amillər həlledici rol oynayıb. Amma bununla paralel olaraq Şəki şəhərinin dünyaya təqdimatı və buraya gələn turistlərin sayının artması nəticəsində Şəkini dünyada daha yaxından tanıdılar. Ekspert komissiyası, əlbəttə ki, bütün bu amilləri nəzərə alıb. Şəki, doğrudan da, Ümumdünya İrs Siyahısında olmağa layiqdir. Bu, bizim növbəti böyük qələbəmizdir, bütün Azərbaycan xalqının qələbəsidir. Ona görə bundan sonra da bütün lazımi addımlar atılacaq. Mən bilirəm ki, problemlərdən biri də 1925-ci ildə tikilmiş 7 saylı Şəhər Məktəbidir. Bu məktəbin yenidən qurulması, yol çəkilişi və digər məsələlərlə bağlı sərəncam veriləcək. Yəni görülmüş bütün işləri sadalamaq mümkün deyil. Əsas odur ki, biz buna planlı şəkildə yanaşırıq - sosial infrastruktur, məktəblər, kənd təsərrüfatı, sənaye potensialı və əlbəttə ki, turizmin inkişafı. Pandemiyanın ən çox ziyan vurduğu sahə turizmdir. Bizim bu sahədə çox gözəl inkişafımız var idi. Keçən il ölkəmizə 3 milyondan çox turist gəlmişdi. Ancaq turistlər ölkəmizdə təqribən 2 milyard dollara yaxın pul xərclədilər və turizm sahəsində çalışan on minlərlə insan bundan faydalandı. Bu il biz 3,5 milyon turist gözləyirdik. Amma indi, hər yerdə olduğu kimi, turizm demək olar ki, sıfır səviyyəsindədir. Ona görə daxili turizmə böyük üstünlük verilməlidir. Çünki pandemiya nə vaxt başa çatacaq, heç kim bilmir. Başa çatandan sonra turizm sektorunun bərpası müəyyən müddət tələb edəcək. Çünki indi insanlar harasa getməyə ehtiyat edəcəklər. Ona görə Şəkinin də inkişafının müəyyən faizi turizmlə bağlı olduğu üçün, əlbəttə ki, biz bu amili nəzərə alacağıq. Amma əmin ola bilərsiniz ki, bundan sonra da Şəki şəhərinin və rayonun inkişafı diqqət mərkəzində olacaq, insanları narahat edən məsələlər həllini tapacaq. Onlardan biri içməli su layihəsidir. Əfsuslar olsun ki, bu layihə çox uzandı və çoxdan başa çatmalı idi. Mənə verilən məlumata görə, layihənin 55 faizi icra edilmişdir, ümid edirəm ki, yaxın gələcəkdə tam başa çatacaq. Bildiyiniz kimi, bu layihə beynəlxalq maliyyə qurumları tərəfindən maliyyələşir və yubanmanın səbəblərindən biri də məhz budur. Çünki danışıqlar bir qədər çox vaxt apardı. Ancaq bilirəm ki, bu, çox önəmli layihədir və qeyd etdiyim kimi, onun böyük hissəsi icra edilib, qalan hissənin icrası üçün də lazımi vəsait ayrılacaq.

Əminəm ki, bütün digər məsələlər uğurla öz həllini tapacaq. Çünki ölkəmizin çox gözəl perspektivləri var. Biz artıq dayanıqlı iqtisadiyyat yaratmışıq, hətta neftin qiymətinin düşməsini Azərbaycan vətəndaşları hiss etmədilər. Biz bu ağır vəziyyətdə pandemiya ilə mübarizəyə böyük vəsait ayırırıq. Dediyim kimi, dövlət büdcəsinə əlavələr edilməlidir, dürüstləşmə aparılmalıdır. Əlavə xərclər cəlb ediləcək ki, insanlar daha da yaxşı yaşasınlar, ölkəmiz daha da güclənsin və inkişaf etsin. Sizi bir daha təbrik edirəm və sizə uğurlar arzulayıram. Sağ olun.

## Qəbələdə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Qəbələ rayonunda da səfərdə olub. AZƏRTAC xəbər verir ki, dövlət başçısı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Qeyd edək ki, ölkəmizin ümumi inkişaf tempinə uyğun olaraq Qəbələ rayonunda da abadlıq, quruculuq və yenidənqurma işləri davamlı xarakter alıb. Rayonun iqtisadiyyatı möhkəmlənir, kənd və qəsəbələr abadlaşır, əhalinin yaşayış səviyyəsi yaxşılaşır. Qəbələdə 2003-cü ildən bəri məhsul buraxılışı 6,5 dəfə, sənaye 40,9 dəfə, kənd təsərrüfatı 2 dəfə, əsas kapitala yönəldilmiş vəsait 94,3 dəfə, tikinti-quraşdırma işləri 103,3 dəfə artıb, 21 min 531 yeni iş yeri açılıb. Respublikanın əsas turizm mərkəzlərindən biri olan bu rayonda sosial məsələlərin həlli daim diqqət mərkəzində saxlanılır. Su, qaz, elektrik, yol təsərrüfatlarının yenilənməsi və müasirləşməsi prosesi davam edir.



## Yeni yolun açılışı birbaşa rayon mərkəzinə və qonşu kəndlərə gediş-gəlişi təmin edəcək






İyulun 29-da Qəbələ rayonunda Əmirvan-Vəndam avtomobil yolu yenidənqurmadan sonra istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dövlət başçısına məlumat verilib ki, investisiya xərclərindən ayrılmış 13,1 milyon manat vəsait hesabına tikilmiş, uzunluğu 28 kilometr olan yol 13 min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirir. Yolboyu su ötürücü borular, yol nişanları, göstərici lövhələr, siqnal dirəkləri və 5 avtodayanacaq quraşdırılıb. Dəstəmazçay üzərində yeni körpü tikilib.

Prezident İlham Əliyevə 20 min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini rayon mərkəzindən və digər yaşayış məntəqələrindən ayıran, Bum-Tikanlı-Abrıx avtomobil yolunun 2-ci kilometrliyində Bum çayı üzərində yeni körpünün tikintisi və Bum qəsəbəsinə gedən 2 kilometrlik avtomobil yolunun bərpası istiqamətində görülən işlər barədə məlumat verildi. Bildirildi ki, yeni körpü 12 aşırımlı olmaqla uzunluğu 310 metr, eni isə 9 metrdir. Bundan əvvəl 11 yaşayış məntəqəsinin əhalisi çayın bir tərəfindən o biri tərəfinə keçmək üçün təqribən 30 kilometr əlavə məsafə qət etməli olurdular. Yeni körpünün inşası həmçinin Bum qəsəbəsindən körpüyə qədər olan yolun yenidən qurulması nəticəsində 20 min əhalinin əlavə yol qət etmədən birbaşa rayon mərkəzinə və qonşu kəndlərə gediş-gəlişini təmin edəcək.

Vəndam kəndində doğulmuş general Polad Həşimovun qəhrəmanlığından danışan və xatirəsinin əbədiləşdirilməsi üçün Qəbələnin küçələrinin birinə onun adının verilməsi və digər müvafiq tədbirlər görülməsi barədə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevə tapşırıqlarını verən **Prezident İlham ƏLİYEV** dedi:

- Vəndam kəndi bilirsən ki, böyük kənddir, qədim kənddir, qədim yaşayış yeridir. Qəbələ şəhərindən sonra ikinci böyük yaşayış məntəqəsidir. Kəndin həm Qəbələ rayonunda, həm ölkə ərazisində xüsusi yeri vardır. Kəndin ziyalıları, ağsaqqalları bizim fəxrimizdir.

Vəndam kəndinin yetirməsi olan general Polad Həşimov namərd, mənfur ermənilər, Ermənistan tərəfindən təşkil edilmiş təxribat nəticəsində Vətən uğrunda döyüşlərdə həlak olmuşdur. Polad Həşimov mənim tərəfimdən iki dəfə dövlət ordenləri ilə təltif edilmişdir. Mənim sərəncamımla ona general ali hərbi rütbəsi verilmişdir.

Mən sənə tapşırıq verirəm ki, Qəbələ şəhərinin küçələrinin birinə general Polad Həşimovun adı verilsin. Mən mərhum generalın anası ilə danışmışam, ona başsağlığı vermişəm. Onun Vəndam kəndində, Qəbələ rayonunda yaşayan qohumlarına xüsusi diqqət göstərilməlidir. Bilirəm ki, diqqət göstərirsiniz. Daim diqqət mərkəzində olmalıdır. Onun yaxınları, övladları dövlət tərəfindən qayğı ilə əhatə olunur. Müdafiə nazirinə və digər aidiyyəti qurumların rəhbərlərinə müvafiq göstərişlər verilmişdir. General uzun müddət Sumqayıtda yaşamışdır və buna görə Sumqayıtın icra başçısına da göstəriş verilib. Siz də burada general Həşimovun adının əbədiləşdirilməsi ilə əlaqədar müvafiq addımlar atmalısınız.

## Qəbələdə modul tipli xəstəxana istifadəyə verilib





Koronavirus pandemiyasının qarşısının alınması məqsədilə ölkəmizdə həyata keçirilən qabaqlayıcı tədbirlər çərçivəsində Qəbələdə də modul tipli xəstəxana kompleksi quraşdırılıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Qəbələyə səfəri çərçivəsində kompleksdə yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, digər analoji səhiyyə müəssisələri kimi, burada da orta ağırlıqlı simptomları olan infeksion koronavirus xəstələrinin qəbulu və müalicəsi aparılacaq. Kompleks 3 korpus, 100 palata və 200 çarpayı yerindən ibarətdir.

# Olimpiya hərəkatının lideri

## İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən 23 il keçir





*Əvvəli 1-ci səh.*

Doğrudur, ötən əsrin 90-cı illərinin əvvəllərində, xaos və anarxiya dövründə idmançılarımız iştirak hüququ qazandıqları yarışlara belə vəsait çatışmazlığından qatıla bilmirdilər.

1992-1997-ci illərdə Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) fəaliyyəti heç də istənilən səviyyədə deyildi və qənaətbəxş sayıla bilməzdi. Çünki bu sahədə fəaliyyət planı lazımi səviyyədə qurulmamışdı.

Həmin dövrdə MOK qarşıda duran ümdə vəzifələrin həyata keçirilməsi üçün kənarda qalmamalı, aparıcı rol oynamalı idi. Təəssüf ki, MOK belə bir mövqe tuta bilmədi, ümumən MOK-un fəaliyyətinin ilk beşilliyi dövründə Milli Olimpiya Hərəkatında durğunluq hökm sürürdü. Belə bir vəziyyət isə ölkə rəhbərliyini, idman ictimaiyyətini qane etmirdi. Çünki Olimpiya oyunlarında yüksək nəticələr göstərmək lazım idi.

MOK-un 1997-ci il iyulun 31-də keçirilmiş növbəti Baş Məclisində bütün məsələlərin müzakirəsi zamanı bəlli oldu ki, istedadlı idmançılarımızın, məşqçi və mütəxəssislərimizin bir qismi ölkədən gedib, idmançıların məşq və yarışlarda iştirakı, onların sosial vəziyyəti acınacaqlı haldadır. MOK-un nəinki beynəlxalq idman qurumları ilə, hətta ölkənin idman təşkilatları ilə əlaqəsi yox idi.

Belə bir vəziyyətlə barışmayan Baş Məclis MOK İcraiyyə Komitəsinin yeni tərkibini seçdi. Səsvermə nəticəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyev MOK-un prezidenti seçildi. Elə ilk günlər göstərdi ki, MOK çox düzgün və qətiyyətli bir addım atıb. Komitə, ilk növbədə, mövcud durumu düzgün qiymətləndirməklə idmanımızı dirçəltməyin yollarını dəqiq müəyyənləşdirib hərəkətə keçməyə başladı. Olimpiya Hərəkatının real vəziyyəti öyrənildi, mövcud problemlər aşkara çıxarılaraq araşdırıldı. Cənab İlham Əliyevin rəhbərliyi altında Milli Olimpiya Komitəsinin görməli olduğu işlər həddən artıq çox idi. Bunların sırasında beynəlxalq əlaqələrin qurulması və genişləndirilməsi olduqca vacib rol oynayırdı. Qarşıya çıxan bütün problemləri bacarıqla həll edən İlham Əliyev Olimpiya Hərəkatının məqsəd və vəzifələrini, fəaliyyət sisteminin ardıcıl istiqamətini müəyyənləşdirdi. Beləliklə, İlham Əliyevin MOK-un prezidenti seçilməsindən sonra ölkədə bədən tərbiyəsi və idman geniş vüsət aldı, respublikamız beynəlxalq Olimpiya hərəkatına qoşuldu, bu sahədə sistemli şəkildə işlər görüldü.

### Son 20 ildə 46 Olimpiya idman kompleksi

MOK-un fəaliyyətində canlanma təkcə olimpizmin təbliği, idmançılarımızın olimpiadalarda iştirakını təmin etməklə bitmədi, həm də maddi-texniki bazanın gücləndirilməsi sahəsini əhatə etdi. Ölkədə idmanın sürətli inkişafını təmin etmək və onun perspektivlərini genişləndirmək məqsədilə mövcud maddi-texniki bazanın vəziyyətində dönüşün əsası qoyuldu.

MOK 1999-cu ildən öz obyektlərinin tikintisinə başladı və artıq 2000-ci ilin oktyabrında Bakıda ilk Olimpiya kompleksinin açılış mərasimi oldu. Paytaxtdan başlayan quruculuq bölgələrə doğru istiqamətləndi. Bölgələrdə Olimpiya idman komplekslərinin tikilib istifadəyə verilməsi idman hərəkatının tərəqqisi üçün çox önəmli rol oynayır.

Bütövlükdə 2000-ci ildən indiyədək ölkədə 46 olimpiya idman kompleksi, həmçinin ixtisaslaşmış idman qurğuları tikilib istifadəyə verilib, mövcud idman obyektləri yenidən qurulub. İndi, demək olar ki, respublikamızın bütün bölgələrində Olimpiya kompleksləri fəaliyyət göstərir. Azərbaycanın ucqar rayonlarında müxtəlif idman növləri ilə məşğul olmaq üçün mövcud şərait var.

Fərəhli haldır ki, respublikamız hazırda Avropada ən böyük idman qurğularına sahibdir. Belə ki, 2015-ci və 2017-ci illərdə paytaxtımızda təşkil olunan Avropa və İslam Həmrəyliyi Oyunlarında bir-birindən möhtəşəm yarışlara evsahibliyi edən 18 arena (Bakı Olimpiya Stadionu, Bakı Su İdmanı Sarayı, Milli Gimnastika Arenası, Bakı Atıcılıq Mərkəzi, Heydər Əliyev adına İdman Sarayı, Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı İdman Sarayı, Baku Crystal Hall, Mingəçevir "Kür" Olimpiya Tədris İdman Mərkəzi, BMX Veloparkı, Su Polosu Arenası, Çimərlik Arenası, Basketbol Arenası, Dağ Velosipedi Veloparkı, Bilgəh çimərliyi) maraqlı idman mübarizələrinin şahidi oldu.

### 6 olimpiada, 44 medal

İlham Əliyevin MOK-un prezidenti seçilməsindən cəmi 3 il sonra - 2000-ci ildə Azərbaycan idmançıları Sidneydə keçirilən Yay Olimpiya Oyunlarında çıxış etdilər və çox möhtəşəm tarixi bir zəfərə imza atdılar. 199 ölkənin qatıldığı XXVII Yay Olimpiya Oyunlarında Azərbaycan müstəqil dövlət kimi ikinci dəfə iştirak edirdi. Ölkəmiz Sidneydə 31 idmançı ilə təmsil olunurdu. Azərbaycan idmançıları cüdo, üzgüçülük, atıcılıq, boks, yüngül atletika, ağırlıqqaldırma, sutyatullanma və güləş yarışlarında güclərini sınayırdılar. Atletlərimiz cüdo, boks, güləş, atıcılıq yarışlarında uğurlu nəticələr göstərdilər. Azərbaycan komandasına ilk medalı qadınlar arasında stend atıcılığı yarışlarında Zemfira Meftahəddinova qazandırdı. Onun çıxış etdiyi idman növü ilk dəfə olaraq Olimpiya oyunlarının proqramına daxil edilmişdi. Zemfira bu növdə iki Olimpiya rekordu müəyyən etdi.



Ölkəmizə ikinci qızıl medalı 1996-cı ildə təşkil edilən Atlanta olimpiadasının gümüş mükafatçısı, güləşçi Namiq Abdullayev gətirdi. "Sidney-2000"də Azərbaycan boksunun salnaməsinə də ilk Olimpiya medalı yazıldı. 19 yaşlı gənc boksçu Vüqar Ələkbərov bürünc medala sahib oldu. İki qızıl və bir bürünc medal qazanan Azərbaycan medal alan ölkələr arasında 34-cü yeri, Avropa ölkələri arasında isə 23-cü yeri tutdu. Azərbaycan idmanı Sidney sınağından uğurla çıxdı.

"Afina-2004" Olimpiya Oyunları Azərbaycan idmanının yeni şanlı səhifəsini yazdı. 21-ci minilliyin ilk Olimpiya oyunlarında 12 idman növündə 38 idmançı ilə təmsil olunan Azərbaycan milli komandası bu möhtəşəm yarışdan vətənə 1 qızıl, 4 bürünc medalla qayıtdı. Bu oyunlarda BOK-un üzvü olan 204 ölkədən 202-si iştirak edirdi. Yunan-Roma güləşi üzrə 66 kq çəki dərəcəsində 22 yaşlı Fərid Mansurov fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq qızıl, atıcılıq üzrə yarışlarda kiçik çaplı tapançadan 25 metr məsafəyə atəş açmada İradə Aşumova və stend atıcılığı üzrə təmsilçimiz, "Sidney-2000" Olimpiadasının qızıl mükafatçısı Zemfira Meftahəddinova Azərbaycan yığmasının hesabına iki bürünc medal yazdırdılar. Afinada yarımfinala yüksələn ilk Azərbaycan boksçusu Ağası Məmmədovun çəki problemi onu bürünc medalla kifayətlənməyə məcbur etdi. Ölkəmizin aktivinə yazılan 4 bürünc medaldan biri isə digər boksçumuz Fuad Aslanovun payına düşdü.

XXIX Pekin Yay Olimpiya Oyunlarında ölkəmiz 12 idman növündə 44 atletlə təmsil olunurdu. Bu yarışda təmsilçilərimiz digər Olimpiya oyunlarından həm idmançıların, həm də qazanılan medalların sayına görə fərqlənirdi. Komandamız Olimpiya oyunlarında ilk dəfə olaraq, hər üç əyarda medallar qazandılar.

Ölkəmizə Olimpiya qızılını cüdoçumuz Elnur Məmmədli (73 kq) qazandırdı. Gümüş medalları yunan-Roma güləşində Rövşən Bayramovla (55 kq) və Vitali Rəhimov (60 kq) qazandılar. Sərbəst güləşçimiz Xetaq Qazyumov (96 kq), qadın güləşində Mariya Stadnik (48 kq), boksda Şahin İmranov (57 kq) və cüdoda Mövlud Mirəliyev (100 kq) bürünc medala layiq görüldülər. Beləliklə, Pekində keçirilən XXIX Yay Olimpiya Oyunlarında Azərbaycan yığması 7 medalla (1 qızıl, 2 gümüş, 4 bürünc) 204 ölkə arasında medalların sayına görə 27-ci, medalların növünə görə isə 39-cu yeri tutdu.

* * *

London Olimpiya Oyunlarında Azərbaycan idmançıları 10 medal qazandılar. Bununla da 204 ölkə arasında 30-cu yerdə qərar tutan ölkəmiz medalların ümumi sayına görə 25-ci sırada yer tutdu. İki qızıl, iki gümüş və altı bürünc əldə edən idmançılarımız bu göstərici ilə Avropa ölkələri arasında 15-ci, MDB-də isə 5-ci yerdə idi.

Londonda Toğrul Əsgərov və Şərif Şərifov qızıl, Rövşən Bayramov və Mariya Stadnik gümüş medalın sahibi oldular. Digər üç güləşçimiz - Emin Əhmədov, Yuliya Ratkeviç və Xetaq Qazyumov isə mübarizələrini bürünc medalla başa vurdular. Digər üç bürünc medalı isə ağırlıqqaldıran Valentin Xristov və boksçularımız Teymur Məmmədovla Məhəmmədrəsul Məcidov qazandılar.

2016-cı ildə Braziliyanın Rio-de-Janeyro şəhərində təşkil edilən XXXI Yay Olimpiya Oyunlarına Azərbaycan 56 idmançı ilə qatıldı. İlk dəfə rekord sayda - 18 medal (1 qızıl, 7 gümüş, 10 bürünc) qazanıldı. Dünyanın 207 ölkəsindən 11 mindən çox idmançının iştirak etdiyi turnirə respublikamız 56 idmançı ilə qatılmışdı. Azərbaycan medal sayına görə 87 mükafatçı dövlət arasında 15-ci yeri tutaraq İslam, türk və Qafqaz ölkələri arasında lider oldu.

Pəhləvanlarımız bu dəfə də 9 medal qazandılar. Güləş yığmamızın aktivinə 3 gümüş medalı Mariya Stadnik, Toğrul Əsgərov və Xetaq Qazyumov əlavə etdilər. Digər 6 güləşçimiz - Cəbrayıl Həsənov, Rəsul Çunayev, Nataliya Sinişin, Sabah Şəriəti, Şərif Şərifov və Hacı Əliyev isə çıxışlarını bürünc medalla başa vurdular. Cüdoçular bu dəfə etimadı doğrultdular. Rüstəm Orucov və Elmar Qasımov 4 illiyin zirvə yarışını gümüş medalla başa vurdular.

Tarixində ilk dəfə Olimpiya oyunlarında mükafat qazanan taekvondo üzrə Azərbaycan millisi "Rio-2016"da ən yaxşılardan biri oldu. Braziliyaya 4 idmançı ilə yollanan yığmamız okeanın o tayında 3 medal əldə etdi. Radik İsayev Azərbaycanın yeganə qızıl medalının sahibi oldu. Milad Beiqi Harçeqani və Patimat Abakarova bürünc medal qazandıqlarına sevindilər.

Boksçulardan Sotomayor Lorenzo gümüş, Kamran Şahsuvarlı bürünc medala sahib oldular. Ölkəmizin hesabına daha bir gümüş medalı avarçəkmə yarışlarında Valentin Demyanenko, bürüncü isə İnna Osipenko-Rodomskaya əlavə etdi.

### "Bakı-2015"dən "Bakı-2019"dək

Son 5 ilə nəzər yetirdikdə isə ən böyük idman hadisələrindən biri sözsüz ki, tarixdə ilk dəfə təşkil olunan Avropa Oyunlarının 2015-ci ildə Bakıda keçirilməsi idi. Ölkəmiz 2 il davam etdirilən yüksəksəviyyəli hazırlıq işlərindən sonra Avropanın 50 ölkəsindən 6 mindən çox idmançının mübarizə apardığı bu idman yarışını layiqincə təşkil etməklə tək özünün deyil, "köhnə qitə"nin idman tarixinə möhürünü vurdu. Çünki indiyədək yalnız Avropa ölkələrinin təmsil olunduğu bu cür möhtəşəm idman yarışması keçirilməmişdi.

Nümunəvi və qüsursuz təşkilatçılığı, möhtəşəm açılış və bağlanış mərasimləri ilə yadda qalan I Avropa Oyunları keçirildiyi günlərdə (12-28 iyun) dünyanın əsas idman hadisəsinə çevrildi. 21-i qızıl, 15-i gümüş və 20-si bürünc olmaqla qazandığı 56 medalla Azərbaycan I Avropa Oyunlarının ikincisi oldu.

2017-ci il mayın 12-22-də isə Azərbaycan daha bir nüfuzlu tədbirə - sayca IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi etdi. Həmin ərəfədə milyonlarla insanın qəlbi Azərbaycanda döyündü. İslamiadanın ölkəmizdə keçirilməsi haqqında qərarın qəbul edilməsi bir daha göstərdi ki, Azərbaycan dünyanın qabaqcıl idman ölkələri sırasında öz layiqli yerini tutmaqdadır. Eyni zamanda bu hadisə Azərbaycanda həyata keçirilən idman siyasətinin uğurlarından xəbər verirdi. Yarış günlərində paytaxtımız müsəlman aləminin idman mərkəzinə çevrildi. 54 ölkədən 3000-dən çox idmançının iştirak etdiyi yarışlarda Azərbaycan atletləri 75-i qızıl, 50-si gümüş, 37-si bürünc olmaqla 162 medal qazanaraq 1-ci yeri tutdular.

2019-cu ilin yaddaqalan idman hadisələrindən biri də sözsüz ki, Belarusun paytaxtı Minskdə təşkil olunan II Avropa Oyunları idi. Azərbaycan 5-i qızıl, 10-u gümüş, 13-ü bürünc olmaqla 28 medal qazanaraq 50 ölkə arasında ilk onluqda yer tutdu.

Ötən İlin iyul ayında isə paytaxtımızda XV Avropa Gənclər Olimpiya Festivalına yekun vuruldu. Bir həftə davam edən yarışlarda 48 ölkəni təmsil edən 3600-dən çox idmançı qalib adı uğrunda mübarizə apardı. Azərbaycan 10-u qızıl, 7-si gümüş, 6-sı bürünc olmaqla 23 medal qazanaraq iştirakçı dövlətlər arasında 4-cü yeri tutdu.

### Mötəbər turnirlərin dəyişilməz ünvanı

2019-cu ildə paytaxtımızda bir sıra nüfuzlu turnirlər təşkil edilib. Onların içərisində "Formula-1" üzrə qran-pri yarışları xüsusi yer tutur. Aprelin 26-28-də Bakı planetin birnömrəli avtomobil yarışına 4-cü dəfə evsahibliyi etdi. "Formula-1" dünya çempionatının 4-cü mərhələsi olan SOCAR Azərbaycan qran-prisində ən məşhur 20 pilot 10 komandanın tərkibində 6 kilometr məsafədən ibarət 51 dövrəlik mərhələnin qalibi uğrunda yarışdı. Maraqlı və gərgin keçən yarışın yekununda "Mercedes" komandasının üzvü Valtteri Bottas 1 saat 31 dəqiqə 52,942 saniyəlik nəticə ilə "Formula-1" SOCAR Azərbaycan qran-prisinin qalibi oldu. İkinci yeri "Mercedes" komandasının digər üzvü Lyuis Hamilton, üçüncü yeri isə "Ferrari" komandasının sürücüsü Sebastyan Fettel tutdular.

Ötən il mayın 29-da isə Bakı Avropa futbolunun böyük həyəcanla gözlədiyi qitənin nüfuzlu klub turnirlərindən olan UEFA Avropa Liqasının finalına evsahibliyi etdi. Bakı Olimpiya Stadionunda keçirilmiş həlledici matçda İngiltərənin "Çelsi" və "Arsenal" komandaları üz-üzə gəldilər. London derbisində 4:1 hesabı ilə qələbə qazanan "Çelsi" UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün qalibi oldu.

Final oyununu tələb olunan səviyyədə keçirmək üçün yerli təşkilat komitəsi nəzərdə tutulan bütün işləri vaxtlı-vaxtında icra etmiş, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmişdi. Ölkəmizə gəlmiş azarkeşlər həlledici matçın ən müasir arenada keçirildiyini qeyd etməklə yanaşı, Azərbaycan xalqının səmimiliyinə və qonaqpərvərliyinə, Bakının və bütövlükdə, ölkənin sürətli inkişafına heyran qaldıqlarını bildirdilər.

**Elçin CƏFƏROV,**
**"Azərbaycan"**

# Xarici İşlər naziri Ceyhun Bayramov ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberqer ilə görüşüb



İyulun 30-da Xarici İşlər naziri Ceyhun Bayramov Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı səfiri Örl Litzenberqer ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər ölkələr arasında bir çox sahələrdə mövcud olan geniş əməkdaşlıq münasibətlərini, o cümlədən enerji sahəsində əməkdaşlıq, Azərbaycan-ABŞ İqtisadi Tərəfdaşlıq Komissiyasının fəaliyyəti, qlobal təhlükəsizlik məsələlərində əməkdaşlıq, COVID-19 epidemiyası ilə mübarizədə həmrəylik və digər məsələləri müzakirə ediblər.

Nazir Ceyhun Bayramov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, o cümlədən Azərbaycan-Ermənistan beynəlxalq sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələri tərəfindən törədilən sonuncu hərbi təxribat, Ermənistanın əvvəlcədən planlaşdırılmış bu təcavüz aktı ilə güddüyü məqsədləri, habelə təxribat zamanı azərbaycanlı mülki şəxslərin və infrastrukturların məqsədli şəkildə hədəfə çevrilməsi və bir nəfər mülki şəxsin öldürülməsi faktını qarşı tərəfin diqqətinə çatdırıb. Azərbaycanın münaqişənin həlli üzrə danışıqların davam etdirilməsinin tərəfdarı olduğunu, lakin bu danışıqların imitasiya yox, mahiyyət üzrə aparılan real danışıqlar olmasının zəruriliyi vurğulanıb. Səfir Örl Litzenberqer Xarici İşlər naziri təyinatı ilə əlaqədar Ceyhun Bayramova təbriklərini çatdırıb və yeni vəzifəsində ona uğurlar arzulayıb. Səfir fürsətdən istifadə edərək Qurban bayramı münasibətilə də təbriklərini bildirib.

Azərbaycanın ABŞ üçün mühüm tərəfdaş ölkəsi olduğu və tərəflərin bir sıra qarşılıqlı maraqları bölüşdüyü qeyd olunub.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Almaniya arasında əməkdaşlıq əlaqələri bundan sonra da inkişaf etdiriləcək

İyulun 30-da Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov Almaniya Federativ Respublikasının ölkəmizdəki səfiri Volfqanq Maniq ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər Azərbaycan və Almaniya arasında mövcud olan əməkdaşlıq münasibətlərinin bir sıra sahələr, o cümlədən iqtisadi, ticarət, humanitar, mədəniyyət və digər istiqamətlər üzrə inkişafına dair fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov Azərbaycan, eləcə də bölgədə təhlükəsizliyə hədə olan Ermənistanın işğalçılıq siyasəti, iki dövlətin beynəlxalq sərhədində Ermənistan silahlı qüvvələri tərəfindən törədilən sonuncu hərbi təxribatı, eləcə də bölgədəki cari vəziyyət barədə qarşı tərəfi məlumatlandırıb. Ermənistanın rəhbərliyinin ziddiyyətli bəyanat və əməllərinin, eləcə də sonuncu planlaşdırılmış təxribatın münaqişənin həlli üzrə aparılan danışıqlara zərbə olduğu qeyd edilib. Azərbaycanın mahiyyət üzrə və nəticəyə yönəlik danışıqları dəstəklədiyini vurğulayan nazir, Azərbaycanın ərazilərinin işğalı ilə heç zaman barışmayacağını və danışıqların məhz işğalın nəticələrinin aradan qaldırılmasına xidmət etməli olduğunu bildirib.

Səfir Volfqanq Maniq səmimi qəbula görə təşəkkürünü ifadə edərək, Almaniya Xarici İşlər naziri Hayko Maasın Ceyhun Bayramova ünvanladığı təbrik məktubunu təqdim edib. İki ölkə arasında müxtəlif sahələrdə mövcud əməkdaşlıq əlaqələrinin bundan sonra da inkişaf edəcəyindən əminlik ifadə olunub.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparıblar.

# Azərbaycan gəncliyi ölkənin maraqlarını qorumağa qadirdir

*“Azərbaycan dünyanın ən sabit və təhlükəsiz ölkələrindən biridir. Bu fakt bir çox beynəlxalq hesabatlarda da yer alıb. Təbii ki, ölkədə daxili sabitliyin mövcudluğu, onun qorunub saxlanılması Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasətin nəticəsidir.*

*Hüquq-mühafizə orqanlarının bu istiqamətdə fəaliyyəti böyük əhəmiyyət daşıyır. Bu gün Azərbaycan polisi ölkədə ictimai qaydanın və təhlükəsizliyin qorunması, cinayətkarlıqla mübarizə sahəsində uğurlu xidmət aparır. Lakin təəssüflər olsun ki, bəzi qüvvələr hər vasitə ilə polisin fəaliyyətini ləkələməyə çalışırlar.*

*Burada diqqəti bir məsələyə yönəltmək istəyirəm. Bu gün bir sıra ölkələrdə polis zorakılığı ilə müşayiət olunan hadisələri müxtəlif beynəlxalq və yerli xəbər saytlarında, sosial şəbəkələrdə izləyirik və şahidi oluruq”.*

Bu fikirləri Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor Hicran Hüseynova AZƏRTAC-a açıqlamasında söyləyib.

Deputat xatırladıb ki, ötən gün ABŞ-ın “New York Times” qəzetində Nyu York şəhərində nümayişdə iştirak edən insanların şəhərin mülki geyimdə olan polis qüvvələri tərəfindən naməlum maşınlara güclə oturdularaq qeyri-müəyyən istiqamətə aparılması ilə bağlı tənqidi məqalə dərc olunub.

Bundan öncə ABŞ-da qaradərili Corc Floydun polis tərəfindən zorakılığa məruz qalması onun ölümü ilə nəticələndi. Bu, Amerikada əsasən qaradərili icmaların narazılığına səbəb oldu və kütləvi nümayişlər başladı.

“New York Times” qəzetində dərc edilmiş digər bir məqalə də polisin açdığı atəş nəticəsində ölən afroamerikalı qadın Breonna Teylorla bağlı olub. Polisin evə zorakılıqla daxil olması və nəticədə evdə yaşayan qadının öldürülməsi insanlarda yenidən qıcıq yaradıb.

Maraqlı və diqqətçəkən məqam ondan ibarətdir ki, Azərbaycanda hər dəfə özünü müxalifət adlandıran bəzi antimilli qüvvələr Bakıda icazəsiz aksiya keçirərək təxribat törətməyə cəhd edirlər. Onların təxribatlarının qarşısı hüquq-mühafizə orqanları tərəfindən dərhal alınır. Belə olan halda öz vəzifə borclarını yerinə yetirən, qanun çərçivəsində fəaliyyət göstərən hüquq-mühafizə orqanlarımız ABŞ-da Azərbaycanı sevməyən və onu hər vasitə ilə pisləməyə çalışan qüvvələr tərəfindən pis yöndə təqdim edilməyə çalışılır. Həmin qüvvələrin nəzarətində olan kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları Azərbaycan hakimiyyətini tənqid edir, yalan informasiyalar yayırlar. Ancaq nədənsə vəziyyətin heç də yaxşı olmadığı ABŞ-da bu haqda danışmaqdan çəkinirlər. Biz onların hansı məqsədlərə xidmət etdiklərini yaxşı bilirik.

Ötən həftə Los-Ancelesdə həmvətənlərimizə qarşı erməni təxribatının qarşısının alınmasında ABŞ polisinin qətiyyətli addım atmaq istəmədiyini də gördük. Biz hazırda bu cür ədalətsizliklə mübarizə aparmalıyıq, bu halları tənqid etməliyik. Bu işdə gənclər aktiv olmalı, ölkəmizə qarşı aparılan çirkin kampaniyalara, yalan informasiyalara reaksiya verməlidirlər, ölkənin maraqlarını qorumalıdırılar.

Son hadisələrlə bağlı erməni təxribatlarına qarşı xaricdə yaşayan həmvətənlərimizin birliyi bizi qürurlandırdı. Biz Vətənimiz, onun müstəqilliyi və bütövlüyü üçün bunu daha da gücləndirməli, davam etdirməliyik.

H.Hüseynova qeyd edib ki, respublikanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Ermənistanın Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribatlarla bağlı xalqımıza etdiyi müraciət mühüm əhəmiyyət daşıyır. Mehriban xanımın bir vətəndaş, ana, bir dost kimi xalqımıza çağırışı, istər ölkə daxilində, istərsə də ölkədən kənarda yaşayan hər bir vətəndaşımızın qarşısında öhdəlik və məsuliyyət hissi yaradır. Bilməliyik ki, ölkəmizin, Vətənimizin maraqları hər şeydən öndədir. Biz yoxlanılmamış xəbərlərə, sosial şəbəkələrdə yer alan məlumatlara inanmamalı və onların yayılmasına imkan yaratmamalıyıq.

# RF XİN: “Rusiya Cənubi Qafqazda vəziyyəti diqqətlə izləyir”

Rusiya Cənubi Qafqazda vəziyyəti diqqətlə izləyir. AZƏRTAC xəbər verir ki, Rusiya Xarici İşlər Nazirliyinin İnformasiya və Mətbuat Departamenti rəhbərinin müavini Aleksey Zaytsev bu fikri Moskvada brifinqdə söyləyib.

A.Zaytsev TASS agentliyinin Azərbaycanın Türkiyə ilə birgə, o cümlədən Ermənistanla sərhəddə hərbi təlimlər keçirmək niyyəti barədə sualı cavablandıraraq vurğulayıb ki, Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlıq barədə sazişə uyğun olaraq, iyulun 29-dan avqustun 10-dək Azərbaycan ərazisində əvvəlcədən planlaşdırılmış birgə təlimlər keçirilir.

RF XİN-in rəsmi nümayəndəsi deyib: “Təbii ki, xüsusən bu günlərdə Ermənistan-Azərbaycan sərhədində baş vermiş münaqişə nəzərə alınmaqla regionda vəziyyəti çox diqqətlə izləyirik və bütün tərəfləri, o cümlədən onların cari hərbi fəaliyyətində təmkinli olmağa təkidlə çağırırıq”.

# Qafqaz Müsəlmanları İdarəsinin sədri şəhid generalın ailəsi ilə görüşüb





Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Ordusunun şəhid general-mayoru Polad Həşimovun doğulub boya-başa çatdığı Qəbələ rayonunun Vəndam kəndində olub.

İdarənin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, şəhidin ata ocağını ziyarət edən Allahşükür Paşazadə xalqımızın qəhrəman oğlu Polad Həşimovun əziz xatirəsini anmaq üçün məhz bu günü - müqəddəs Qurban bayramının Ərəfə gününü seçdiyini xüsusi vurğulayıb. QMİ sədri bildirib ki, əzəmətli Ərəfə günü Həcc ziyarəti zamanı xüsusi önəm kəsb edən mübarək zamandır. Builki Ərəfəni qəhrəman şəhid ocağında keçirərək şəhidimizin mübarək ruhunu yad etməkdən şərəf və qürur duyduğunu qeyd edən Şeyxülislam Allahşükür Paşazadə Vətəni sevməyin imandan olduğunu xatırladıb. Bildirib ki, Vətən torpağı uğrunda şəhid olanlar, Peyğəmbər Məhəmməd Səlavatullahın mübarək hədisində buyurulduğu kimi, Allah yanında imanın, mənəviyyatın ən yüksək məqamına yüksəlmişlər.

Şeyxülislam Allahşükür Paşazadə haqq işimiz uğrunda mübarizədə canını fəda etmiş general-mayor Polad Həşimovun atasına və övladlarına başsağlığı verib, II Fəxri xiyabanda uyuyan qəhrəman hərbçimizin məzarını ziyarət etdiyini, onun ruhuna dualar oxuduğunu bildirib. Qeyd edib ki, düşmənin sərhədlərimizdə törətdiyi son məkrli təxribat zamanı qəhrəman zabit və əsgərlərimiz şəhid olub, dinc sakin qətlə yetirilib. QMİ sədri Vətən uğrunda canlarından keçən bütün şəhidlərimizi yad edib, Tovuz rayonu istiqamətində düşmən təxribatı zamanı şəhid olmuş 12 hərbçimizin xatirəsini anıb, Allahdan onlara rəhmət diləyib.

QMİ sədrinin birinci müavini Müfti Salman Musayev şəhidlərimizin ruhuna dualar oxuyub.

Şəhidin ailəsi ilə səmimi söhbət edən Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan xalqının qəhrəman oğulları ilə fəxr etdiyini, onların xatirəsini əziz tutduğunu və qanlarının yerdə qalmaması üçün mübarizəyə hər zaman hazır olduğunu vurğulayıb. QMİ sədri əmin olduğunu bildirib ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müdrik dövlətçilik xətti və qətiyyətli siyasi iradəsi sayəsində, inşallah, ölkəmizin ərazi bütövlüyü təmin olunacaq, düşmən layiqli cəzasını alacaq, şəhidlərimizin qanı ilə suvarılmış Vətən torpağı işğaldan azad olunacaq və biz bütün bayramlarımızı könül xoşluğu ilə qeyd edəcəyik. QMİ sədri Azərbaycan Prezidentinin Qəbələyə səfəri zamanı şəhid general Polad Həşimovun adının əbədiləşdirilməsi ilə bağlı qərarını yüksək dəyərləndirib. Bildirib ki, bu, Azərbaycan xalqının öz qəhrəman övladlarına verdiyi dəyərin təzahürü olaraq gənc nəslin vətənpərvərlik ruhunu dərinləşdirən məqamlardandır.

Ziyarətdə iştirak edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Milli Məclisin deputatı Cavanşir Paşazadə iyulun 12-də erməni quldurlarının Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdikləri hərbi təxribat zamanı şəhid olan Azərbaycan Ordusunun qəhrəman zabit və əsgərlərinin ruhlarını ehtiramla anıblar, general Polad Həşimovun ailə üzvlərinə, yaxınlarına dərin hüznlə başsağlığı veriblər. Komitə sədri çıxışında Azərbaycan Prezidentinin ərazi bütövlüyümüzün təmini, haqq işimizin qələbəsi yönündə yorulmaz fəaliyyəti barədə məlumat verib, Azərbaycan dövlətinin şəhid ailələrini hər zaman diqqət və qayğı ilə əhatə etdiyini, onların xatirəsini əbədiləşdirmək, qanlarının yerdə qalmaması üçün lazım olan bütün addımları atdığını vurğulayıb.

Şəhid generalın ailəsi ilə görüşdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev və rayon ictimaiyyətinin nümayəndələri, ağsaqqallar iştirak ediblər.

Şəhid Polad Həşimovun ailəsi Şeyxülislam Allahşükür Paşazadəyə və onunla bərabər təşrif buyuran bütün şəxslərə dərin minnətdarlıqlarını ifadə ediblər.

# Say 10-a çatdı

## Modul tipli xəstəxanaların istifadəyə verilməsi koronavirusla mübarizədə mühüm əhəmiyyət kəsb edir

*Əvvəli 1-ci səh.*



Əksər ölkələr kimi, Azərbaycan da bu mübarizə üsulundan istifadə edərək COVID-19 pandemiyası ilə savaş aparır. Ölkəmiz ilk gündən gözəgörünməz düşmənlə mübarizədə sayıqlığı əldən vermədi. Virus hələ ölkəmizin sərhədlərinə yaxınlaşmazdan öncə Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq pandemiyanın qarşısının alınması üçün qətiyyətli və çevik addımlara start verildi.

Ölkəmizdə qlobal böhranın aradan qaldırılması istiqamətində müxtəlif sahələrdə görülən tədbirlərin nəticəsində bu gün virusla mübarizədə müsbət dinamika müşahidə olunmaqdadır.

Dövlətin bu istiqamətdə atdığı mühüm addımlar infeksiyanın nəzarət altında saxlanmasına, əhalinin təhlükəsizliyinin və sağlamlığının etibarlı təmininə yönəlib.

### Daha dörd modul tipli xəstəxananın açılışı oldu

Azərbaycan dövlətinin koronavirus pandemiyası ilə mübarizə çərçivəsində atdığı addımlar sırasında modul tipli xəstəxanaların yaradılması olduqca mühüm əhəmiyyət kəsb edir. Bu səhiyyə ocaqlarının istifadəyə verilməsi koronavirusa yoluxanların lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetmə və tibbi əlaqələndirmənin təmin edilməsində böyük rol oynayır. Modul tipli xəstəxanaların quraşdırılması ilə ölkənin səhiyyə sisteminin əlavə 2000 çarpayı ehtiyatı yaranır. Bu da koronaviruslu xəstələrin müalicəsi istiqamətində səhiyyənin imkanlarını daha da genişləndirir.

Dövlət başçısının müvafiq tapşırıqlarına əsasən, pandemiyanın qarşısının alınması, əhalinin sağlamlığının qorunması məqsədilə həyata keçirilən önləyici kompleks tədbirlər çərçivəsində ölkə ərazisində ümumilikdə 10 modul tipli xəstəxana kompleksinin quraşdırılmasına başlanılıb ki, onlardan da bir neçəsi artıq istifadəyə verilib.

İyulun 29-da isə daha dörd modul tipli xəstəxananın açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qobustanda, İsmayıllı, Qəbələ və Şəkidə inşası başa çatmış modul tipli xəstəxanaların açılışında iştirak edib, orada yaradılan şəraitlə tanış olub.

Dövlət başçısına Qobustanda və İsmayıllıdakı modul tipli xəstəxanada yaradılan şərait barədə məlumat verilərkən bildirilib ki, üç korpusdan ibarət, 100 palatası və 200 çarpayı yeri olan bu xəstəxana kompleksləri mərkəzləşdirilmiş Oksigen Generator Sistemi ilə, həmçinin mərkəzləşdirilmiş havalandırma sistemi ilə təchiz edilib. Burada orta ağırlıqlı simptomları olan infeksion koronavirus xəstələrinin qəbulu və müalicəsi üçün zəruri şərait yaradılıb. Ağır simptomları olan xəstələrin qəbulu üçün əlavə avadanlıqlarla təchiz edilməklə müvafiq təkmilləşdirilmə işləri görülür.

Bu korpuslar zərurət olmadıqda - yəni pandemiya ilə mübarizə başa çatdıqdan sonra asanlıqla digər sahələrə köçürülə və başqa məqsədlər üçün - məsələn, hərbi hissələr, sərhəd xidməti, tədris və ya fövqəladə hallar, yataq, məişət xidməti və sair üçün istifadə edilə bilər.

Şəkidə koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli xəstəxana da 100 palatadan və 200 çarpayı yerindən ibarətdir. Prezident İlham Əliyev xəstəxana ilə tanışlıqdan sonra həkimlərlə görüşüb. Dövlət başçısı modul tipli xəstəxanaların istifadəyə verilməsinin koronavirusla mübarizədə əhəmiyyətindən danışıb, görülən işlər nəticəsində ilk günlərdən ölkəmizdə xəstəliyin nəzarət altında saxlandığını vurğulayıb.

Prezident İlham Əliyev Qəbələyə səfəri çərçivəsində də modul tipli xəstəxananın açılışına qatılıb və kompleksdə yaradılan şəraitlə tanış olub. Məlumat verilib ki, digər analoji səhiyyə müəssisələri kimi, burada da orta ağırlıqlı simptomları olan infeksion koronavirus xəstələrinin qəbulu və müalicəsi aparılacaq.

### Türkiyənin tibb mütəxəssisləri Azərbaycandadır

Prezident İlham Əliyevin Nazirlər Kabineti yanında Operativ Qərargaha verdiyi göstərişə uyğun olaraq yeni növ koronavirus pandemiyasına qarşı mübarizə məqsədilə daha bir qrup tibb mütəxəssisi Azərbaycana dəvət edilib.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin təşkilatçılığı və Azərbaycan Beynəlxalq Bankının maliyyə dəstəyi ilə COVID-19 infeksiyasının geniş yayılmasının qarşısının alınması məqsədilə sözügedən sahədə çalışan qardaş Türkiyənin “Acıbadem” xəstəxanalar və tibb mərkəzləri qrupundan mütəxəssislər cəlb olunublar. Koronavirusla mübarizə sahəsində çalışmış və xəstəliyin müalicəsində geniş təcrübə qazanmış yüksəkixtisaslı həkim və tibb işçiləri “Yeni Klinika”da olacaq, xəstəliyin qarşısının alınması üçün yerli mütəxəssislərlə birgə müalicə və profilaktika sahəsində çalışacaqlar. Onlar koronavirusa yoluxan və ağır simptomları olan xəstələrin müalicəsində yerli mütəxəssislərə dəstək olacaqlar.

COVID-19 virusu haqqında bilik və təcrübənin artması üçün tibb işçiləri və əhalinin davamlı məlumatlandırılması xüsusi əhəmiyyət daşıyır. Müntəzəm olaraq həm əhalinin tibbi savadının artırılması, həm də həkimlər və orta tibb personalının peşəkar bacarıqlarının inkişaf etdirilməsi infeksiya ilə mübarizədə mühüm rol oynayır. Eyni zamanda COVID-19 pandemiyası zamanı infeksiyanın daha geniş yayılmasının qarşısını almaq məqsədilə bütün sahələrdə rəqəmsal texnologiyaların tətbiqi geniş vüsət almaqdadır. Bunu nəzərə alaraq Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən Azərbaycan Tibb Universitetinin, Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun birgə əməkdaşlığı və BMT-nin İnkişaf Proqramının dəstəyi ilə distant təhsil imkanlarını yaradıb, genişləndirmək üçün www.ecourses.az distant təlim kursları platforması yaradılaraq, istifadəyə verilib. Hazırda bu onlayn platformada 15-dən çox təlim kursu təklif edilir və onların 10-u birbaşa COVID-19 virusunun profilaktika, müayinə və müalicəsi ilə bağlıdır. Platforma müxtəlif ixtisaslar üzrə tibb işçiləri üçün distant sertifikatlı və sertifikatsız təlim kurslarına keçid təqdim edib, tibb işçilərinin koronavirusa aid biliklərinin artırılması üçün geniş imkanlar yaradıb.

### Sağalan xəstələrin sayı gündəlik yoluxma hallarını üstələyib

Ölkəmiz qlobal təhlükənin öz əhalisinə təsirini mümkün qədər minimuma endirmək üçün ən səmərəli tədbirlər həyata keçirir. Pandemiyadan minimum itkilərlə çıxmaq üçün bütün sahələr və qüvvələr COVID-19-a qarşı səfərbər edilib. Mərhələli şəkildə həyata keçirilən təsirli tədbirlər artıq öz bəhrəsini verməkdədir. Bu da məhdudiyyətlərin tətbiqinin, karantinin sərtləşdirilməsinin düzgün qərar olduğunu deməyə əsas verir. Son zamanlar virusla mübarizədə müsbət dinamika əldə olunub, yoluxma hallarının ikiqat artımının qarşısı alınıb, gündəlik yoluxma sayı sabitləşib, əvvəlki mənfi tendensiya aradan qalxıb. Sağalan xəstələrin sayı gündəlik yoluxma hallarını üstələyib. Aktiv koronavirus xəstələrinin sayı 6200-dən aşağı düşüb. Koronavirusla əlaqədar reanimasiya şöbəsində müalicə alan və süni tənəffüs cihazına qoşulan xəstələrin də sayı azalıb.

Koronavirus.info saytının məlumatına görə, iyunun ortalarından etibarən ən az yoluxma halı məhz 20-26 iyul tarixlərdə qeydə alınıb. Sağalanların sayına gəlincə, hazırkı dövrədək ən çox sağalma halı 13-19 iyul tarixlərdə olub. İyulun 13-dən 19-dək və iyulun 20-dən 26-dək olan həftələrdə sağalma halları yoluxma hallarını üstələyib. Hər iki həftə üzrə müvafiq olaraq 3480 yoluxma, 3874 sağalma və 2529 yoluxma, 3717 sağalma qeydə alınıb.

Hazırda vətəndaş olaraq üzərimizə düşən öhdəlik gərgin səylər nəticəsində əldə olunmuş bu müsbət tendensiyanı qoruyub, daha da yaxşı nəticələrin qazanılmasına dəstək verməkdir. Bunun üçün də tətbiq olunan karantin qaydalarına anlayışla yanaşaraq ona əməl etmək, maska taxmaq və sosial məsafəni qorumaq kifayətdir. Bu bəladan qurtulmağın bir yolu da vətəndaş-dövlət həmrəyliyindən keçir. Yalnız bu halda koronavirusla mübarizədən qalib çıxa bilərik.

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

# Qafqaz Müsəlmanları İdarəsinin Qurban bayramı münasibətilə təbriki



Bismillahir-rəhmanir-rəhim!
Əziz müsəlman bacı və qardaşlarımız, möhtərəm həmvətənlərimiz!

Dünya müsəlmanlarının ən şərəfətli bayramlarından olan mübarək Qurban bayramı münasibətilə hamınızı səmimi-qəlbdən təbrik edir, qurbanlarımızın, dua və ibadətlərimizin Haqq dərgahında qəbul olunmasını Rəbbimizdən diləyirik.

İslam aləminin ən əziz və müqəddəs günlərindən biri - Eydül-Əzha-Qurban bayramı Peygəmbər Həzrət İbrahim əleyhissəlam yadigarı olaraq müsəlman ümmətinin böyük sevinc və fərəh məqamı kimi qərar verilmişdir. Bəşər övladının öz Uca Yaradanına təqva və məhəbbətini, Rəbbimizin öz bəndələrinə lütf və mərhəmətini təcəssüm etdirən müqəddəs Qurban bayramı əsrlər boyu insanların həmrəyliyinə, mənəvi saflaşmasına və imanlarının kamilləşməsinə xidmət edir.

Şükürlər olsun ki, mənəvi dəyərlərə sahib duran dövlətimizin qayğısı və himayəsi sayəsində Azərbaycan müsəlmanları bu mübarək məqamı 2 gün bayram etmək şərəfinə nail olmuşlar. Bu əziz günlərdə Azərbaycan dövlətinə, milli-mənəvi dəyərlərimizin hamisi dövlət başçımız zati-aliləri İlham Əliyev cənablarına və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya dindarlarımızın xeyir-dualarını yetirir, xalqımızın dərin minnətdarlığını ifadə edir, dövlət-din münasibətlərinin yüksək səviyyəsi yönündə bütün səylərinə uğurlar diləyirik.

Builki Qurban bayramını dünyada davam edən pandemiya şəraitində qarşılayırıq. Uca Allahın yaratdığı ən müqəddəs dəyər olan insan həyatının qorunması məqsədilə ibadət məkanları müvəqqəti bağlıdır. Pandemiya dövrünün məcburi təcrid tədbirləri səbəbindən müqəddəs Həcc ziyarətinin belə təxirə salındığı bir dövrdə bayram namazlarının ailə daxilində qılınması məqbuldur. Karantin səbəbindən ibadət məkanlarının müvəqqəti bağlı olması dindarlığa, təqvaya xələl gətirməməlidir. Xəstəlik və çətinliklər Allaha sığınmaq, səbir, təvəkkül, tövbə üçün bir vəsilə olmalıdır. Ümidvarıq ki, insanlar bu sınaqdan mənən daha güclü, ruhən daha saflaşmış çıxarlar, inşallah!

Həmrəylik, yardımlaşma və mənəvi təmizlənmə rəmzi olan bu müqəddəs gündə yetim, kimsəsiz, ahıl, xəstə insanlara maddi, mənəvi yardım etmək savab əməllərdəndir. Qurban bayramının sevincini qaçqın, köçkün, kimsəsiz soydaşlarımıza, maddi sıxıntı çəkən insanlara yaşatmaq, özəlliklə, pandemiya şəraitində ehtiyacı olan insanlara könül xoşluğu ilə qeyd etmək imkanı yaratmaq Allaha xoş gedən savab əməllərdəndir. Bayram günlərində imkansız, ehtiyacı olan insanlara qurban əti paylanması, habelə ərzaq və ya hər hansı sovqatın çatdırılması bəyənilən əməldir. Qurban kəsmək Məkkədə Həcc ziyarəti zamanı zəvvarlar üçün vacibdir, digər yerlərdə isə bu vacib deyil, müstəhəb əməl olduğundan bu il karantin rejimi şəraitində ictimai yerlərdə kəsim edilməməsi tövsiyə olunur. İnsanların kütləvi toplaşma ehtimalı olacaq kəsim yerlərində virusa yoluxma hallarının qarşısını almaq məqsədilə bir çox ölkələr bu addımı atır.

Bu müqəddəs bayram günündə Vətən uğrunda canlarından keçən şəhidlərimizi yad etmək, Vətənimiz və millətimizin rifahı üçün Allaha dualar etmək hər birimizin mənəvi borcudur. Mənfur düşmənin sərhədlərimizdə törətdiyi son məkrli təxribat zamanı qəhrəman zabit və əsgərlərimiz şəhid olmuşlar, dinc mülki əhali qətlə yetirilmişdir. Vətəni sevmək imandandır. Haqq işimiz yolunda mücadilə aparan, Vətən torpağı uğrunda şəhid olanlar, Peyğəmbər Məhəmməd salavatullahın mübarək hədisində buyurulduğu kimi, Allah yanında imanın, mənəviyyatın ən yüksək məqamına yüksəlmişlərdir. Allah doğma torpağımız uğrunda canlarını fəda etmiş bütün Vətən övladlarına rəhmət eləsin! Allah tezliklə Qarabağımızın işğaldan azad olmasını, Vətən torpağının bütövlüyünün bərpasını bizlərə nəsib etsin, inşallah!

Bu mübarək günlərdə xalqımızın rifah və səadəti üçün dualar edir, xüsusilə, pandemiya dövründə dövlət başçımız İlham Əliyev cənablarının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan cəmiyyətini səfərbər edərək dünyanı çənginə alan xəstəlik kabusundan müdafiə yönündə önəmli tədbirlərinə, humanitar addımlarına və nümunəvi beynəlxalq əməkdaşlıq istiqamətində BMT səviyyəsində dəstəklənən fəaliyyətlərinə Uca Allahdan uğurlar diləyirik. Bu əziz gündə dualar edirik ki, Allah-Təala möhtərəm dövlət başçımızın müstəqilliyimizi qorumaq, Azərbaycanın haqq işinin zəfər çalması yolunda dəyərli fəaliyyətinə rəvac versin!

Bu əziz günlərdə Azərbaycan xalqına xeyir-dualarımızı yetirir, Uca Yaradandan hamıya mərhəmət və məğfirət diləyir, Allah-Təalanın nəzərinin hər zaman üzərimizdə bərqərar olmasını diləyirik. Uca Allah Azərbaycanı hifz etsin! Amin!

# Qurban kəsmək Allaha xoş olan əməldir

Qurban kəsmək Məkkədə həcc ziyarətində olan zəvvarlar üçün vacibdir, qalan müsəlmanlar üçünsə müstəhəb əməldir. Qurbanı yalnız imkanlı şəxslər kəsməlidirlər. İmkanlıların qurban kəsməməsi məqbul olmadığı kimi, imkansızların da ailəsinin güzəranına ziyan vurmaqla, yaxud borc-xərc hesabına qurban kəsməsi məqbul deyil.



Qurbankəsmə mərasiminin tarixi qədim dövrlərə gedib çıxır. Tarix boyu dünya xalqları bu ayini müxtəlif cür icra etmişlər. Hətta insanları qurban kəsmək, odda yandırmaq, suya atmaq kimi dəhşətli adətlər olmuşdur. Hər üç səmavi dində - iudaizm, xristianlıq və islamda bu və ya digər formada qurbankəsmə ayini var. İslamın bərqərar etdiyi Qurban bayramı isə bəşəriyyətin həyatında tamamilə yeni səhifə açmış, Allahın yaratdığı ən kamil məxluqa - insana bir vaxtlar bəslənmiş vəhşi münasibətə son qoymuşdur.

Qurban bayramı İbrahim peyğəmbərin həyatında baş vermiş bir əhvalatdan qaynaqlanır. Həmin əhvalat Qurani-şərifdə əksini tapmışdır. Müqəddəs kitabımıza görə, İbrahim əleyhissəlam yuxusunda görür ki, Allah ondan oğlu İsmayılı qurban kəsməyi buyurur. İbrahim peyğəmbər gördüyü yuxudan çox kədərlənir, əhvalı pozulur. Bir ata kimi özü də qoca vaxtında Yaradanın bəxş etdiyi övlad payını itirmək istəmir. İbrahim peyğəmbər həmin yuxunu təkrar-təkrar görür və axırda dərk edir ki, sevimli oğlunu qurban kəsmək Allahın əmridir, Xaliqin buyruğu isə yerinə yetirilməlidir. İbrahim peyğəmbər sevimli oğlunu qurban kəsmək istəyəndə isə nə qədər cəhd etsə də, Allahın hökmü ilə bıçaq kəsmir. Elə bu məqamda səmadan səs gəlir: "Ey İbrahim! Artıq sən röyanın düzgünlüyünü (Allah tərəfindən olduğunu) təsdiq etdin (Sənə yuxuda nə əmr olunmuşdusa, onu yerinə yetirdin. Allah sənə lütf edərək oğlunun yerinə bir qoç kəsməyi buyurur). Biz yaxşı iş görənləri belə mükafatlandırırıq" (Quran, Saffat, 104-105).

Uca Yaradan İsmayılı qurban kəsməyi əmr etməklə peyğəmbərlik üçün bəyənib seçdiyi bəndəsini - İbrahim əleyhissəlamı sınağa çəkirdi və onun bu sınaqdan mətanətlə çıxdığını görüb İsmayılın əvəzinə qurban kəsmək üçün qoç göndərir. İbrahim peyğəmbər qoçu qurban kəsib Allaha şükür edir...

Qurban bayramının əsasında duran bu hadisənin böyük mənası var. Bir tərəfdən, Allah-Təala İbrahim peyğəmbərin səmimiliyini, Tanrıya sədaqətini və qəlbən bağlılığını, Onun buyruqlarına əməl etməyə hazır olduğunu sübut etdi. Digər tərəfdən, Allah-Təala İbrahim peyğəmbər vasitəsilə öz bəndələrinə bildirdi ki, yalançı dinlərdə olduğu kimi, insanların qurban kəsilməsini istəmir. Allah qurban kəsmək üçün göydən qoç göndərməklə yalançı etiqadların puçluğunu, yaratdığı ən mükəmməl məxluqun - insanın bütün məxluqlardan uca olduğunu bəndələrinin nəzərinə çarpdırdı.

Belə bir məqamı vurğulamaq lazımdır ki, qurban kəsmək Allaha xoş gələn əməllərdəndir. Müsəlman qurban kəsməklə Yaradana sədaqətini nümayiş etdirir. Elə "qurban" sözünün hərfi mənası (yaxınlıq, yəni Allaha yaxınlıq) da buna dəlalət edir. Müqəddəs kitabımızda deyilir: "Biz qurbanlıq dəvələri də Allahın nişanələrindən (Onun haqq dininin əlamətlərindən) etdik. Sizin üçün bu qurbanlarda (dini və dünyəvi) xeyir vardır. Artıq onları ayaq üstə durduqları (sol əli bağlı, sağ əli və iki ayağı açıq vəziyyətdə olduqları) halda kəsərkən üstlərində Allahın adını çəkin (bismillah deyin). Onlar böyrü üstə düşən (canları çıxdığı) zaman (ətindən) özünüz də yeyin, (yanınızda olub utandığından) əl açmayana (lakin verilənə etiraz etməyənə) və dilənçiyə də yedirdin. Onları (qurbanlıq heyvanları) sizə belə ram etdik ki, bəlkə, (nemətimizə) şükr edəsiniz! Onların nə əti, nə də qanı, əlbəttə, Allaha çatmaz. Allaha çatacaq olan yalnız sizin təqvanızdır (səmimi-qəlbdən etdiyiniz ibadətdir)" (Quran, Həcc, 36-37).

Qurban kəsmək Məkkədə həcc ziyarətində olan zəvvarlar üçün vacibdir, qalan müsəlmanlar üçünsə müstəhəb əməldir. Qurbanı yalnız imkanlı şəxslər kəsməlidirlər. İmkanlıların qurban kəsməməsi məqbul olmadığı kimi, imkansızların da ailəsinin güzəranına ziyan vurmaqla, yaxud borc-xərc hesabına qurban kəsməsi məqbul deyil.

Qurban yalnız qoyun, keçi, dəvə və inəkdən kəsilməlidir. Qurbanlıq heyvan sağlam, qüsursuz və cavan olmalıdır. Qurban əti, adətən, üç yerə bölünür: bir hissəni qurban kəsən özünə saxlayır, bir hissəsini qohum-əqrəbaya və dost-tanışa verir, bir hissəsini də ehtiyacı olanlara paylayır. Müsəlman istəsə, qurban ətinin hamısını kasıblara paylaya bilər. Həm də imkan daxilində bir yox, bir neçə qurban kəsib ehtiyacı olanlara paylamaq savabı artırar. Yeri gəlmişkən, peyğəmbərimiz Məhəmməd Salavatullah Qurban bayramında çoxlu qurban kəsib kasıblara paylayarmış...

İmkanlı müsəlmanın qurban kəsib imkansızların ehtiyaclarını, qismən də olsa, ödəməsi xeyirxahlıq təzahürüdür. Allaha xoş gələn bu əməl Qurban bayramında özünü daha qabarıq şəkildə büruzə verir. Qurban ətinin paylanması insanların bir-birinə kömək etməsinin vacibliyinə dəlalət edir.

Bu il Qurban bayramını koronavirus kimi ümumbəşəri bəlanın tüğyan etdiyi şəraitdə qeyd edirik. Odur ki, vətəndaşlar virusa yoluxmamaq üçün səlahiyyətli hökumət orqanlarının müəyyənləşdirdiyi qaydalara riayət etməlidirlər.

Uca Tanrı kəsəcəyimiz qurbanları qəbul eləsin! Gələn il Qurban bayramını Qarabağda qeyd edək, inşallah!

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

## 1 Avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür

# Ana dilinin inkişafı dövlətin prioritet istiqamətlərindəndir

"Ana dilimizə hörmət və qayğı daim olmalıdır. Biz ana dilimizi xarici təsirdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir".

***İlham ƏLİYEV***




Dünyanı başına götürmüş COVID-19 pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, 1 Avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü bu il də ictimaiyyət tərəfindən ölkəmizdə qeyd olunur.

Ulu Öndər Heydər Əliyevin 2001-ci il tarixli sərəncamı ilə avqustun 1-dən respublıkada kril qrafikasından latın qrafikasına keçilmişdir. Milli varlığımızın əsas atributlarından olan ana dilimizlə bağlı bu tarixi gün yer üzündə yaşayan hər bir azərbaycanlı və Azərbaycanı sevənlər üçün əziz və əlamətdardır. Dil millətin milli birliyini təmin edən əsas amillərdəndir. Xalqlar işğala məruz qalanda onların dili də yad təsirlər altına düşür. Hazırda istifadə etdiyimiz latın əlifbasından ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra istifadə edilib. Lakin sovet hakimiyyətinin işğalçılıq siyasəti nəticəsində milli dövlətçiliyimiz kimi, bu əlifba da repressiyaya uğrayıb. Beləliklə, imperiyanın məkrli siyasəti sayəsində 70 il Azərbaycanda kiril qrafikalı əlifbadan istifadə edilib. Azərbaycan xalqı ikinci dəfə 1991-ci ildə öz tarixi müstəqilliyinə sahib çıxandan sonra onun dili də azadlığa qovuşub.

XX əsrdə Azərbaycanda üç dəfə əlifba dəyişdirilib: 1929-cu ildə ərəbdən latına, 1939-cu ildə latından kirilə, 90-cı illərdə yenidən kirildən latına. Azərbaycan xalqı kimi heç bir xalqın, heç bir millətin bir əsrdə üç dəfə əlifbası dəyişdirilməyib. Qeyd etdiyimiz kimi, ərəb əlifbasından (1929) latın qrafikasına və nəhayət, kiril əlifbasına (1939) keçid bir-birinin yazısını oxuya bilməyən nəsillər arasında uçurumun yaranmasına səbəb olmuşdu. Sovet dönəmində imperiya qüvvələri millətimizin bu yaddaş kodunu sındırmaqla, zəiflətməklə millətin dilinin, tarixinin, ədəbiyyatının, mədəniyyətinin, bir sözlə, milli-mənəvi xəzinələrinin üstünə qara pərdə çəkmək istəyirdi. Bu zaman minlərlə Azərbaycan ziyalısının səsinə səs verən xalq şairi Süleyman Rüstəm üzünü şimala tutub "Dilimə dəymə" şeirində deyirdi:

*Mən sənin dilinə dəymirəm, cəllad,*
*Gəl sən də bu ana dilimə dəymə,*
*Sənin də bağın var, gülün var, çəkin,*
*Bağımda əkdiyim gülümə dəymə!*
*Yenicə sağalır vurduğun yara,*
*Mənim bu yaralı könlümə dəymə!*

Tarixdən məlumdur ki, Azərbaycan dili və Azərbaycan əlifbası zaman-zaman müxtəlif təzyiqlərə məruz qalsa da, öz varlığını qoruyub saxlaya bilmişdir. Hər dili və əlifbanı, ilk növbədə, onun daşıyıcısı olan xalq yaşadır. Bu, təkcə xalqdan, millətdən, yaradıcı ziyalılardan asılı məsələ deyil. Tarix dönə-dönə sübut etmişdir ki, dilin inkişafı milli müstəqillik ideyalarına sadiq olan, böyük siyasi iradəsi və qətiyyəti ilə öz xalqının tarixinə islahatçı və müdrik dövlət xadimi kimi daxil olan liderlərin adı ilə bağlıdır. Bu mənada, nəinki adlı-sanlı dilçi mütəxəssislər, hətta ən sadə peşə adamları da məmnunluqla etiraf edirlər ki, Azərbaycan dilinin hərtərəfli inkişafında Ümummilli Lider Heydər Əliyevin xidmətləri böyükdür. Milli Məclisin deputatı, tanınmış dilçi alim, AMEA-nın həqiqi üzvü Nizami Cəfərov Heydər Əliyev və Azərbaycan dili məsələlərini şərh edərək bildirir ki, Ulu Öndərin bu sahədə rolu əvəzsizdir. Akademik Ümummilli Lider Heydər Əliyevin "Hər bir xalqın özünəməxsusluğunu müəyyən edən başlıca ünsürlərdən biri onun dilidir. XX əsrdə xalqımızın əldə etdiyi uğurlar yüksək təqdirə layiqdir. Biz fəxr edirik ki, müstəqil Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dili son bir əsrlik dövr ərzində lüğət tərkibini xeyli zənginləşdirmiş, qrammatik quruluşunu cilalamış və dünya dilləri içərisində öz layiqli yerini tutmuşdur" fikrini xatırladaraq bildirir ki, onun hazırlayıb həyata keçirdiyi dil siyasəti dövlət quruculuğu siyasətinin tərkib hissəsidir. Heydər Əliyev Azərbaycan Respublikasına rəhbərlik etməyə başladığı ilk illərdə ana dilinə böyük əhəmiyyət vermiş, bu dilin Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi xüsusi maddədə göstərilməsinə nail olmuşdur. Ali məktəblər üçün yazılmış "Müasir Azərbaycan dili" dərsliklərinin respublika dövlət mükafatına layiq görülməsi, anadilli ədəbiyyatın inkişafı üçün hər cür şəraitin yaradılması, Azərbaycan ədəbiyyatı klassiklərinin təbliği bunun nəticəsi idi. Rəsmi yığıncaqlarda ana dilində çıxış edən dövlət başçısı Azərbaycan dilinə böyük siyasi, ideoloji nüfuz qazandırmışdı.

Zəngin dövlətçilik təcrübəsinə malik, dünya şöhrətli siyasətçi Heydər Əliyev ötən əsrin 60-cı illərinin sonundan (1969) Azərbaycana rəhbərlik etməyə başladığı vaxtlardan ana dilimizə və əlifbamıza böyük qayğı göstərmişdir. Rəhbərin şəxsi təşəbbüsü, qətiyyəti və siyasi uzaqgörənliyi sayəsində 1978-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında ayrıca maddənin daxil edilməsi bunun ən bariz nümunəsidir.

Ulu Öndərin ölkəyə ikinci dəfə rəhbərliyə qayıdışı zamanı müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dili rəsmi dövlət dili kimi təsbit edilmiş və dövlət statusu almışdır. Dil siyasətinin əsaslarını yaradan Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə istər siyasi-ictimai, istərsə də mədəni aspektdə Azərbaycan dilinin inkişafı üçün bir sıra islahatlar həyata keçirmişdir. Ümummilli Liderin bu sıradan imzaladığı sənədlər arasında "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli fərmanı da xüsusi yer tutur. Bu tarixi fərmanda Azərbaycan dövlət müstəqilliyinin rəmzlərindən sayılan Azərbaycan dilinin tətbiqi və inkişaf etdirilməsinə, ana dilimizin öyrənilməsi və cəmiyyətdə işlənmə mexanizminin təkmilləşdirilməsinə, eləcə də bu sahədə həyata keçiriləcək tədbirlərə nəzarətin gücləndirilməsinə dövlət qayğısı genişliyi ilə öz əksini tapmışdır.

Ümummilli Lider Azərbaycan dilinin yaddaş kodunun - Azərbaycan əlifbasının əbədiyaşarlığını tarixiləşdirmək və dünya dilçilərinə bəyan etmək üçün 9 avqust 2001-ci il tarixli məlum fərmanına əsasən ölkəmizdə Azərbaycan əlifbası və Azərbaycan dili günü böyük təntənə ilə qeyd olunur. Heydər Əliyevin Azərbaycan dilinin inkişafı ilə əlaqədar apardığı islahatlar və imzaladığı fərmanlar, milli-mənəvi dəyərlərin qorunub saxlanmasında, azərbaycançılıq ideyasının formalaşması yolunda müstəsna əhəmiyyətə malikdir.

Ulu Öndərin müdrik siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ana dilimizə, mədəniyyətimizə daim böyük diqqət və qayğı göstərən dövlət başçısı bu sahənin inkişafı ilə bağlı mühüm sənədlər imzalamışdır. Təqdirəlayiq haldır ki, Ümummilli Liderin ideyalarını layiqincə yerinə yetirən Azərbaycan Prezidenti İlham Əliyev doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. Bu gün ana dilimizin inkişafının əsas qarantı da məhz ölkə Prezidentinin özüdür. Azərbaycan ədəbiyyatını, azərbaycanlı düşüncəsini əks etdirən sanballı əsərlərin latın qrafikasında yenidən nəşr edilməsi neçə il bundan öncə Prezident İlham Əliyevin təşəbbüsü ilə baş tutmuşdur. Ölkə rəhbərinin 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı həm də əlifba ilə bağlı problemləri tamamilə həll etmişdir. Dövlət başçısının sonrakı sərəncamlarında isə 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan yeni nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirmişdir.

Prezident İlham Əliyevin həyata keçirdiyi mühüm və uğurlu tədbirlərdən biri də 2004-cü il 12 yanvar tarixində imzaladığı "Azərbaycan milli ensiklopediyasının nəşri haqqında" məlum sərəncamıdır. Bu sərəncamın nəticəsində qiymətli kitabların çapı mənəvi xəzinəmizin zənginləşməsində mühüm rol oynamışdır. Proses bu gün də davam etdirilməkdədir. Dövlət başçısının 2013-cü il 9 aprel tarixli "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" da dilimizin qorunması və inkişafında mühüm sənədlərdən hesab olunur.

Prezident İlham Əliyev milli xüsusiyyətlərimizin saxlanmasında ana dili və ədəbiyyatımızın başlıca amillərdən olduğunu dəfələrlə diqqətə çəkərək demişdir: "Bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir". Dövlət başçısı elm adamlarının, şair və yazıçıların təmsil olunduqları yığıncaqlarda, paytaxtda və bölgələrdə ictimaiyyət nümayəndələri ilə görüşlərində həmişə dövlət atributlarına, xüsusilə də Azərbaycan dilinə, əlifbasına, mədəniyyətinə, incəsənətinə, milli adət-ənənələrinə xüsusi ehtiramla yanaşılmasını, xüsusi dəyər verilməsini diqqətə çatdırmışdır. Ana dilimizə qayğıdan söz açarkən Prezident demişdir: "Ana dilimizə hörmət və qayğı daim olmalıdır. Biz ana dilimizi xarici təsirdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Azərbaycan xalqının formalaşmasında, müstəqil Azərbaycanın formalaşmasında ana dilimiz - Azərbaycan dili müstəsna rol oynamışdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq. Bu məsələyə çox ciddi diqqət göstərilməlidir".

Bu gün Azərbaycan dilinin inkişafı və qorunması dövlətin prioritet istiqamətlərindəndir. Azərbaycan əlifbasına diqqət və qayğı Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun ifadəsinə, azərbaycançılıq məfkurəsi əsasında hərtərəfli inkişafına, gənc nəslin ana dilinə qayğı və hörmət ruhunda tərbiyə olunmasına, ədəbi dilin normalarına ciddi əməl edilməsinə, o cümlədən dilçilik elmi üzrə yüksək ixtisaslı kadrların hazırlanmasına münbit şərait yaratmışdır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Türkiyə Hərbi Hava Qüvvələrinin nümayəndələri Gəncə şəhərinə gəlib



"TurAz Qartalı-2020" birgə taktiki-uçuş təlimlərində iştirak etmək üçün Türkiyə Hərbi Hava Qüvvələrinin (HHQ) geniş tərkibdə uçuş və mühəndis-texniki heyəti Gəncə şəhərinə gəlib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərə hazırlıq məqsədilə hazırda heyətlərin yerləşdirilməsi, təlimin planlaşdırılması və digər təşkilati məsələlərlə əlaqədar müvafiq tədbirlər həyata keçirilir.

# Azərbaycan-Türkiyə birgə təlimlərinin birinci mərhələsi keçirilir



Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki təlimlərinin birinci mərhələsi keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, plana uyğun olaraq mövcud vəziyyət qiymətləndirilir, döyüş tapşırıqları dəqiqləşdirilir, real şəraitdə ərazinin kəşfi aparılır.

Müvafiq məruzələr dinlənildikdən sonra təlimə cəlb edilən qoşunların qəbul olunan qərara əsasən tətbiqi üzrə tapşırıqlar ərazidə aydınlaşdırılır.

# Qurbanlıq heyvan cəmdəyini onlayn satış platforması üzərindən əldə etmək olar

Müqəddəs bayram günlərində insanların öz xeyirxah əməllərini təhlükəsiz və sağlam mühitdə yerinə yetirmələri əhalinin sağlamlığı üçün mühüm əhəmiyyət kəsb edir. Nəzərə almaq lazımdır ki, mənəvi saflığı və təmizliyi özündə ehtiva edən Qurban bayramında təhlükəsizlik və sağlamlığa xidmət edən qaydalara əməl olunması hər birimizin müsəlmanlıq və vətəndaşlıq borcudur.

Qida Təhlükəsizliyi Agentliyinin İnformasiya təminatı və innovativ həllər şöbəsindən AZƏRTAC-a bildiriblər ki, bu il Qurban bayramı pandemiya dövrünə təsadüf etdiyi üçün bayramın keçirilməsi, həmçinin qurbanlıq heyvanların satışı, kəsimi və s. fəaliyyətlər real şərait nəzərə alınmaqla xüsusi yanaşma tələb edir. Ona görə də vətəndaşların qurbanlıq heyvan cəmdəyini (heyvan ətini) satış məntəqələri, müxtəlif market şəbəkələri və Kənd Təsərrüfatı Nazirliyinin onlayn satış platforması üzərindən əvvəlcədən sifariş etməklə əldə etmələri nəzərdə tutulub. Odur ki, vətəndaşlar həmin satış məntəqələrindən baytarlıq nəzarətindən keçmiş və sanitar-gigiyenik tələblər gözlənilməklə kəsilmiş qurbanlıq heyvan ətləri və cəmdəklərini əldə edə bilərlər.

Pandemiya şəraitində insanların bayramı təhlükəsiz və sağlam şəraitdə qeyd etmələri, habelə heyvan kəsimi fəaliyyətinin tənzimlənməsi ilə bağlı mövcud qanunvericiliyin icrasını təmin etmək məqsədilə küçə və yol kənarlarında, parklarda və digər ictimai yerlərdə, xüsusi risk yaradan sanitariya və gigiyena tələblərinə uyğun olmayan ərazilərdə heyvan kəsiminin həyata keçirilməsi məqsədəuyğun deyil.

Qida Təhlükəsizliyi Agentliyi özünün funksional vəzifə səlahiyyətlərinə uyğun olaraq, Qurban bayramı günlərində də adi günlərdə olduğu kimi, baytarlıq nəzarəti və heyvan sağlamlığına nəzarət tədbirlərini ardıcıl olaraq davam etdirəcək, bayramın sağlam və təhlükəsiz şəraitdə qeyd olunmasını təmin etmək üçün aidiyyəti qurumlarla birgə bütün zəruri tədbirləri həyata keçirəcək.





# Muxtar respublikada əhalinin özünüməşğulluğunun təmin edilməsi istiqamətində işlər uğurla davam etdirilir

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq xüsusi qayğıya ehtiyacı olan ailələrin sosial müdafiəsinin təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müvafiq tədbirlərin icrası davam etdirilir.

Nazirlikdən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə həyata keçirilməsinə başlanılan proqramın icrası ilə əlaqədar iyul ayında muxtar respublika üzrə ümumilikdə 18 sosial qayğıya ehtiyacı olan ailə müəyyənləşdirilib və 14 nəfərə yanında balası olan iribuynuzlu, 2 nəfərə yanında balası olan 10 baş xırdabuynuzlu mal-qara, 1 nəfərə mini yerşumlayan aqreqat və 1 nəfərə isə dərzi avadanlıqları verilib. Proqrama cəlb olunan şəxslərdən 2 nəfəri gəncdir.

Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev muxtar respublikada aztəminatlı ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası aztəminatlı ailələrin, cəzaçəkmə müəssisələrindən azad edilmiş, habelə sağlamlıq imkanları məhdud şəxslərin özünüməşğulluğunun təmin edilməsi istiqamətində sosial layihələrinin icrasına əlverişli zəmin yaradıb.

Nazir bildirib ki, özünüməşğulluğa cəlb olunmuş ailələrin təsərrüfatlarında qısa müddət ərzində artımlar olub. Bu da həmin ailələrin sosial rifah halının yaxşılaşmasına müsbət təsir edib.

Daha sonra proqrama cəlb edilmiş sakinlərə verilən aktivlərlə bağlı sənədlər təqdim olunub.

# Mərkəzi Bank uçot dərəcəsini endirib

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti uçot dərəcəsinin 7 faizdən 6,75 faizə endirilməsi haqqında qərar qəbul edib. AZƏRTAC xəbər verir ki, Mərkəzi Bankın sədri Elman Rüstəmov iyulun 30-da keçirdiyi mətbuat konfransında İdarə Heyətinin qərarını şərh edib.



O bildirib ki, faiz dəhlizinin aşağı həddi 6,25 faiz, faiz dəhlizinin yuxarı həddi isə 7,25 faiz səviyyəsində müəyyən edilib. Bu qərar faktiki və proqnozlaşdırılan illik inflyasiyanın hədəf intervalının (4+2 faiz) mərkəzindən aşağıda olması, beynəlxalq konyunkturda yaxşılaşma meyillərinin və valyuta bazarında stabilliyin davam etməsi, pandemiyanın təsiri ilə tələbin zəifləməsinin antiinflyasiya effektləri nəzərə alınmaqla qəbul olunub. Faiz dəhlizinin parametrlərinə dair növbəti qərarlar faktiki inflyasiyanın proqnozdan kənarlaşma dərəcəsindən, qlobal bazarlarda vəziyyətin dəyişməsindən, habelə daxili tələbin və iqtisadi aktivliyin bərpasından asılı olaraq qəbul ediləcək.

## İnflyasiyanın dinamikası və inflyasiya gözləntiləri

E.Rüstəmov qeyd edib ki, İdarə Heyətinin pul siyasətinə həsr olunmuş son toplantısından keçən dövrdə illik inflyasiya hədəf intervalının mərkəzindən aşağıda qalıb. Məcmu tələbin daralması və onun antiinflyasiya təsirləri şəraitində iyun ayında 0,3 faizlik deflyasiya baş verib, illik inflyasiya 3 faiz təşkil edib. Mövsümi amillərin də təsiri ilə iyunda ərzaq qiymətləri 1,5 faiz aşağı düşüb, qeyri-ərzaq məhsulları 0,1 faiz, xidmətlər isə 0,9 faiz bahalaşıb.

Real sektor müəssisələri üzrə monitorinqin nəticələri inflyasiya gözləntilərinin azalmaqda davam etdiyini göstərir. Bu ilin iyul-sentyabr ayları üzrə sənaye, xidmət və ticarət sektorlarında müəssisələrin inflyasiya gözləntiləri azalmaqda davam edib. İyunda ev təsərrüfatları arasında aparılmış sorğuya görə inflyasiyanın yüksələcəyini gözləyən respondentlərin xüsusi çəkisi mart ayı ilə müqayisədə 3 faiz bəndi azalaraq 29 faizə enib.

İnflyasiya amilləri üzrə iyulda aparılmış təhlillər əsasında inflyasiya proqnozu dəyişilməz saxlanılıb. Son proqnozlara görə mövcud fundamentallar çərçivəsində cari ilin sonuna inflyasiyanın 3-3,5 faiz intervalında fomalaşacağı gözlənilir.

## Qlobal mühit və xarici sektor göstəriciləri

Diqqətə çatdırılıb ki, pul siyasətinə həsr olunmuş son iclasdan ötən müddətdə qlobal iqtisadi aktivliyi xarakterizə edən göstəricilərdə əhəmiyyətli dəyişiklik baş verməyib. Dünya Ümumi Daxili Məhsulunun 60 faizdən çoxunu yaradan İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələri üzrə biznes inam və istehlakçı inamı indeksləri iyunda may ayı ilə müqayisədə bir qədər yüksəlsə də, ilin əvvəlindəkindən əhəmiyyətli dərəcədə aşağı səviyyədədir. Beynəlxalq Valyuta Fondu 2020-ci il üzrə qlobal iqtisadiyyatın ressesiyasına dair özünün proqnozunu iyunda 3 faizdən 4,9 faizə yüksəldib.

Bildirilib ki, dünya əmtəə qiymətlərində, o cümlədən neft qiymətində bərpa prosesləri davam etməkdədir. İyulun ötən dövründə "Brent" markalı neftin orta qiyməti 43 ABŞ dolları təşkil edib ki, bu da aprel ayına nisbətən (27 ABŞ dolları) 59 faiz yüksəkdir. Son ayda beynəlxalq konyunkturun yaxşılaşması və idxalın aşağı səviyyədə qalması xarici balans göstəricilərinə də müsbət təsir edib. Ümumilikdə cari ilin 6 ayında xarici ticarət balansında 2,7 milyard dollar səviyyəsində profisit olub. Ölkənin strateji valyuta ehtiyatları artmaqda davam edir. Hazırda strateji valyuta ehtiyatları 51,7 milyard dollar təşkil edir ki, bu da ilin əvvəli ilə müqayisədə 1,2 faiz çoxdur. Mərkəzi Bankın valyuta ehtiyatları ilin əvvəlindən 3,3 faiz artıb.

## Monetar şərait

Mərkəzi Bankın sədri qeyd edib ki, ötən toplantıdan keçən müddətdə monetar şərait əsasən yumşalıb. Buna faiz dəhlizi parametrlərinin iyunda azalma istiqamətində dəyişdirilməsi, kreditləşmənin dəstəklənməsi üçün görülən tədbirlər, eləcə də dövlət büdcəsi xərclərinin həyata keçirilməsilə bağlı vahid xəzinə hesabının qalığının azalması təsir göstərib. Pul bazası iyun ayının sonundan bəri 3,6 faiz artıb. Pul təklifi artmağa başlasa da, maliyyə bazarlarının müxtəlif seqmentlərində faiz dərəcələri fərqli istiqamətlərdə dəyişib.

Pul siyasəti qərarlarının təsiri ilə son ayda Mərkəzi Bankın depozit əməliyyatları və qısamüddətli notları üzrə faiz dərəcələrinin, eləcə də dövlət qiymətli kağızlarının gəlirliyinin azalması müşahidə edilib. Bu maliyyə alətləri üzrə hərraclarda tələbin təklifi üstələməsi ümumilikdə likvidliyin yüksək olduğunu göstərir. Pul bazarlarında orta faizlərin azalması pul siyasətinin transmissiyasının birinci həlqəsinin effektli olduğunu göstərir. Ötən toplantıdan bəri depozit faizlərinə təsir göstərən başlıca amil sığortalanan əmanətlər üzrə maksimal faizin iyundan qaldırılması olub. Manatla əmanət faizlərinin faktiki və proqnozlaşdırılan inflyasiyanı əhəmiyyətli üstələməsi milli valyutada yığımların cəlbediciliyini və de-dollarlaşma proseslərini dəstəkləyir.

Vurğulanıb ki, kredit faizləri başlıca olaraq real sektorda pandemiyanın təsiri ilə artan risklərdən və bu risklərin banklar tərəfindən qiymətləndirilməsindən əhəmiyyətli təsirlənir. Mərkəzi Bankın pul siyasəti qərarları və pul bazarında faizlərin azalması qarşıdakı dövrdə kreditləşmə şərtlərinin də yumşaldılması üçün zəmin yaradır. Pandemiyadan təsirlənən iqtisadi subyektlərin dəstəklənməsi üçün tənzimləyici yumşalmalar və dövlətin güzəştli kreditləşmə mexanizmlərinin tətbiqi də maliyyə resurslarına çıxış imkanlarını yaxşılaşdıracaq.

## İqtisadi aktivlik

E.Rüstəmov deyib: "Pandemiya ilə bağlı zəruri məhdudiyyət tədbirləri daxili iqtisadi aktivliyə iyun-iyul aylarında da neqativ təsir göstərib. Real sektor müəssisələrinin monitorinqi göstərir ki, biznes inam indeksi qeyri-neft sənayesi, tikinti, ticarət və xidmət sahələri üzrə iyun ayında da neqativ zonada qalıb. Ev təsərrüfatları arasında iyun ayında aparılmış sorğu istehlakçı inam indeksinin də azaldığını göstərir. Məcmu tələbin bütün komponentlərində azalma fonunda rəsmi statistikaya görə cari ilin 6 ayında iqtisadiyyatın baza sahələri olan qeyri neft-qaz sənayesi və kənd təsərrüfatında iqtisadi artım davam etsə də, bütövlükdə ÜDM real ifadədə 2,7 faiz, o cümlədən qeyri-neft sektoru üzrə 2,5 faiz azalıb. Hökumətin və Mərkəzi Bankın birgə aktiv antiböhran tədbirlərinin icrası, xüsusən də pandemiyadan zərərçəkən sahələrin dəstəklənməsi tədbirləri iqtisadi aktivliyin azalmasının miqyasını əhəmiyyətli kiçiltməyə kömək edib. Virus təhlükəsinin qaldığı və sosial təcrid tədbirlərinin davam etdiyi şəraitdə iqtisadi artımın öz potensialına yaxınlaşması prosesinin qlobal iqtisadiyyatda gözlənildiyi kimi tədricən baş verəcəyi proqnozlaşdırılır. Uçot dərəcəsinin azaldılması, ilin qalan dövründə pul təklifinin proqnozlaşdırılan genişlənməsi məcmu tələbin bərpasına, iqtisadi aktivliyin və məşğulluğun dəstəklənməsinə müsbət təsir göstərəcək".

## İnflyasiya riskləri

Bildirilib ki, qısamüddətli dövrdə inflyasiya üzrə risklər balansında stabilləşdirici amillər üstünlüyünü qorumaqdadır. Pandemiya şəraitində zəif məcmu tələb qarşıdakı aylarda da başlıca antiinflyasiya amili kimi çıxış edəcək. Məcmu tələbin daralması idxalı və beləliklə valyuta bazarında tələbi məhdudlaşdırır. Bununla belə logistik zəncirdə qırılmalar, habelə koronavirusdan qorunmaq üçün iqtisadi subyektlərin üzləşdiyi əlavə xərclər qiymətlərə artırıcı təsir göstərə bilər. Pandemiyanın davamlığı və təsirləri ilə əlaqədar ortamüddətli dövrə qlobal mühit üzrə əhəmiyyətli qeyri-müəyyənliklər qalmaqdadır. Bu dövrdə milli iqtisadiyyatda makroiqtisadi və maliyyə sabitliyinin qorunması yaranan çağırışlara cavab verən, iqtisadi artımın və məşğulluğun bərpasını təmin edəcək yeni makroiqtisadi çərçivənin formalaşmasından və effektiv siyasət koordinasiyasından asılı olacaq.

Bu qərar iyulun 30-dan qüvvəyə minir. Mərkəzi Bankın İdarə Heyətinin faiz dəhlizinin parametrləri barədə növbəti qərarı cari il sentyabrın 18-də ictimaiyyətə açıqlanacaq.






# İÇƏRİŞƏHƏR



● Bakı əsilzadələri

**Hacınskilər barədə araşdırmalarda belə bir məlumata rast gəlirik ki, Bakıda keçən əsrin birinci yarısında üç məşhur Hacınski nəsli olub. Onlardan biri neft milyonçusu, mədənləri və kerosin zavodları, Qız qalasının qarşısında gözəl mülkü olan, 1896-cı ildən 20 il müddətinə Şəhər Dumasının üzvü seçilmiş, Balaxanski (Füzuli) küçəsində yerləşən imperator III Aleksandr Bakı Kişi Gimnaziyasının hamisi İsa bəy Hacınski, digəri Şillerin "Qaçaqlar" pyesini Azərbaycan dilinə tərcümə etmiş, səhnəmizdə "Qaçaqlar"da Karl Moor, "Nadir şah"da Nadir şah kimi rollar oynamış, məqalələri "Tərcüman", "Kaspi", "İqbal", "İrşad" qəzetlərində, "Molla Nəsrəddin", "Zənbur" jurnallarında dərc edilmiş, Cümhuriyyət dövründə parlament üzvüolmuş Mehdi bəy Hacınski, onun qardaşı, Sankt-Peterburq Universitetini bitirmiş, "Qubalı" imzası ilə publisistika və teatr tənqidinə dair məqalələr yazmış Camo bəy Hacınski və nəhayət, maarifçi-demokrat, ictimai xadim Məmmədhəsən Hacınskidir.**



İsa bəy Hacınski



Sadıq bəy Hacınski

# Tarixin sınağında...

Qədim Bakının, xüsusilə İçərişəhərin memarlıq abidələri ilə zənginləşməsində böyük xidmətləri olan Hacınskilərdən söz açarkən Əbdülsalam bəyin məşhur, böyük nüfuz sahibi olan iki oğlunun - İsa bəy və Kazım bəy Hacınskilərin adlarını xüsusi qeyd etməliyik.

İsa bəy 1860-cı ildə Bakıda dünyaya gəlib. Ona atasından bir neçə mülk, böyük torpaq sahələri miras qalıb. Həmin sahələrdə neft yataqları aşkar edilib. İsa bəy Hacınskiyə məxsus quyulardan çıxan neftin ümumi həcmi bir neçə ilə yarım milyon puda çatıb.

XIX əsrin sonlarından Azərbaycanın neft sənayesində yeni inkişaf mərhələsi başlayıb. Həmin dövrdən neft sənayesinin inkişafında milli neft milyonçuları - Hacı Zeynalabdin Tağıyev, İsa bəy Hacınski, Murtuza Muxtarov, Şəmsi Əsədullayev, Seyid Mirbabayev daha fəal iştirak ediblər. Bakıda ilk səhmdar neft şirkəti olan "Bakı Neft Cəmiyyəti" 1874-cü ildə yaradılıb.

Dövrün ən varlı neft sənayesi sahibkarlarından biri olan İsa bəy Hacınski 1903-cu ildə özünün neft şirkətini qurub.1904-cü ildə Bakıda "Hidayət" Cəmiyyəti yaradılıb. İsa bəy Hacınski həmin cəmiyyətin idarə heyətinin üzvü olub.

1905-ci ildə Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü ilə "Müsəlman Xeyriyyə Cəmiyyəti" yaradılıb. Kasıblara, imkansızlara yardım, qocalara himayədarlıq, təhsilə dəstək və başqa xeyirli işlər həyata keçirən cəmiyyətin sədri Hacı Zeynalabdin Tağıyev idi. Cəmiyyətin təsisçilərindən biri də İsa bəy Hacınski idi.

Onun Balaxanıdakı müəssisəsində gün ərzində iki neft quyusunun işlədiyini 1910-cu ilin rəsmi rəqəmləri də təsdiq edir. Həmin quyularda çalışan yüksəkixtisaslı fəhlələr Nobelin, Rotşildin, Montaşovun işçilərindən qat-qat çox əmək haqqı alırdılar.

İsa bəy Hacınskinin Bibiheybətdə də zəngin neft mədənləri vardı. Xəzər dənizindəki Çələkən adası onun və qardaşı Kazım bəyin ixtiyarındaydı. Qara Şəhərdə isə İsa bəyin kerosin zavodu vardı.

İsa bəy Hacınski Bakıya ilk avtomobil gətirən şəxs kimi də tanınırdı.

O, maarifpərvər milyonçularımızdan biri idi. İsa bəy Bakı Kişi Gimnaziyasının fəxri himayədarı olub. Gimnaziya pullu idi, amma kasıb uşaqları burada pulsuz təhsil alırdılar. Məktəbin azərbaycanlı məzunlarından 25 nəfəri İsa bəyin maddi köməyi ilə Rusiyanın müxtəlif şəhərlərinə təhsil almağa göndərilib. Gimnaziyanın bütün xərcini öz üzərinə götürən İsa bəy Hacınski şagirdlərin yay tətilində istirahət etmələri üçün Pyatiqorsk yaxınlığında, Vladiqafqaz dəmir yolunun Karras stansiyası ərazisində boş torpaq sahəsi alıb və gözəl mülk tikdirib.

İsa bəy Hacınskinin Bakı şəhərinin müxtəlif yerlərində mülkləri vardı. Ən möhtəşəmi Qız qalasının yaxınlığında yerləşən və "Hacınskinin evi" kimi tanınan binadır...

İlk bulvar sahəsi indiki Kukla teatrının binasından "Azneft"in binasınadək olan sahəni əhatə edirdi. İsa bəy Bakı bulvarının salınmasına xeyli pul ayırıb. O, öz mülkünü də dəniz kənarında tikdirməyi qərara alıb və Neftçilər prospekti 103 ünvanında yerləşən binanın inşası üçün İtaliyadan memar dəvət edib. Bina 1912-ci ildə tikilib. İnşası yekunlaşan binanı İsa bəy elə bəyənib ki, memara vəd etdiyindən xeyli artıq pul verib.

İsa bəyin kontoru da bu binanın birinci mərtəbəsindəydi. Mülkün girişində iki tərəfdə mərmərdən yonulmuş aslan heykəlləri vardı. 1918-ci ilin martında, ermənilərin törətdikləri soyqırımda həmin heykəlləri düşmənlərin atdıqları qumbaralar parçalayıb.

1918-ci il mart qırğınları İsa bəy Hacınskinin həyatını da darmadağın edib. Doğma şəhərinə, evinə, biznesinə vurulan zərbələr onu sarsıdıb. Elə bu sarsıntı ilə 1919-cu ilin yanvarında dünyadan köçüb.

İsa bəydən sonra da çox faciələr baş verib. 1920-ci ilin aprelində Azərbaycanın müstəqilliyinə son qoyulub. Bəy, xan soyadlılarının, varlıların qara günləri başlayıb.

İsa bəy Hacınskinin həyat yoldaşı Xeyransa xanım Məhəmməd bəy Xanlarovun qızı idi. Onların Sadıq bəy, Əhməd bəy və Əli bəy adlı üç oğlu və Zibeydə xanım adlı bir qızı vardı.

İsa bəy Hacınski özü evdə təhsil alıb. O, savadlı insan olub, ərəb, fars, ingilis, fransız və alman dillərini bilib. Övladlarının da təhsillərinə xüsusi diqqət yetirib. 1890-cı il təvəllüdlü oğlu Əhməd bəy 1918-ci ildə Peterburq Universitetinin fizika-riyaziyyat fakültəsini bitirib.

İsa bəyin oğlu Sadıq bəy 1887-ci ildə Bakıda dünyaya gəlib. 1913-cü ildə Peterburq Universitetinin hüquq fakültəsinə daxil olub. Sonra Kazan Universitetində oxuyub. 1916-cı ildə universitetin hüquq fakültəsini bitirib. Hüquqşünas işləyib.

Sadıq bəy, Əhməd bəy və Əli bəy Fransada yaşamaq məcburiyyətində qalıblar. Əhməd bəyin Parisdə fabriki vardı. O, 1960-cı ildə vəfat edib. Sadıq bəy isə Parisdə 1940-cı ildə dünyasını dəyişib.

Xeyransa xanım və qızı Zibeydə xanım Bakını tərk etməyiblər. Amma buna görə başları çox bəlalar çəkib. Yaşadıqları təmtəraqlı imarətlərindən qovulublar. Onları Mərdəkandakı bağ evlərində də yaşamağa qoymayıblar. Bir həftədən sonra oradan da çıxarıblar. Ana-balaya qohumları yardım əli uzatmağa qorxublar. Sonradan onları küçədə qalmaqdan Xeyransa xanımın yaxın qohumlarından biri xilas edib, birotaqlı mənzildə sığınacaq verib.

Beləcə, zəngin ailənin övladları olmaları bir çoxu kimi sonda onlara da yalnız problemlər, dərd-bəla, ayrılıq gətirib...

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

● Dənizkənarı Milli Park

# Dünyanın ən gözəl bulvarı Bakıdadır

## Millilikdən müasirliyədək

Bir çox tarixi mənbələrə əsasən, Bakı bulvarının tikintisinə 1909-cu ildə başlanıb. Ötən 111 il ərzində bulvar ərazisinin forması dəfələrlə dəyişib. Müxtəlif tikinti işləri aparılıb, sahəsi genişləndirilib. Dənizkənarı Milli Parkın ərazisi köhnə, yeni və Ağ Şəhər bulvarı olmaqla, 3 hissəyə ayrılıb. 1998-ci ildən Dənizkənarı Bulvar Milli Park statusunu daşıyır. Hazırda parkın uzunluğu 16 km.-dir və gələcəkdə ərazisinin 25 kilometrə çatdırılması nəzərdə tutulur.

Milli Parkın ötən il 110 illiyi qeyd ediləndə onun tarixini əks etdirən fotosərgi açılmışdı. XX əsrdə bir çox tanınmış yerli və əcnəbi fotoqrafların lentə aldığı fotoşəkillər orada nümayiş olunurdu. Həmin sərgidə Bakı bulvarının 1860-1990-cı illəri əhatə edən tarixi ilə bağlı 100-dən artıq nadir tapıntı hasab edilən şəkillərdə bulvarın dənizdən çəkilmiş ilk fotosu da vardı...

Bakı bulvarının ərazisində ilk tikinti işlərinə XIX əsrin əvvəllərində başlanılıb. Həmin dövrdə esplanadanın inşası aparılırdı və İçərişəhərin sahil zolağı hələ boş idi. 1860-cı ildən sonra "Qafqaz və Merkuri" paroxod şirkəti körpü və digər qurğuların tikintisini həyata keçirir. Bu qurğuların inşası nəticəsində sahil zolağı 2 hissəyə bölünür: qərb istiqamətində, qala boyunca - Aleksandrovski sahili, şərq istiqamətində - Bolşaya Morskaya prospektinə qədər Petrovski sahili.

## Sahil küçəsinin salınması

Sahildə aparılan işlərlə bağlı ilk addımlar 1868-ci ilədək Bakı şəhərinin memarı olmuş Qasım bəy Hacıbababəyov tərəfindən atılıb. 1860-cı ildə dəniz tərəfdən qala divarının sökülməsindən sonra sahil zolağı nizamlanıb və o zaman imperator II Aleksandrın adını daşıyan sahil küçəsi, yəni bulvar küçəsi 1865-1868-ci illərdə salınıb. Şəhərin sürətli inkişafına 1863-cü ildə icazə verilib.1867-ci ildə bu ərazidə su kəməri çəkilib, fontan və digər tikililər də inşa edilib. Bundan sonra dəniz sahili bulvar statusu alıb və

> **"Bakı bulvarı, mən şəxsən belə hesab edirəm ki, dünyanın ən gözəl bulvarıdır. Ən gözəl bulvarlarından biri deyil, ən gözəl bulvarıdır. Həm təbii vəziyyətinə, həm abadlıq işlərinə, müasirliyinə, insanlar üçün yaradılmış rahatlığına görə. Bakının gözəlliyi bənzərsizdir, təkrarolunmazdır".**
>
> **İlham ƏLİYEV**



şəhərin incisinə çevrilib. Bu dövrə sahilboyu ərazidə ilk evlərin tikilməsi də aiddir.

1902-ci ildə Şəhər Duması Bakının dənizkənarı şəhər olduğunu, sahil zolağında çoxsaylı körpüləri nəzərə alaraq, əhaliyə bulvar şəklində dənizə bir çıxış verməyi qərara alır. Sahil zolağının abadlığı zəruri idi, bunu sahilyanı ərazinin mülki mühəndis K.B.Skureviç tərəfindən tərtib edilmiş layihəsini təqdir edən şəhər Duması və İdarəsi də etiraf edirdi. Bağ Komissiyasının 1902-ci il iclasında təqdim olunmuş layihə müzakirə edilir.

Dənizkənarı bulvarın yaradılması məsələsi Şəhər Upravası tərəfindən dəfələrlə müzakirə edilsə də, yalnız 1909-cu ildə praktiki addımlar atılır. Əvvəlcə "Qafqaz və Merkuri" cəmiyyətinin körpüsündən Seyid Mirbabayevin evinə (Kukla teatrından "Azneft" meydanına kimi) qədər olan sahilboyu ərazinin abadlaşdırılması qərara alınmışdı.

1909-cu ilin aprelində Bakı Şəhər Upravasının tikinti şöbəsinin rəisi, mühəndis Məmmədhəsən Hacınski Şəhər Dumasının iclasında Dənizkənarı bulvarın tikintisi ilə bağlı məsələnin müzakirəyə çıxarılmasına nail olur. Onun alovlu çıxışı Dənizkənarı bulvarın salınmasında önəmli rol oynayır. Aprelin 9-da "Kaspi" qəzetinin 77-ci sayında Hacınskinin Dənizkənarı bulvarın tikintisi ilə bağlı iclasdakı məruzəsi çap olunur. O, çıxışında şəhərdə yeganə olan Mixaylovski bağının azlıq etdiyini, əhalinin asudə vaxtını keçirməsi üçün geniş bir yerin ayrılmasının zəruriliyini vurğulayır. M.Hacınski ilk gündən bu vəzifədə Bakı şəhərinin Baş planının həyata keçirilməsində, bağ və bağçaların, bulvarın, yolların və meydanların genişləndirilməsində, yeni binaların tikintisində yaxından iştirak etmiş, Bakının ən məşhur abidələrindən biri - Şirvanşahlar tarixi abidəsinin qorunması və bərpası, bulvarın genişləndirilməsi üçün dəniz sahilinin qurudulub torpaq tökülməsi və s. haqqında məsələ qaldırmışdır. M.Hacınski eyni zamanda Bakının ictimai və siyasi həyatında da yaxından iştirak etmişdi. Sahilyanı bulvarın tikintisi üçün Duma vəsait ayırır. Hacı Zeynalabdin Tağıyevin maliyyə yardımı ilə həyata keçirilən Dənizkənarı bulvarın kompleks tikintisinə rəhbərlik etməsi M.Hacınskinin əməkhaqqını ayda altı min rubla qədər yüksəldir və həmin layihələr iki il ərzində yerinə yetirilərək başa çatır

## Ağ Şəhərdən Bibiheybətəcən...

Bu gün Dənizkənarı Milli Park ərazisinin böyüklüyünə görə Parisdə Sena çayı sahilindəki parkdan sonra Avropada ikinci yerdədir. 1998-ci il dekabrın 29-da Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə Dənizkənarı bulvara "Milli Park" statusu verilib. Son illər burada böyük tikinti və abadlıq işləri həyata keçirilib. Bulvarın ərazisi dənizə doğru xeyli genişləndirilib. Yaşıllıq artırılıb, müxtəlif ölkələrdən gətirilmiş yeni dekorativ ağac və kollar əkilib.

Bulvarda attraksionların, kafelərin, səyyar ticarət və xidmət obyektlərinin sayı getdikcə artır. Parkda yeni elektrobuslar, faytonlar, dəniz gəmiləri və s. gəzinti marşrutları işləyir, səyyar fotostudiyalar, kiçik ticarət köşkləri, müasir kafelər, istirahət və əyləncə mərkəzləri fəaliyyət göstərir.

Bu istirahət məkanı Ümummilli Lider Heydər Əliyevin yadigarlarından biridir. Bura ölkə əhəmiyyətli tarix və mədəniyyət abidələri sırasına daxil edilib. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə 2010-cu ildən etibarən bulvar ərazisində genişmiqyaslı yenidənqurma işləri aparılıb. Bulvarın ərazisi Ağ Şəhər və Bibiheybət istiqamətinə qədər genişləndirilib.

Bulvarda dövlət səviyyəsində abadlıq, quruculuq, genişləndirmə işləri davam edir. 2010-cu ildə Dənizkənarı Milli Parkın ərazisində Dövlət Bayrağı Meydanının açılışı olub. Bundan əlavə, Köhnə bulvar ərazisində Park Bulvar, Bakı Biznes Mərkəzi, Azərbaycan Xalça Muzeyi, Beynəlxalq Muğam Mərkəzi, Yeni Bulvar ərazisində Bakı Kristal Zalı, Bayıl bulvarı ərazisində "Yarat" Müasir İncəsənət Mərkəzi, "Daş salnamə" muzeyi, Su İdmanı Sarayı kimi müasir əhəmiyyətli memarlıq obyektləri inşa olunub.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

● Memarlıq inciləri

# Şirvan hakimlərinin iqamətgahı



**Orta əsr memarlığının şah əsərlərindən olan Şirvan hakimlərinin iqamətgahı - Şirvanşahlar Saray Ansamblı bugünə qədər öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır. Hələ XII əsrdə Bakıda möhkəm qala divarlarının (1138-1139) tikildiyi məlum idi. Şamaxıda baş verən zəlzələdən sonra paytaxt Bakıya köçürüldükdə şəhərin ən yüksək nöqtəsində Şirvanşahlar Sarayı ucaldılır.**

Sarayın ansamblı 9 tikilidən - Saray binasından, Divanxanadan, Dərviş türbəsindən, Şərq darvazasından (portal), saray məscidindən, Keyqubad məscidindən, saray türbəsindən, hamam və ovdandan ibarətdir. Kompleks binalarının biri digərindən 5,6 metr hündürlükdə yerləşən 3 həyətdən ibarətdir. Sarayın yerləşdiyi ərazi mürəkkəb relyefli olduğu üçün saray vahid memarlıq planına malik deyildir. Lakin buna baxmayaraq binalar təzad təşkil etmir, əksinə biri digərini gözəlləşdirir. Ən müxtəlif nöqtələrdən baxarkən tikililərin saray ansamblının tərkib hissələri olduğu aydın görünür.

## Saray binası

Saray 2 mərtəbəli düzgün olmayan düzbucaqlı formaya malik bir binadır. Onu yaxşı işıqlandırmaq üçün binanın cənubi-şərq bucağı girintili-çıxıntılı hazırlanmışdır. İlk vaxtlar sarayda 52 otaq varmış, onlardan 27-si I, 25-ci isə II mərtəbədə yerləşirmişdir. Otaqlar simmetrik şəkildədir. II mərtəbədə tağ tavanla örtülmüş şahın özü və ailəsinin otaqları yerləşirdi. II mərtəbənin pəncərələri Bakı Buxtasının gözəl mənzərəsinə açılır. Onları daş şəbəkələr daha da gözəlləşdirir. Mərtəbələr arasında əlaqələr 2 ensiz pilləkən və 8 bucaqlı zalın döşəməsində yerləşən pilləkənlər vasitəsilə yaradılır. Təmir nəticəsində hazırda II mərtəbədə cəmi 16 otaq vardır. Girişdəki 8 guşəli zal bu otaqlardan öz ilkin görünüşünə görə seçilir. Qalan 14 otaq da bərpa edilmişdir.

## Divanxana

Divanxana kompleksi yuxarı həyətdə yerləşir və onun şimal tərəfi ilə bir tini yaşayış binasına bitişmişdir. Tədqiqatçıların fikrincə, belə bir ehtimal var ki, Şirvanşah Fərrux Yasər Divanxana kompleksini özü üçün məqbərə olaraq tikdirmişdir. Lakin tikinti işləri başa çatmamışdır. Sütunlar üzərindəki izlər göstərir ki, onlar nə vaxtsa incə daş barelyeflərlə bəzədilib. Sütunlu yer tanınmış feodalların yığıncağı üçün təyin olunubmuş. Divanxanaya yuxarı həyətdən və küçədən gələn 2 giriş vardır.

Rotondanın da 2 giriş qapısı vardır. Qərb girişi uca və nəfis işlənmiş portal ilə seçilir. Portalın çərçivəsində 2 ədəd 6 guşəli medalyon vardır ki, onların içərisində sol tərəfdə gül şəkilli həndəsi fiqur əmələ gətirən 6 ədəd romb izlənir. Romblardan ikisinin üzərində "Allahdan başqa Allah yoxdur", digərində "Məhəmməd Allahın elçisidir", sonuncuda isə "Əli Allaha yaxındır" sözləri yazılıb. Sağ tərəfdəki 6 bucaqlının içərisində isə 12 ədəd romb əks olunub. Onlardan 6 ədədinin üzərində "Allah təkdir", digər 6 ədədinin üzərində isə "Məhəmməd" sözləri yazılmışdır. Portalla yanaşı rotondaya gedən daxili keçid də gözəl ornamentlərlə işlənmişdir. Bu ornamentlərdən yuxarıda Quranın 10-cu surəsi ("Yunus" surəsi 25, 26, 27-ci ayələr) yazılmışdır. "Uca və pak olan Allah dedi: Allah xalqı behiştə çağırır və istədiyi şəxsi düz yola hidayət edir, ona düz yol göstərir. Yaxşı və gözəl əməl sahiblərindən ötrü əcr və savab vardır. Onların üzərini günah pərdəsi örtmədiyi kimi, zəlil də olmazlar, onlar əhli-dildirlər, həmişəlik orada qalacaqlar. Allah doğru deyir". Burada bədiilik effekti hörgünün xüsusiyyətindən asılı olaraq işıq-kölgə oynaqlığı ilə verilir. Rotonda tağlarının oxları üzərində 6 bucaqlı medalyonlar vardır ki, onların daşları üzərində 3 qabarıq və 3 oyuq formada "Əli" adı həkk olunmuşdur. Ehtimal olunur ki, binanın tikintisi 1500-1501-ci illərdəki müharibələr dövründə dayandırılıb.

Divanxananın memarlıq üslubunun kamilliyi, ornamentlərin yüksək dərəcədə hazırlanma səviyyəsi Azərbaycan xalqının zəngin memarlıq irsinə malik olduğunu göstərir. Bura gözəlliyinə və incəliyinə görə nəinki Azərbaycanın, həm də Yaxın Şərqin uyğun memarlıq abidələrənin şah əsəri sayılır.

## Dərviş türbəsi

Xalq arasında "Dərviş türbəsi" adı ilə məşhur olan və ərazinin cənub hissəsində yerləşən türbə orta həyətdə mərkəzi yer tutur. Bəzi mütəxəssislər bu türbənin yanlışlıqla Seyid Yəhya Bakuviyə aid olduğunu iddia edirlər. Bəziləri isə əsassız olaraq sarayın aşağı həyətlərindəki bütün abidələri, Dərviş türbəsi də daxil olmaqla Xanəgah tikililəri kompleksinə aid edirlər.

Tarixçilərin məlumatına görə, Seyid Yəhya Bakuvi I Xəlilullah dövründə saray alimlərindən biri olub. O, Şamaxı şəhərində doğulmuşdur. Gəncliyində Şeyx Sədrəddin təriqətinin davamçısı olmuşdur. Şeyx Sədrəddinin ölümündən sonra Bakıya gələrək ömrünün sonuna kimi burada yaşamışdır. Bəzi müəlliflərin yazdıqlarına görə, o, hicri tarixi ilə 862-ci ildə vəfat etmişdir. Bizə Seyid Yəhya Bakuvinin 30 adda əsəri gəlib çatmışdır. Onlar əsasən sufizm-mistik xüsusiyyətini daşıyır və Türkiyənin Manisa şəhərində "Muradiyyə" kitabxanasında saxlanılır.

Türbə Keyqubad məscidinin bünövrəsi olan kompleksdədir. Onu da qeyd etmək lazımdır ki, türbə üzərində onun kimə aid olduğunu bildirən kitabə və türbənin içərisində məzar daşı olmamışdır. Türbə incə quruluşu ilə diqqəti cəlb edir.

Epiqrafçı alim Məşədixanım Nemətin ehtimalına görə, Şirvanşahlar Sarayı kompleksindəki Dərviş türbəsi adlanan yerdə dəfn olunan Şirvanşah Şeyx İbrahim (1382-1417) vaxtında hicri tarixi ilə 805-ci ildə (1402-03) Mərəzə yaxınlığında "Diri baba" türbəsinin kitabəsini yazmış şəxsdir.

***Hazırladı: İradə ƏLİYEVA, "Azərbaycan"***

● Səs-küylü məkan

# Şəhər meydanları

**İçərişəhərin meydanlarının müxtəlif təyinatları var idi. Əgər ölçüləri və memarlıq baxımından təşkili buna imkan verirdisə, eyni meydan hərdən bir neçə funksiyanı yerinə yetirirdi. Bunların içərisində ticarət-bazar meydanları xüsusı əhəmiyyət kəsb edirdi. Ətrafdakı memarlıq ansamblının kompozisiyasına tabe olmasına baxmayaraq, şəhər meydanları sırasında came məscidləri qarşısındakı böyük meydanlar birinciliyə iddialı idilər. Onları came meydanları adlandırırdılar.**



Bunlardan savayı, ayrı-ayrı məhəllələrdə yerləşən məhəllə məscidləri yaxınlığında kiçik ölçülü meydanlar da mövcud idi. Heç nəyə baxmayaraq onlar məhəllənin kompozisiya mərkəzləri idilər və bu meydanların şəhərsalmada əhəmiyyəti bir o qədər də böyük deyildi. Məscidlər küçələrin daha böyük hissələrində və ya məhəllələrin kəsişməsində inşa edilirdi. Bu halda meydanlar trapesiya və ya üçbucaqşəkilli olurdu.

Bazar meydanları şəhərin ən əhəmiyyətli hissəsi idilər. Orta əsrlərdə Azərbaycan şəhərlərində bazar meydanları planlaşmasına, ölçülərinə və yer seçiminə görə çox müxtəlifdir. Bu dövrdə nizamsız bazar meydanları geniş yayılmışdı. Onlar hər üç tərəfdən çatmatağlı qalereya ilə əhatə olunurdu. Meydanı əhatə edən tağ sırası eyni zamanda onun ictimai əhəmiyyətini göstərirdi.

Ticarət inkşaf etdikcə bazar meydanlarının əhəmiyyəti artırdı. Həmin yerlərdə çox vaxt içərisi su ilə dolu hovuzlar tikilirdi. Bu cür hovuzlar quru və isti havanın nəmləndirilməsinə yardım edirdi, qızmar günəş şüaları altında alış-veriş edən insanların əhvali-ruhiyyəsinə müsbət təsir göstərirdi.

Orta əsr meydanları öz ölçülərinə görə çox da böyük olmurdu. Şəhər küçəsinin müəyyən hissəsinin genişləndirilməsilə kifayətləndirilirdi. Hədsiz sıx tikinti arasında bu kiçik meydanlar xüsusi əhəmiyyətə malik idilər. Dar küçə - koridorlara alışqan olan insanlar kiçik bir açıq fəzaya çıxdıqda, təbiidir ki, genişlik hissi keçirirdilər. Orta əsr inşaat ustaları küçə və meydanların təzadlı nisbəti ilə müəyyən miqyas-görünüş effekti yaradırdılar.

Şəhərin ərazisinə nisbətən meydanlar az yer tuturdu. Böyükölçülü meydanlara çox nadir hallarda rast gəlinirdi. Şəhər planında meydanın dominant yeri onunla vurğulanırdı ki, bunların yaxınlığında küçələrin mürəkkəb labirintində oriyentir rolunu oynayan böyük binalar tikilirdi, eyni zamanda şəhərin ayrı-ayrı hissələrini birləşdirən əsas magistral ona tərəf istiqamətlənirdi.

***"Azərbaycan"***

SOCAR
SOCAR PETROLEUM QSC

xalqımızı
Qurban bayramı




Bayramınız mübarək!

# AHİK Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə yardım edib



İyulun 29-da Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) Milli Məclisin deputatı, qurumun sədri Səttar Möhbalıyev Qarabağ müharibəsi əlilləri və şəhid ailələri ilə görüşüb. AHİK sədri görüş iştirakçılarını müqəddəs Qurban bayramı münasibətilə təbrik edib.

AHİK-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə S.Möhbalıyev dövlətimizin Qarabağ müharibəsi iştirakçılarına, şəhid olmuş insanların ailə üzvlərinə, əlillərə, eləcə də aztəminatlı ailələrə göstərdiyi diqqət və qayğıdan söhbət açıb. Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın həssas qrupa aid olan insanların sosial problemlərini daim diqqətdə saxladıqlarını və bu sahəyə xüsusi diqqət göstərdiklərini diqqətə çatdırıb. Qeyd edib ki, ölkəmizdə aparılan geniş miqyaslı islahatlar dövlətimizin vətəndaşlara olan diqqət və qayğısını təcəssüm etdirərək əhalinin rifahının yaxşılaşdırılmasına xidmət edir. Bildirib ki, koronavirus pandemiyası dövründə dövlətimiz tərəfindən aztəminatlı ailələrə, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə verilən müavinətlər artırılıb və bu proses bundan sonra da davam etdiriləcək.

Sonra AHİK sədri görüşdə iştirak edən insanların müraciətlərini dinləyib, hər birinin problemləri ilə tanış olub. Qarşılaşdıqları problemlərin həllində onlara imkan daxilində müəyyən kömək göstəriləcəyini bildirib. Görüşdə iştirak edənlər Səttar Möhbalıyevə minnətdarlıqlarını ifadə ediblər.

Tədbirdən sonra görüş iştirakçılarının hər birinə maddi yardımlar göstərilib.

# Ödənişli ictimai iş yerləri ilə təmin olunanların sayı artmaqda davam edir

Prezident İlham Əliyevin tapşırığına əsasən ödənişli ictimai iş yerlərinin sayı 90 minə çatdırılıb və həmin işlərə cəlb edilənlərin sayı artıq 65 mini ötüb. Haqqıödənilən ictimai işlərə cəlb edilən şəxslərin hər biri ilə əmək müqaviləsi bağlanıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, yeni yaradılan ictimai iş yerləri əsasən dezinfeksiya işlərinin aparılması, tənha yaşlılara və əlilliyi olan şəxslərə sosial xidmətlərin göstərilməsi, eləcə də abadlaşdırma, yaşıllaşdırma, parklara qulluq və s. kimi sahələri əhatə edir.

# Los-Anceles meri Azərbaycan icmasının üzvlərinə qarşı hücumları pisləyib

Los-Anceles şəhərinin meri Erik Qarsetti Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayevə məktub ünvanlayaraq, iyulun 21-də Baş Konsulluğun ofisi qarşısında azərbaycanlılara münasibətdə baş verən zorakılığı kəskin şəkildə qınadığını bildirib və hadisənin Los-Anceles Polis İdarəsi tərəfindən araşdırıldığını qeyd edib.

Bu barədə AZƏRTAC-a Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğundan məlumat verilib.




Məktubunda sərbəst toplaşmaq və söz azadlığının amerikan dəyərlərinin təməl daşları olduğunu və bu azadlıqların Los-Ancelesdə də uzun illərdir təmin olunduğunu deyən mer Los-Ancelesdə zorakılığın yolverilməz olduğunu vurğulayıb. E.Qarsetti Los-Ancelesdə yaşayan Azərbaycan icmasının təhlükəsizliyinin təmin olunması istiqamətində səylərin davam etdiriləcəyini bildirib.

# İtaliya Senatında Ermənistanın son təxribatlarına dair dinləmələr keçirilib

İtaliya Senatının Xarici işlər daimi komissiyasında Ermənistanın Azərbaycana qarşı son hərbi təxribatları ilə bağlı Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadənin iştirakı ilə dinləmələr keçirilib. Dinləmələri Senatın Xarici işlər daimi komissiyasının sədri senator Vito Petroçelli açaraq baş verən hadisələrin İtaliya Senatını ciddi narahat etdiyini deyib və bu mövzuda müzakirələrin aparılmasının vacibliyini bildirib.

AZƏRTAC xəbər verir ki, səfir Məmməd Əhmədzadə mövzu ilə bağlı geniş təqdimatla çıxış edib. Çıxışında diplomat Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi köklərindən danışaraq, bu xüsusda ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi, tarixi torpaqlarımızda Ermənistan dövlətinin yaradılması və ərazilərimiz hesabına genişləndirilməsi barədə məlumat verib. Səfir, həmçinin azərbaycanlıların indiki Ermənistan ərazisindəki öz tarixi torpaqlarından sistematik olaraq deportasiyası, Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması barədə də danışıb.

Diplomat 1988-ci ildən başlayaraq Ermənistanın ölkəmizə qarşı irəli sürdüyü yeni ərazi iddiaları, Azərbaycana qarşı həyata keçirdiyi hərbi təcavüz və onun nəticələri barədə məlumat verib. Çoxsaylı beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş sənədlərin, o cümlədən BMT Təhlükəsizik Şurasının dörd qətnaməsinin tələblərini səsləndirib, bütün bunlara Ermənistanın məhəl qoymadığı, erməni tərəfinin danışıqlar prosesini uzatmağa yönəlik destruktiv hərəkətləri, eləcə də münaqişə ilə bağlı status-kvonu möhkəmləndirmək, işğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyət və davamlı olaraq atəşkəs rejimini pozmaq cəhdlərini vurğulayıb.

Diplomat Ermənistanın iyulun 12-dən başlayaraq Azərbaycana qarşı Tovuz rayonu istiqamətində həyata keçirdiyi yeni hərbi avantürası və Ermənistan rəhbərliyini buna təhrik edən səbəblər, eləcə də məqsədlər barədə də ətraflı danışıb. O, Tovuz rayonu ərazisindən Azərbaycanın enerji ehtiyatlarını Qərb ölkələrinə və dünya bazarlarına daşıyan strateji nəqliyyat infrastrukturunun, o cümlədən İtaliyaya da xam nefti nəql edən Bakı-Tbilisi-Ceyhan neft kəməri və bir neçə aydan sonra təbii qaz nəql edəcək "Cənub qaz dəhlizi"nin keçdiyini bildirib, bu ərazidə Ermənistanın hərbi təxribatlarının "Cənub qaz dəhlizi"nin tam gücü ilə istismara verilməsindən bir neçə ay əvvəl baş verməsinin də təsadüf olmadığını deyib.

Eyni zamanda diplomat Ermənistanın mövcud hadisələrlə bağlı çoxsaylı dezinformasiyalar da yaydığını, erməni radikal qrupları tərəfindən Azərbaycanın xaricdəki diplomatik nümayəndəliklərinə, diplomatik heyətinə və xaricdə yaşayan azərbaycanlılara qarşı fiziki hücumlar və vandalizm aktları həyata keçirdiyini, proseslərə obyektiv yanaşan xarici kütləvi informasiya vasitələrinə, nüfuzlu ictimai xadimlərə, siyasətçilərə təzyiqlər etdiyini də qeyd edib. Diplomat Azərbaycanın haqlı mövqeyinə dəstək göstərən və müvafiq bəyanatlar verən italyan parlamentarlarına da təşəkkürünü bildirib.

Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya tarixi dövlət səfəri vaxtı iki ölkə arasında imzalanmış "Çoxölçülü Strateji Tərəfdaşlığın Gücləndirilməsinə dair Birgə Bəyannamə"yə istinad edərək bu sənədlə İtaliyanın Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstəyini ifadə etdiyini və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Helsinki Yekun Aktının təməl prinsipləri, xüsusilə suverenlik, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığı əsasında nizamlanmasını dəstəklədiyini bildirib. Bundan irəli gələrək, eləcə də ATƏT-in Minsk Konfransının ilk sədri kimi İtaliyanın institusional yaddaşa malik olduğunu, Azərbaycandakı böyük iqtisadi və strateji maraqlarını, iki ölkə arasında iqtisadi əməkdaşlığın neft və qazın tədarükü ilə məhdudlaşmadığını, son illər Azərbaycanda italyan şirkətlərinin böyük layihələrə cəlb olunduğunu, habelə İtaliyada uğurlu yerli muxtariyyət modelləri təcrübəsinin də olduğunu nəzərə alaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün İtaliyanın öz səylərini daha da artırmasının vacib və faydalı olacağını vurğulayıb.

Tədbir İtaliya senatorları tərəfindən baş vermiş hadisələrə münasibətdə şərhlərin bildirilməsi və sual-cavab sessiyası ilə davam edib. Senatorların əksəriyyəti münaqişənin dialoq və danışıqlar yolu ilə nizamlanmasının vacibliyini, münaqişənin həllində BMT Təhlükəsizlik Şurasının qətnamələrinin əsas olduğunu və İtaliyanın maraqları nöqteyi-nəzərdən hökumətin münaqişənin nizamlanması üçün səylərinin artırmasının əhəmiyyətini qeyd ediblər.

Səfir M.Əhmədzadə senatorların sualları əsasında münaqişənin həllinə münasibətdə ölkəmizin mövqeyi, münaqişənin sırf ərazi maraq kəsb etməsi və ermənilərin iddia etdiyi kimi heç bir dini amilə əsaslanmadığı, beynəlxalq ictimaiyyətin, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrlərinin münaqişənin həlli üçün səylərini artırmasının vacibliyi barədə danışıb.

Tədbir İtaliya Senatının rəsmi televiziya kanalı olan Senato TV və Senatın sosial şəbəkə profilləri üzərindən canlı olaraq yayımlanıb.




# Azərbaycanda koronavirusdan sağalanların sayı 25 mini ötüb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 673 nəfər sağalıb, 339 yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 31 min 560 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 25 min 168 nəfər müalicə olunaraq sağalıb, 441 nəfər vəfat edib. Aktiv xəstə sayı 5951 nəfərdir. Ötən müddət ərzində 717 min 164 test aparılıb. Dünənki test sayı isə 8532-dir.

# Ötən həftə Azərbaycanda koronavirus infeksiyasından 3717 nəfər sağalıb, 2529 yoluxma halı qeydə alınıb

Ötən həftə - iyulun 20-dən 26-dək Azərbaycanda koronavirus infeksiyasına 2529 yoluxma halı qeydə alınıb. COVID-19-dan 3717 nəfər sağalıb, analiz nümunələri müsbət çıxmış 63 nəfər vəfat edib.

AZƏRTAC **koronavirusinfo.az** saytına istinadla xəbər verir ki, iyunun ortalarından etibarən ən az yoluxma halı məhz 20-26 iyul həftəsində qeydə alınıb. İndiyədək ən çox yoluxma faktı iyunun 29-dan iyulun 5-dək olan həftədə müşahidə olunub - 3900 yoluxma. Sağalanların sayına gəlincə, hazırkı dövrədək ən çox sağalma halı 13-19 iyul həftəsində olub - 3874 sağalma. İndiyədək koronavirusdan ən çox ölüm faktı isə ötən həftə qeydə alınıb - 63 ölüm.

Qeyd edək ki, iyulun 13-dən 19-dək və iyulun 20-dən 26-dək olan həftələrdə sağalma halları yoluxma hallarını üstələyib. Hər iki həftə üzrə müvafiq olaraq 3480 yoluxma, 3874 sağalma və 2529 yoluxma, 3717 sağalma qeydə alınıb. Sonuncu dəfə belə müsbət tendensiya 13-19 aprel, 20-26 aprel, 27 aprel-3 may həftələrində müşahidə olunub.

ADY




GCM GLOBAL ENERGY AZERBAIJAN

“Global Energy Azerbaijan”
şirkəti və onun törəmə şirkətləri
Azərbaycan xalqını

“Absheron Operating Company”
“Binagadi Oil Company”
“Karasu Operating Company”
“Shirvan Operating Company”
“Neftechala Operating Company”

Müqəddəs Qurban bayramı
münasibətilə təbrik edir, hər bir ailəyə səadət, sevinc dolu günlər və firavan həyat diləyir

# Baş Prokurorluğun nümayəndələri BMT-nin Mərkəzi Asiya ilə bağlı yeni proqramının müzakirəsinə dair videokonfransda iştirak ediblər

Birləşmiş Millətlər Təşkilatının (BMT) Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Mərkəzi Asiya regionu üçün 2021-2025-ci illəri əhatə edən yeni proqramının müzakirəsinə həsr olunmuş videokonfrans formatında görüşü keçirilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Mərkəzin nümayəndəsi Aşita Mital və Azərbaycan Respublikası Baş Prokurorluğunun, o cümlədən Daxili İşlər və Ədliyyə nazirliklərinin, Dövlət Təhlükəsizliyi Xidmətinin və digər dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

Tədbirdə Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəis müavini Əmir Ocaqverdiyev və Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini Toğrul Muxtarov korrupsiya, çirkli pulların yuyulması, qanunsuz narkotik dövriyyəsinin və digər transmilli xarakter daşıyan cinayətlərə qarşı mübarizə sahələrində müəyyənləşdirilən prioritetlər barədə tədbir iştirakçılarını məlumatlandırıblar.

Proqram çərçivəsində əməkdaşlığın perspektivlərinə dair səmərəli fikir mübadiləsi və müzakirələr aparılıb.

azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Azərbaycan xalqını
QURBAN BAYRAMI




Həyatınız daim işıqlı olsun!

## Xızı Rayon İcra Hakimiyyəti Başçısının Xızı Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi 2020-ci il üçün *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir.

LOT - 2. Xızı şəhərində avtomobil yollarının əsaslı təmiri

Tender iştirakçılarına təklif olunur ki, **www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı - 200 manat**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**

**Təşkilat: Xızı Şəhər İƏD üzrə Nümayəndəlik**
**HESAB: AZ51CTRE00000000000002517032**
**VÖEN: 7800015151**
**BANK: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**

**QEYD:** İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.*

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **01 sentyabr 2020-ci il saat 15:00-a** qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **09 sentyabr 2020-ci il saat 15:00-a** qədər Portala təqdim etməlidirlər.

İddiaçıların təklifləri **10 sentyabr 2020-ci il saat 15:00-da** Portalda açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada portal vasitəsi ilə aparılır.*

Telefon: (023 31) 5 03 16

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən “Azərbaycan” qəzetinin 25 iyun 2020-ci il tarixli 121 (8437) saylı buraxılışında dərc olunmuş “Tikili və avadanlıqların cari təmir xərcləri” xərc maddəsi üzrə 18 saylı uşaq bağçasının və şəhər icra hakimiyyətinin xidməti avtomobil qarajlarında təmir işlərinin satın alınması ilə bağlı açıq tender elanında tenderdə iştirak etmək üçün tələb olunan sənədlərin təqdim edilməsinin son tarixi və vaxtı 07 avqust 2020-ci il saat 15:00-dək, tender təklifinin təqdim edilməsinin son tarixi və vaxtı 17 avqust 2020-ci il saat 15:00-dək, zərflərin açılış tarixi və vaxtı 18 avqust 2020-ci il saat 15:00-dək uzadılmışdır.

***Tender komissiyası***

AZPETROL

Qurban bayramınız mübarək!

“Azpetrol” şirkəti Qurban bayramı münasibətilə Azərbaycan xalqına sülh, xoşbəxtlik, əmin-amanlıq, ruzi-bərəkət, firavan həyat və xoş gələcək arzu edir.







"Mətanət A" şirkəti Azərbaycan xalqını mənəvi birlik rəmzi olan Müqəddəs Qurban Bayramı münasibəti ilə təbrik edir, Uca Allahdan kəsilən qurbanların, edilən duaların qəbul olunmasını diləyir!

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# “AzerGold” QSC tərəfindən Şadax kəndinə yeni su xətti çəkilib



“AzerGold” Qapalı Səhmdar Cəmiyyəti (QSC) fəaliyyət göstərdiyi “Çovdar” filiz emalı sahəsinə yaxınlıqda yerləşən kəndlərdə əhalinin içməli su təminatının yaxşılaşdırılması istiqamətində daha bir addım atıb.

“AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin Mətbuat xidmətindən verilən məlumata görə, Daşkəsən rayonunun Şadax kəndinin sakinlərinin müraciəti əsasında yaşayış məntəqəsinə yaxın mənbədən götürülən su nümunələrinin tərkibi müvafiq laboratoriyada yoxlanılaraq standartlara uyğunluğu təsbit edildikdən sonra yeni su xəttinin çəkilməsi və bulağın inşa edilməsi ilə bağlı qərar qəbul edilmişdir. Qərara əsasən, cəmiyyət tərəfindən suyun mənbə hissəsində toplanması məqsədilə ərazidə 15 $m^3$ tutumlu xüsusi anbar inşa edilmişdir. Daha sonra təqribən 2000 metr məsafədən su xəttinin çəkilməsi və yeni bulağın istifadəyə verilməsi kənddə mövcud su probleminin həllinə əhəmiyyətli dərəcədə töhfə vermişdir.

Qeyd edək ki, layihə BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədindən biri olan təmiz suyun hər kəs üçün əlçatanlığının təmin edilməsi istiqamətində həyata keçirilən və ölkəmizin də könüllü olaraq qoşulduğu qlobal fəaliyyətə, qəbul etdiyi milli inkişaf prioritetlərinə əlavə töhfə vermək məqsədi daşıyır.

Ümumilikdə “AzerGold” QSC-nin korporativ sosial məsuliyyət siyasəti çərçivəsində icra edilən bu tip tədbirlər sosialyönümlü dövlət proqramlarına dəstək xarakteri daşımaqla yanaşı, cəmiyyətin fəaliyyət göstərdiyi bölgədə yaşayan ailələrin qayğı ilə əhatələnməsinə xidmət edir. Xatırladaq ki, ötən ilin aprel ayında cəmiyyət tərəfindən Daşkəsən rayonunun Çaykənd kəndinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə yeni su xətti çəkilmişdir.

## “Bakı Metropoliteni” QSC istismarında olan qanovların döşəməsi üçün rezin məmulatların satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, **https:www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

LOT - 1 “Bakı Metropoliteni” QSC-nin istismarında olan qanovların döşəməsi üçün rezin məmulatların satın alınması

**İştirak haqqı - 100 manat**

**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **21 avqust 2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **31 avqust 2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **01 sentyabr 2020-ci il saat 15:00-da** açılacaqdır.
İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

Coca-Cola

şirkəti Azərbaycan xalqını

Qurban bayramı

münasibətilə təbrik edir,
bolluq və firavan həyat arzulayır

Bayramınız mübarək!




# OXUCULARIN NƏZƏRİNƏ "AZƏRBAYCAN"

***qəzetinə 2020-ci ilin ikinci yarısı üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*1 aylıq*
**10,40 (on manat qırx qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

# Qurban bayramı günlərində fasiləsiz və dayanıqlı elektrik enerjisi təmin ediləcək

Koronavirus (COVID 19) pandemiyası ilə əlaqədar olaraq ilk gündən etibarən "Azərişıq" ASC gücləndirilmiş iş rejimində fəaliyyətini davam etdirir. Həmçinin Qurban bayramı günlərində də istehlakçıların fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin edilməsi məqsədilə bütün qabaqlayıcı tədbirlər həyata keçirilib.

Baş verə biləcək qəzaların operativ qaydada aradan qaldırılması üçün bütün ölkə üzrə qəza xidmətləri fəaliyyət göstərir. Həmçinin abonentlərimiz bayram günlərində elektrik enerjisindən istifadəyə görə yaranmış borcu evdən çıxmadan onlayn qaydada ödəyə bilər. Bunun üçün azərişıq.az saytında müvafiq bölməyə daxil olmaq kifayətdir. "Smart" sayğacdan istifadə edən istehlakçılara da tövsiyə olunur ki, əvvəlcədən sayğacların balansını yoxlasınlar və öncədən balanslarını artırsınlar.

Yarana biləcək hər hansı bir nasazlıqda istehlakçılarımızdan dərhal "199" Çağrı Mərkəzinə və rəsmi Facebook, Instagram səhifələrimizə müraciət etmələri xahiş olunur. 24 saat fasiləsiz fəaliyyət göstərən "199" Çağrı Mərkəzinə daxil olmuş təklif və şikayətlər dərhal icraya yönəldilir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti mətbəx ləvazimatlarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 11 avqust 2020-ci il saat 18:00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.
Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti yumşaq inventarların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 17 avqust 2020-ci il saat 18:00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.
Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti 1547 layihəli gəmilər üçün çıraqların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 14 avqust 2020-ci il saat 18:00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.
Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti işlənmiş təkər, zəncir və takelaj dəstlərinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 17 avqust 2020-ci il saat 18:00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.
Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti təsərrüfat mallarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 14 avqust 2020-ci il saat 18:00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.
Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.

***Tender komissiyası***

## Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən geyimlərin satın alınması ilə bağlı kotirovka sorğusuna dair Satınalmalar komissiyasının 01 iyul 2020-ci il tarixli qərarına əsasən Cədvəl 1 üzrə Fiziki şəxs Kolesnikov Aleksey Qennadiyevic, Cədvəl 2 üzrə isə "Alyans Tekstil" MMC qalib elan edilmişdir.

Qalib şəxslərlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov Milli Məclisin deputatı Qüdrət Həsənquliyevə əzizi
**BƏHRUZ KƏRİMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Elçin və Namiq Quliyevlər Əhmədzadə və Rəcəbov ailələrinə əzizləri
**İLHAM RƏCƏBOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İlham İbrahimov və Rafiq Hüseynov ailələri ilə birlikdə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Bakı şəhəri üzrə Baş Maliyyə İdarəsinin əməkdaşı Mahir Ələkbərova qardaşları
**RZA VƏ SABİR ƏLƏKBƏROVLARIN**
Ağcabədi rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova və komitənin kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadəyə əzizi, Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin rəis müavini, Qeydiyyat İmtahan İdarəsinin rəisi, polkovnik
**İLHAM RƏCƏBOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Qüdrət Həsənquliyevə əzizi
**BƏHRUZ KƏRİMOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Abbas, Rövşən, Akif və Ramiz Göyüşov qardaşları Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadəyə əzizi
**İLHAM RƏCƏBOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Prezidenti yanında İdarəçilik Akademiyası Hüquq kafedrasının kollektivi kafedranın əməkdaşı Xatirə Əlizadəyə atası
**RASİM MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Elnur Allahverdiyevə əzizi
**ELMİRA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qaxdan Xəyyam Məmmədov, Qabil Əfəndiyev, Ənvər Hacıyev, Hüseyn Razıyev, Elşən Nəzirov Əhmədzadələr ailəsinə əzizləri
**İLHAM RƏCƏBOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yasamal rayon 5 saylı uşaq poliklinikasının kollektivi İlham bəy və İradə xanıma əzizləri
**BİBİXANIM XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7015
Sifariş 1800
Qiyməti 40 qəpik